RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 121 (10141) 11 iyul 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# TOVUZ DÖYÜŞLƏRİ: qətiyyət və gücün nümayişi

12 iyul 2020-ci ildə günorta saatlarında Ermənistan silahlı qüvvələrinin təxribatçı qrupları Azərbaycanın dövlət sərhədini pozaraq Tovuz rayonu istiqamətində yeni mövqelər ələ keçirmək üçün hücuma keçdilər. Düşmənin əsas məqsədi əlverişli yüksəkliklərə yiyələnmək idi. Mövqelərində ayıq-sayıq dayanan hərbi qulluqçularımız işğalçıların qarşısını almaq üçün təcili olaraq müvafiq tədbirlər görməyə başladılar. Neçə vaxtdan bəri susan silahlar bir an içində dilə gəldi. Görülən zəruri və təxirəsalınmaz tədbirlər nəticəsində düşmən hücumunun qarşısı qətiyyətlə alındı, ağır itki verən işğalçılar geri çəkildilər.

Amma düşmən silahı yerə qoymadı. Növbəti gün gecə və səhərə yaxın Ermənistan hərbi birləşmələri Tovuz istiqamətində gərginliyi artırmaq üçün iriçaplı pulemyotlardan, qumbaraatanlardan, minaatan qurğulardan və digər silahlardan istifadə edərək yenidən mövqelərimizi atəşə tutdular. Təxribatın qarşısını almaq üçün hərbi birləşmələrimiz tərəfindən sərt cavab tədbirləri görüldü. Əks-həmlələr qarşısında duruş gətirməyən düşmən irəli gedə bilməyəcəyini görüb hücumlarını dayandırdı. Döyüş meydanlarında məğlubiyyətə uğrayan yağılar bunun əvəzini həmin gün sərhəd kəndlərinə atəş açmaqla çıxdılar. Tovuzun Ağdam, Dondar Quşçu kəndlərini minaatanlardan və toplardan atəşə tutdular. Əhali arasında qorxu və vahimə yaratmağa çalışdılar. Amma çirkin məqsədlərinə çata bilmədilər. Çünki qoşunlarımız tərəfindən qısa müddət ərzində düşmənin bu təxribatçı hərəkətlərinə qarşı sərt cavab tədbirləri həyata keçirildi. Dəqiq atəş zərbələri ilə Ermənistan silahlı qüvvələrinin bir neçə hərbi obyekti, zirehli texnikaları, həmçinin atəş mövqeləri, radiolokasiya stansiyası və başqa zəruri hərbi infrastrukturu darmadağın edildi. İşğalçıların ordumuzun mövqelərini ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alındı. Düşmən bir addım da olsun irəliləyə bilmədi.

Əməliyyatlara əlavə qüvvələr cəlb edən işğalçılar həmin gün gecə və səhər saatlarında yenə də hücumlarını davam etdirdilər. İyulun 14-də erməni silahlı birləşmələri Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini iriçaplı silahlar və artilleriya qurğularından fasiləsiz olaraq atəşə tutdular. Təəssüflər olsun ki, həmin gün olduqca gərgin keçən əməliyyat zamanı müdafiənin ön xəttində olan general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və bir neçə hərbi qulluqçumuz şəhid oldular. Onların qisasını ordumuzun cəsur zabit və əsgərləri aldılar. Ağır itkilər verən ermənilərin geri çəkilməkdən başqa çarələri qalmadı.

Beləcə Tovuz döyüşləri Azərbaycanın hərb tarixinə Zəfərin başlanğıcı kimi yazıldı. Uğurla başa çatan döyüşlər bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almağa qadir və hazırdır.

Tovuz döyüşləri zamanı erməni işğalçılarının onlarla canlı qüvvəsi, zirehli texnikası, dayaq məntəqəsi, artilleriya qurğuları və başqa silah-sursatları məhv edildi. Azərbaycan Prezidenti İlham Əliyev zabit və əsgərlərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqdan, igidlikdən söz açaraq demişdir: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib". Dövlətimizin başçısı Tovuzda baş verən hadisələri Ermənistanın növbəti təxribatı adlandırdı və Azərbaycanın ərazi bütövlüyünün qorunacağını qətiyyətlə bildirdi.

7

# Ölkəmizdə terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə mühüm nailiyyətlər əldə edilib

## Prezident İlham Əliyev bir sıra beynəlxalq qurumların rəhbər şəxslərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Maliyyə Tədbirləri üzrə İşçi Qrupu və Çirkli Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin prezidenti, Böyük Britaniyanın Maliyyə Nazirliyində İqtisadi Cinayətkarlıq və Sanksiyalar üzrə direktor Giles Tompson, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Eqmont Qrupun sədri, Polşanın Maliyyə Nazirliyinin Maliyyə Məlumatları Departamentinin direktor müavini Elzbieta Franko-Yaskeviç, Eqmont Qrupun icraçı katibi, Fransanın Maliyyə Kəşfiyyat Orqanının Beynəlxalq əməkdaşlıq departamentinin direktor müavini Jerom Bomon, "MONEYVAL" şirkətinin prezidenti, San Marinonun Maliyyə Kəşfiyyat Orqanının direktoru Nikolla Muçiolli, Eqmont Qrupun sədr müavini, Almaniyanın Maliyyə Kəşfiyyat Orqanının rəhbəri Daniel Telesklaf və Eqmont Qrupun sədr müavini, Səudiyyə Ərəbistanının Maliyyə Kəşfiyyat Orqanının rəhbəri Məhəmməd bin Əbdülrahman Al-muhannanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkəmizin Eqmont Qrupun illik plenar sessiyasına evsahibliyi etdiyi vurğulanaraq, tədbirin yüksək səviyyədə təşkil olunduğu, orada səmərəli müzakirələrin aparıldığı qeyd edildi.

Görüşdə Azərbaycanla nümayəndə heyətinə daxil olan qurumlar arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, tərəfdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

Ölkəmizdə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ardıcıl tədbirlər görüldüyü, bu istiqamətdə mühüm nailiyyətlərin əldə edildiyi bildirildi.

# Qanunvericilik müasir çağırışlara uyğun olaraq təkmilləşdirilir



**İyulun 10-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin təsdiqindən sonra iclasda müzakirə ediləcək 22 məsələdən ilk ikisinin beynəlxalq sənədlərlə bağlı qanun layihələri olduğunu və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq onların bir oxunuşda qəbul ediləcəyini bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov "Gəmilərin ballast sularının və çöküntülərinin idarə edilməsi və nəzarətinə dair" Beynəlxalq Konvensiyaya qoşulmaq haqqında qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, Konvensiya 2004-cü il fevralın 13-də London şəhərində imzalanıb. Konvensiyanın əsas məqsədi dənizin ekoloji mühitinin qorunmasıdır.

Konvensiyaya əsasən, sənədin tətbiq dairəsinə daxil olan gəmilər ballast sularının idarə edilməsi planına malik olmalı, bununla bağlı aparılan bütün əməliyyatlar xüsusi kitabda qeyd edilməli, beynəlxalq sertifikat alınmalı və müəyyən edilmiş qaydada mütəmadi yoxlamalardan keçirilməlidir. Ölkəmizin bu Konvensiyaya qoşulması ballast sularının və çöküntülərin idarə edilməsinin beynəlxalq standartlara uyğun təşkilinə, dəniz ekosistemlərinin mühafizəsinin gücləndirilməsinə və ölkəmizin beynəlxalq dəniz hüquqlarından irəli gələn öhdəliklərinin icrasına xidmət edəcək.

3

# Kibertəhlükəsizlik dövlət siyasətinin prioritetlərindən biridir



Hər bir güclü sistemin təməlində təkmil qanunvericilik dayanır. Azərbaycan kibertəhlükəsizlik sahəsində hüquqi bazanı tamamilə yeniləyir və müasirləşdirir. İlk dəfə olaraq ölkəmizin qanunvericiliyinə tamamilə yeni və aktual anlayışlar daxil edilir. Hüquqi müstəvidə kiberdayanıqlılıq, kibergigiyena, kiberməkan və kibertəhlükəsizlik kimi anlayışların dəqiq əsasları müəyyən olunur. Bu anlayışların qanunla tənzimlənməsi gələcək addımların hüquqi çərçivəsini formalaşdırır.

6

# Azərbaycandan Rusiya-Ermənistan tranzit daşımaları davam edir

**Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə növbəti tədarük həyata keçirilib.**



AZƏRTAC xəbər verir ki, 14 vaqondan ibarət, çəkisi 470 ton olan propan və 5 vaqondan ibarət, çəkisi 339 ton olan gübrə bu gün Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 36 min tondan çox taxıl, 8 min tona yaxın gübrə, 1136 ton propan, 133 ton alüminium və 414 ton antrasit göndərilib.

Eyni zamanda indiyədək Azərbaycandan Ermənistana 14 min tondan çox dizel, 5 min tona yaxın Aİ-92 və Aİ-95 benzini ixrac olunub.

# 20 il fasiləsiz və təhlükəsiz neft nəqli

## Bu, BTC əsas ixrac boru kəməri vasitəsi ilə mümkün olub




BTC Ulu Öndər Heydər Əliyevin şah əsərlərindən biridir. Belə ki, onun reallaşması Ümummilli Liderin səyi, mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində mümkün olub. Bu layihənin bir önəmli cəhəti də odur ki, yeni meqalayihələrə yol açıb. Başqa sözlə, Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhandan başlanan yolu geniş dəhlizlərə qovuşdurub. Dövlətimizin başçısı BTC-nin çəkilişini tarixi hadisə kimi dəyərləndirərək demişdir: "Əgər o kəmər olmasaydı, Azərbaycan öz neft və ondan sonra qaz potensialını dünya bazarlarına çatdıra bilməzdi. Beləliklə, dəhliz yaradıldı. Xəzər dənizi-Qara dəniz-Aralıq dənizi əməkdaşlıq formatı formalaşmışdır. Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan bu gün uğurla fəaliyyət göstərir və başqa ölkələrə də xidmət edir. Dəhliz formalaşandan sonra əlbəttə ki, Azərbaycan öz tranzit rolunu oynamağa başlamışdır. Bu gün biz qeyd edə bilərik ki, artıq Azərbaycan öz coğrafi vəziyyətindən, logistika imkanlarından tam şəkildə istifadə edir".

9

# Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743, № 11, maddə 1011; 2026, № 3, maddə 211; Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 372-VIIQD nömrəli və 21 aprel tarixli 387-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.0.29-cu maddədə "və tərcüməçidir" sözləri ", tərcüməçi, habelə təqsirləndirilən şəxs olmayan, lakin əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxsdir" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 99-1-ci maddə əlavə edilsin:

**"Maddə 99-1. Əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs**

99-1.1. Təqsirləndirilən şəxs olmayan, lakin əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan fiziki şəxs məlum olan sonuncu yaşayış yeri, hüquqi şəxs isə yerləşdiyi ünvan üzrə cinayət prosesini həyata keçirən orqan tərəfindən bildiriş göndərilməklə məlumatlandırılırlar.

99-1.2. Cinayət prosesini həyata keçirən orqan bu Məcəllənin 99-1.1-ci maddəsində göstərilən şəxsin müraciətinə əsasən 3 (üç) gündən gec olmayaraq onun əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs qismində cinayət prosesinə cəlb edilməsi barədə qərar qəbul edir.

99-1.3. Əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

99-1.3.1. cinayət işinə əlavə edilməsi və məhkəmə iclasında tədqiq olunması üçün sübutlar və digər materiallar təqdim etmək;

99-1.3.2. etirazlar etmək və vəsatətlər vermək;

99-1.3.3. birinci və apellyasiya instansiyası məhkəmələrinin iclaslarında və işin materiallarının tədqiqində iştirak etmək;

99-1.3.4. qanuni mənafeyinə toxunan şikayəti ilə cinayət işinə kassasiya, əlavə kassasiya qaydasında və ya hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə baxılmasında və cinayət işi materiallarının tədqiqində iştirak etmək, yaxud cinayət prosesinin digər iştirakçısının şikayətinə öz etirazını bildirmək;

99-1.3.5. məhkəmə iclasında cinayət prosesinin digər iştirakçıları tərəfindən verilmiş vəsatət və təkliflər, habelə məhkəmə tərəfindən həll edilən məsələlər üzrə öz fikrini bildirmək;

99-1.3.6. nümayəndəyə malik olmaq və onun səlahiyyətlərinə xitam vermək;

99-1.3.7. ana dilində və ya bildiyi başqa dildə ifadə (izahat) vermək;

99-1.3.8. cinayət prosesini həyata keçirən orqan tərəfindən qəbul edilmiş, onun hüquq və qanuni mənafeyinə toxunan qərarlar haqqında həmin orqan tərəfindən məlumatlanmaq və öz xahişi ilə həmin qərarların surətlərini almaq;

99-1.3.9. əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs qismində cəlb edilməsi barədə qərarın çıxarılıb-çıxarılmamasından asılı olmayaraq, xüsusi müsadirəni və ya mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulmasından məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında, habelə xüsusi müsadirənin tətbiq olunması, mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulması hissəsində məhkəmənin hökmü və ya digər yekun qərarından apellyasiya, kassasiya və ya əlavə kassasiya qaydasında şikayət vermək;

99-1.3.10. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

99-1.4. Əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

99-1.4.1. cinayət prosesini həyata keçirən orqanın çağırışı ilə gəlmək;

99-1.4.2. təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmaq;

99-1.4.3. məhkəmə iclasında sədrlik edənin icazəsi olmadan fasilə elan edilənədək məhkəmənin iclas zalını tərk etməmək;

99-1.4.4. məhkəmə iclasında qaydaya riayət etmək;

99-1.4.5. şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və ya qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

99-1.4.6. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

99-1.5. Məhkəmə cinayət işlərinə, habelə əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxsin məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında verdiyi şikayətə, apellyasiya, kassasiya və ya əlavə kassasiya şikayətlərinə baxılması üzrə məhkəmə iclaslarında iştirak etmək hüququndan istifadə etməsi üçün onun müvafiq məhkəmə iclasının vaxtı və yeri barədə məlumatlandırılması ilə bağlı bu Məcəllədə nəzərdə tutulmuş tədbirləri görməlidir.

99-1.6. Əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs cinayət prosesini həyata keçirən orqan tərəfindən şahid qismində dindirilə bilər.

99-1.7. Əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs şəxsən, qanuni nümayəndəsi və ya nümayəndəsi vasitəsilə öz hüquqlarından istifadə edir və vəzifələrini yerinə yetirir.";

1.3. 249.3.4-cü maddədə "və atasının adı" sözləri ", atasının adı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan" sözləri ilə əvəz edilsin;

1.4. 252.1.4-cü maddəyə ikinci halda "yer" sözündən sonra ", hüquqi şəxsin adı və yerləşdiyi ünvan" sözləri əlavə edilsin;

1.5. 253.0-cı maddə üzrə:

1.5.1. ikinci cümlədə "həmin şəxs əmlakın həbsdən azad edilməsini mülki mühakimə icraatı qaydasında tələb etmək" sözləri "əmlak üzərinə səhvən həbs qoyulduğunu hesab edən şəxs əmlak üzərinə həbs qoyulması barədə müstəntiqin qərarından məhkəmə nəzarəti qaydasında bu Məcəllənin 449-cu maddəsinə uyğun olaraq, məhkəmənin qərarından isə bu Məcəllənin 454-cü maddəsinə uyğun olaraq şikayət vermək" sözləri ilə əvəz edilsin;

1.5.2. üçüncü cümlə çıxarılsın;

1.6. 383.1.7-ci və 384.1.12-ci maddələrin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və müvafiq olaraq aşağıdakı məzmunda 383.1.8-ci və 384.1.13-cü maddələr əlavə edilsin:

"383.1.8. xüsusi müsadirənin tətbiq edilməsinə və ya mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulmasına dair hissədə - xüsusi müsadirənin tətbiq edilməsi və ya mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulması nəticəsində hökm və ya məhkəmənin digər yekun qərarı ilə qanuni mənafeyinə toxunulan fiziki şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi.";

"384.1.13. xüsusi müsadirənin tətbiq edilməsi və ya mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulması barədə hökm və ya məhkəmənin digər yekun qərarı çıxarıldıqda.";

1.7. aşağıdakı məzmunda 384.3-1-ci maddə əlavə edilsin:

"384.3-1. Əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs qismində cəlb edilməmiş şəxs tərəfindən hüquqlarının pozulmasını ehtimal etdiyi məhkəmə hökmündən və ya digər yekun qərardan apellyasiya şikayətinin verilməsi üçün prosessual müddət hökmün və ya digər yekun qərarın surətinin alındığı və ya həmin hökmlə və ya digər yekun qərarla hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu andan hesablanır.";

1.8. 405.1.4-cü və 405.2.3-cü maddələrin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və müvafiq olaraq aşağıdakı məzmunda 405.1.5-ci və 405.2.4-cü maddələr əlavə edilsin:

"405.1.5. xüsusi müsadirə cinayət qanununun və ya bu Məcəllənin tələbləri pozulmaqla tətbiq edildikdə, habelə bu Məcəllə və digər qanunla müəyyən edilmiş tələblər pozulmaqla mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulduqda.";

"405.2.4. xüsusi müsadirə cinayət qanununun və ya bu Məcəllənin tələbləri pozulmaqla tətbiq edildikdə, habelə bu Məcəllə və digər qanunla müəyyən edilmiş tələblər pozulmaqla mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulduqda.";

1.9. 409.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 409.1.7-ci maddə əlavə edilsin:

"409.1.7. xüsusi müsadirənin tətbiq edilməsi və ya mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulması nəticəsində hökm və ya məhkəmənin digər yekun qərarı ilə qanuni mənafeyinə toxunulan fiziki şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi.";

1.10. aşağıdakı məzmunda 409.5-1-ci və 410.1.2-1-ci maddələr əlavə edilsin:

"409.5-1. Bu Məcəllənin 409.1.7-ci maddəsində nəzərdə tutulmuş şəxslər yalnız xüsusi müsadirənin tətbiq edilməsinə və ya mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulmasına dair hissədə şikayət vermək hüququna malikdirlər.";

"410.1.2-1. əmlak üzərinə həbs qoyulması barədə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə qanuni mənafeyinə toxunulan şəxs qismində cəlb edilməmiş şəxs tərəfindən hüquqlarının pozulmasını ehtimal etdiyi məhkəmə hökmündən və ya digər yekun qərardan - hökmün və ya digər yekun qərarın surətinin alındığı və ya həmin hökmlə və ya digər yekun qərarla hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu andan 3 (üç) ay müddətində;";

1.11. 416.1.22-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 416.1.23-cü maddə əlavə edilsin:

"416.1.23. xüsusi müsadirə cinayət qanununun və ya bu Məcəllənin tələbləri pozulmaqla tətbiq edildikdə, habelə bu Məcəllə və digər qanunla müəyyən edilmiş tələblər pozulmaqla mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulduqda.";

1.12. 422.3-cü maddəyə "nümayəndələri," sözündən sonra "bu Məcəllənin 409.1.7-ci maddəsində nəzərdə tutulmuş şəxslər və ya onların nümayəndələri (yalnız xüsusi müsadirənin tətbiq edilməsinə və ya mülki iddianı təmin etmək məqsədilə əmlak üzərinə həbs qoyulmasına dair hissədə)," sözləri əlavə edilsin;

1.13. aşağıdakı məzmunda 449.3.4-4-cü maddə əlavə edilsin:

"449.3.4-4. əmlak üzərinə həbs qoyulması;".

**Maddə 2.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15, № 4 (I kitab), maddə 322, № 8, maddə 743, № 11, maddə 1011; 2026, № 1, maddələr 8, 16, № 3, maddə 207; Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 376-VIIQD nömrəli Qanunu) 183.2-ci maddəsi ləğv edilsin.

**Maddə 3.** "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 1, maddə 1, № 2, maddə 100, № 4 (I kitab), maddələr 315, 322, № 5, maddə 440, № 6, maddələr 526, 536, № 7, maddələr 610, 617, № 8, maddələr 743, 744; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 389-VIIQD nömrəli Qanunu) 89-cu maddəsinə birinci halda "əmlakın" sözündən sonra "(cinayət işləri üzrə hökmlərin və qərarların əmlakın alınmasına dair hissəsi istisna olmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təbii qazın Gürcüstana təchizatı barədə Saziş"in təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təbii qazın Gürcüstana təchizatı barədə Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2026-cı il*

# İqtisadi Şuranın iclası keçirilib

**İyulun 10-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın iclası keçirilib.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, iclasın gündəliyində birinci məsələ "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın layihəsi, o cümlədən, turizmin inkişaf perspektivləri və əsas prioritet tədbirlər, ikinci məsələ kimi "Dağ-mədən və metallurgiya sənayesinin inkişafı: mövcud vəziyyət və 2030-cu ilə perspektivləri" barədə proqramın layihəsi və eləcə də digər cari iqtisadi məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan birinci məsələ üzrə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin və ikinci məsələdə iqtisadiyyat naziri Mikayıl Cabbarovun geniş təqdimatı dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər.

İclasın yekununda gündəlikdə müzakirə olunan hər iki dövlət proqramının layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 noyabr tarixli 447 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibb müəssisələrinin akkreditasiyası Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 209** **Bakı şəhəri, 9 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 may tarixli 62 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 noyabr tarixli 447 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1391 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Tibb müəssisələrinin akkreditasiyası Qaydası" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

2.1. bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan Qaydanın 1.2.3-cü yarımbəndində və 4.4-cü, 4.18-ci, 4.26-cı bəndlərində nəzərdə tutulan normativ hüquqi aktları bu Qərarın 3-cü hissəsi nəzərə alınmaqla doqquz ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

2.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Qərarın 1-ci hissəsi 2028-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 210** **Bakı şəhəri, 10 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 330-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 587 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 784 (Cild I); 2026, № 4, maddə 384) ilə təsdiq edilmiş "Qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası"nın 1.1-ci və 1.2-1-ci bəndlərində "76-1-ci" sözləri "76-1.1-ci" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan və Türkiyə arasında əlaqələr hərbi sahədə uğurla inkişaf edir

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin İdarə Heyətinin sədri Selçuk Bayraktarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüşdə general-polkovnik Z.Həsənov iki qardaş ölkə arasında münasibətlərin bütün digər sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyini bildirib.

"Baykar" şirkətinin Türkiyənin müdafiə sənayesindəki böyük rolu olduğunu diqqətə çatdıran nazir qabaqcıl texnoloji innovasiyaların tətbiqi ilə birgə istehsalat potensialının daha da artırılmasının əhəmiyyətini vurğulayıb.

Selçuk Bayraktar göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək qarşılıqlı səfərlərin Azərbaycan-Türkiyə hərbi və hərbi-texniki əməkdaşlığının möhkəmlənməsinə müsbət təsir göstərdiyini xüsusi qeyd edib.

Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgünün də iştirak etdiyi görüşdə tərəflər pilotsuz uçuş aparatları, radioelektron mübarizə, insansız sistem vasitələri və digər sahələrə dair ətraflı fikir mübadiləsi aparıblar.

## Milli Məclisin iclasında

# Qanunvericilik müasir çağırışlara uyğun olaraq təkmilləşdirilir

*Əvvəli 1-ci səh.*

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələyə dair rəhbərlik etdiyi komitənin rəyini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Azərbaycan Respublikası ilə Ukrayna arasında mülki və ticarət işləri üzrə hüquqi yardım haqqında Müqavilə"nin təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Nəzərə çatdırılıb ki, müqavilə beynəlxalq təcrübədə qəbul edilən hüquqi standartları özündə ehtiva edir. Sənədin tənzimləmə predmetinə mülki və ticarət işləri üzrə hüquqi yardımın həcmi və göstərilməsi qaydası, məhkəmələr və digər orqanlar arasında səmərəli əməkdaşlığın həyata keçirilməsi, fiziki və hüquqi şəxslərin hüquqlarının təmin edilməsi, məhkəmə qərarlarının qarşılıqlı tanınması və icrasının hüquqi çərçivəsinin müəyyən edilməsi daxildir. Bildirilib ki, tərəflərin mərkəzi orqanları qismində Azərbaycanın və Ukraynanın Ədliyyə nazirlikləri müəyyən edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Pərvanə Vəliyeva məsələ ilə bağlı bu komitənin müsbət rəy verdiyini söyləyib. Bildirilib ki, müzakirə olunan Müqavilənin ratifikasiyası ölkələrimiz arasında iqtisadi və mülki münasibətlərin hüquqi bazasının möhkəmlənməsinə xidmət edəcək.

Bu qanun layihəsi də səsə qoyularaq qəbul edilib.

İclasda daha sonra Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında, "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul olunub.

Spiker Sahibə Qafarova gündəliyin qalan 11 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu söyləyib. O, diqqətə çatdırıb ki, növbəti iki məsələ Azərbaycan Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Qeyd edilib ki, iclasda kənd təsərrüfatı nazirinin müavinləri İlhamə Qədimova, Zaur Əliyev və Seymur Səfərli iştirak edirlər.

Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Toxumçuluq haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (birinci oxunuş) təqdim edib. Komitə sədri Prezidentin rəhbərliyi ilə kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatların aqrar sektorun inkişafında mühüm rol oynadığını vurğulayıb. Bu islahatların ölkəmizin iqtisadi qüdrətinin artırılması ilə yanaşı, vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət etdiyini söyləyib. Bildirilib ki, dövlət tərəfindən kənd təsərrüfatının inkişafına göstərilən qayğı və diqqət sahibkarlığın dəstəklənməsinə, ixracın artırılmasına, keyfiyyətli məhsul istehsalına, ərzaq təhlükəsizliyinin təminatına imkan yaradır.






Nəzərə çatdırılıb ki, təqdim edilən qanun layihəsi Azərbaycan Respublikasında toxumun istehsalı, emalı, tədarükü, saxlanması, daşınması, ticarət dövriyyəsi, o cümlədən idxalı və ixracı, sertifikatlaşdırılması və keyfiyyətinə nəzarətlə bağlı yaranan münasibətləri tənzimləyir, bu sahədə fəaliyyət göstərən subyektlərin və dövlət orqanlarının fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Qeyd olunub ki, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində bitkiçilik məhsullarının istehsalı xüsusi yer tutur və bunun üçün yüksək məhsuldarlığa və sabit irsi əlamətlərə malik, zərərli orqanizmlərə və müxtəlif iqlim amillərinə dözümlü bitki sortlarının yetişdirilməsi, fermerlərin keyfiyyətli toxumla təminatı həlledici əhəmiyyət daşıyır.

Layihədə anlayışlar sistemi təkmilləşdirilib. Tənzimləmə və nəzarət mexanizmləri aydın şəkildə göstərilib. Sahənin obyektlərinin və subyektlərinin dairəsi dəqiqləşdirilib. Eyni zamanda toxumun keyfiyyətinə nəzarət və sertifikatlaşdırma prosesinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması nəzərdə tutulur. Toxum müfəttişlərinin səlahiyyət və vəzifələri, habelə toxumların emalı, məhv edilməsi, qablaşdırılması və etiketləşdirilməsi prosesləri dəqiq müəyyən edilir.

Sənəddə əks olunan əsas yeniliklərdən biri toxumçuluq sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatının elektron şəkildə aparılmasıdır və bu, prosesin operativliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Elektronlaşma aidiyyəti şəxslərin sortluq və səpin keyfiyyətini təsdiq edən sertifikatı olan toxumlar, onların bioloji və iqtisadi göstəriciləri barədə ətraflı məlumat almalarına şərait yaradacaq.

Bildirilib ki, qanun habelə rəqabət mühitinin formalaşmasına şərait yaradacaq, toxumçuluq sahəsinin iqtisadi əsaslarının yenilənməsini təmin edəcək. Belə ki, yüksəknəsilli orijinal və elit toxumların istehsalına özəl sektorun cəlb edilməsi bu sahədə rəqabət mühiti yaratmaqla özəl seleksiyanın və özəl ilkin toxumçuluğun inkişafına imkan yaradacaq.

Qanun qəbul edilərsə toxumçuluq sektorunda köklü islahat hesab edilməklə, aqrar sektorun dayanıqlı inkişafına əhəmiyyətli təsir göstərəcəyi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı məhsullarının bolluğunun yaradılmasına xidmət edəcəyi söylənilib.

"Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (birinci oxunuş) bildirilib ki, sənəd "Toxumçuluq haqqında" yeni qanunun tələblərindən irəli gələrək hazırlanıb və müvafiq dəyişiklikləri özündə ehtiva edir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini bildirən komitənin sədr müavini Azər Badamov bildirib ki, layihədə seleksiya nailiyyətləri, qeydiyyata alınmış toxum əməliyyatçıları və toxumluq əkinlər barədə məlumatların elektron reyestrdə aparılması, toxum əməliyyatçılarının qeydiyyatına və toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatların verilməsinə görə dövlət rüsumunun müəyyən edilməsi, toxum əməliyyatçılarının qeydiyyatına dair reyestrdən çıxarışın sahibkarlıq fəaliyyəti üçün tələb olunan icazələr siyahısına daxil edilməsi nəzərdə tutulur.

Qanun layihələri ilə bağlı müzakirələrdə komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Vüqar Bayramov, Müşfiq Cəfərov, Vüqar İskəndərov, Azər Allahverənov çıxış edərək fikir və təkliflərini açıqlayıblar.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq, birinci oxunuşda qəbul edilib.

Gündəliyin növbəti iki məsələsinin də ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim edildiyi və mahiyyətcə bir-birinə yaxın olduğu bildirilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanun layihəsi balıqçılığın, o cümlədən balıq və digər su bioresurslarının ovunun və akvakulturanın təşkilinin, idarə edilməsinin, balıq və digər su bioresurslarının artırılmasının, istifadəsinin və mühafizəsinin hüquqi əsaslarını müəyyən edir. Nəzərə çatdırılıb ki, sənəddə anlayışlar sistemi təkmilləşdirilib. İdarəetmə və nəzarət mexanizmləri müasirləşdirilib. Layihə ilə balıqçılıq sahəsində idarəetmənin rəqəmsallaşdırılması, informasiya sistemləri vasitəsilə balıqçılıq subyektləri, istifadə edilən resurslar və dövriyyəyə daxil olan məhsullar üzrə məlumatların uçotu və izlənməsi mexanizmləri yaradılır. Balıq ehtiyatlarının istifadəsi üçün kvotaların elmi əsaslarla müəyyən edilməsi, ov icazələrinin verilməsində şəffaflıq, real vaxtlı monitorinq, elektron uçot sistemləri və məsafədən izləmə texnologiyalarının tətbiqi nəzərdə tutulur.

Layihədə akvakultura fəaliyyətinin hüquqi tənzimlənməsi daha da təkmilləşdirilərək bu sahədə fəaliyyət göstərən subyektlər üçün qeydiyyat əsaslı icazə mexanizmi və Biotexnoloji Layihə Sənədinin tətbiqi müəyyən edilir. Su hövzələrinin akvakultura məqsədilə istifadəsi, balıqçılıq təsərrüfatlarının hüquqi statusu, akvakultura obyektlərinin qeydiyyatı, məhsuldarlığın tənzimlənməsi, eləcə də törədici balıqların və onların sürülərinin idarə olunması məsələləri normativ əsaslarla müəyyən edilir.

Qeyd edilib ki, qanun layihəsi balıqçılıq və akvakultura sahəsində idarəetmənin təkmilləşdirilməsinə, su bioresurslarının dayanıqlı istismarına, biomüxtəlifliyin qorunmasına, daxili bazarda balıqçılıq məhsullarına tələbatın ödənilməsinə və ixrac potensialının artırılmasına, eyni zamanda hüquqi məsuliyyətin real təsirinin gücləndirilməsinə yönəlmiş hüquqi əsas formalaşdırır.

Məsələ barədə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov komitənin rəyini təqdim edərək bildirib ki, qanun layihəsi ərzaq təhlükəsizliyi, iqtisadi inkişaf, ekoloji təhlükəsizliyin təmini məsələsində mühüm əhəmiyyət kəsb edir. Sənəd balıqçılıq sahəsində müasir elmi əsaslara söykənən, rəqəmsal və ekoloji məsuliyyət prinsiplərinə əsaslanan yeni idarəetmə modelinin formalaşdırlmasına şərait yaradacaq.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumat verib. Bildirilib ki, sənəddə "Balıqçılıq haqqında" qanun layihəsindən irəli gələrək bir sıra dəyişikliklər nəzərdə tutulur.

Layihədə akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsi ilə bağlı hüquqi mexanizmlərin təkmilləşdirilməsi nəzərdə tutulur. Bu məqsədlə "Dövlət rüsumu haqqında" qanuna dəyişiklik edilərək, akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumu müəyyən edilir. Eyni zamanda "Lisenziyalar və icazələr haqqında" qanuna təklif edilən dəyişiklikdə sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi əlavə olunur.

Məsələlərlə bağlı müzakirələrdə çıxış edən deputatlar Razi Nurullayev, Pərvanə Vəliyeva, Vasif Qafarov fikirlərini bölüşüblər.

Qanun layihələr ayrı-ayrılıqda səsə qoyularaq, birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin 16-cı məsələsinin - Torpaq Məcəlləsində, Mülki Məcəllədə və "Qiymətləndirmə fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olduğunu bildirib. Spiker qeyd edib ki, bu məsələ və növbəti iki məsələ ilə bağlı "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi Şəxsin İdarə Heyəti sədrinin müavini Elşad Məmmədov iclasda iştirak edir.

Qanun layihəsi barədə məlumat verən Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev diqqətə çatdırıb ki, dəyişikliklər əmlakdan və torpaq sahələrindən daha səmərəli istifadə edilməsini, torpaq bazarında dövriyyənin aktivləşməsini, dövlət və vətəndaşlar arasında qarşılıqlı razılıq əsasında əmlak mübadiləsinin aparılmasını, iqtisadi fəallığın yüksəldilməsini nəzərdə tutur. Belə ki, dövlət mülkiyyətində olan torpaq sahələri qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan torpaq sahələri ilə qanunla müəyyən edilən qaydada dəyişdirilə bilər. Bu hal özəlləşdirilməsi qadağan olunan və dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinə şamil edilmir.

Layihə ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov üzv olduğu komitənin müsbət rəyini açıqlayaraq bildirib ki, sənəd dövlət mülkiyyətində olan əmlakın qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlakla, o cümlədən torpaq sahələri ilə dəyişdirilə bilməsinin hüquqi əsasını yaradır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini açıqlayan komitə sədrinin müavini Azər Badamov bildirib ki, dəyişdirilən əmlakların, o cümlədən torpaq sahələrinin qiymətləndirilməsi bazar qiyməti nəzərə alınmaqla "Qiymətləndirmə fəaliyyəti haqqında" qanuna uyğun olaraq həyata keçiriləcək.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Növbəti məsələ - Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə də Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məlumat verib. Komitə sədri bildirib ki, kənd təsərrüfatı torpaqlarının kiçik hissələrə parçalanması torpağın əkinə yararlılığını məhdudlaşdırır, texnikadan, sudan, təbii resurslardan, aqrotexniki vasitələrdən effektiv istifadəni çətinləşdirir. Bunun nəticəsində istehsal xərcləri artır, məhsuldarlıq aşağı düşür, kənd ərazilərinin sosial-iqtisadi inkişafı ləngiyir. Bu sahəyə dair xüsusi hüquqi tənzimlənmənin olmaması isə torpaqların konsolidasiyasının ölkə miqyasında tam həyata keçirilməsinin qarşısını alır. Bu boşluğu aradan qaldırmaq məqsədilə Torpaq Məcəlləsinə yeni 13-2-ci maddə əlavə edilir. Həmin maddə torpaqların konsolidasiyasını - kənd təsərrüfatı məqsədilə torpaq sahələrinin mülkiyyətçilərinin razılığı və ekvivalent bazar dəyəri əsasında birləşdirilməsi, bölünməsi, sərhədlərinin yenidən müəyyən edilməsi, dəyişdirilməsi nəticəsində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsini müəyyən edir.

Layihədə digər qanunlara təklif olunan dəyişikliklər torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsini, konsolidasiya prosesinin texniki şərtlərini, torpaq bazarının tənzimlənməsini, konsolidasiyaya dair bölgü sənədinin daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsas olan sənədlər siyahısına əlavə edilməsini nəzərdə tutur.

Qeyd olunub ki, qanun layihəsi kənd təsərrüfatında məhsuldarlığın artırılması, torpaq resurslarından səmərəli istifadənin təmin edilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və kənd yerlərinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Layihə ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin müsbət rəyini səsləndirən komitənin üzvü Nurlan Həsənov sənəddə konsolidasiyanın könüllülük prinsipi əsasında həyata keçirildiyini vurğulayıb. Torpaq sahələrinin konsolidasiyası yalnız mülkiyyətçilərin razılığı ilə aparılır, bazar dəyəri prinsipi qorunur, zərurət yarandıqda kompensasiya mexanizmi tətbiq olunur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin müsbət rəyini açıqlayan komitə sədrinin müavini Azər Badamov bildirib ki, sənəd kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası üçün hüquqi zəminin formalaşdırılması, torpaq sahələrinin könüllülük və ekvivalent bazar dəyəri prinsipləri əsasında birləşdirilməsi, bölünməsi və yenidən təşkili mexanizmlərinin müəyyən edilməsi məqsədilə hazırlanıb.

Komitə sədri Siyavuş Novruzovun və deputat Vüqar Bayramovun dəyişikliklərlə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev daha sonra Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli və "Aqrar sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Dəyişikliklərdə daşınmaz əmlakın dövlət reyestri və kadastrının vahid sistemdə birləşdirilməsi və məlumatların vahid mənbədən əldə edilməsinin və saxlanılmasının təmin edilməsi nəzərdə tutulur. Təklif olunan dəyişikliyə əsasən, dövlət kadastrına daxil edilməli olan məlumatların dairəsi və həmin məlumatların dövlət kadastrına daxilolma əsasları konkretləşdirilir.

Qeyd olunub ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunun qüvvədə olan redaksiyasında hüquqların qeydiyyatı üçün nəzərdə tutulan 10 iş günü müddəti kəskin azaldılaraq 1 iş günü olaraq təyin olunur. Vurğulanıb ki, dəyişiklik daşınmaz əmlak bazarında çevikliyin təmininə və xərclərin azaldılmasına xidmət edir.

Layihəyə görə, dövlət reyestri "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi vasitəsilə elektron üsulla aparılacaq. Həmçinin torpaq sahəsi daşınmaz əmlakın bir növü olduğundan kadastrın ayrı-ayrı əmlak növləri üçün fərqli tənzimlənməsi və aparılması əvəzinə ölkə üzrə vahid daşınmaz əmlak kadastrı yaradılacaq. Bundan başqa, layihədə tikintisinə icazə tələb olunan tikinti obyektləri üzərində hüquqların dövlət qeydiyyatının optimallaşdırılması, tikintisi başa çatmamış binalarda mənzil satışlarının tənzimlənməsi, vətəndaşlara qeydiyyat orqanına fiziki olaraq gəlmədən internet üzərindən (EHİS vasitəsilə) ölkənin istənilən yerində yerləşən əmlakına dair ərizənin verilməsi və hazır sənədin əldə edilməsi imkanı nəzərdə tutulub.

Layihə ilə bağlı komitələrinin rəyini diqqətə çatdıran İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədrinin müavini Azər Badamov və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov dəyişikliklərin üstünlüklərindən danışıblar, xidmətlərin elektronlaşmasının, daşınmaz əmlakın qeydiyyatı və mülkiyyət sənədlərinin vahid qaydada tənzimlənməsinin əhəmiyyətini vurğulayıblar.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Növbəti qanun layihəsi - İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Qeyd edib ki, təklif olunan dəyişikliklər əsasən Milli Məclisdə müzakirədə olan müvafiq qanun layihələrində nəzərdə tutulan normalara və təkmilləşdirmələrə uyğun hazırlanıb. Məruzəçi layihədə inzibati xəta törətmiş psixi problemi olan şəxsə psixiatriya müayinəsi və yardımı ilə bağlı, kibertəhlükəsizlik sahəsində normativ hüquqi aktların tələblərinin pozulmasına görə müəyyən edilən məsuliyyət növlərindən danışıb. Həmçinin yalançı sahibkarlıq fəaliyyəti, toxumçuluq, istehlakçı hüquqlarının müdafiəsi, qumar oyunlarında iştirak və digər sahələrdə inzibati məsuliyyət normalarının dəqiqləşdirilməsi ilə bağlı dəyişiklikləri diqqətə çatdırıb.

Layihə barədə deputat Nizami Səfərovun fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

"Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. Qeyd olunub ki, qanunvericiliyə icbari tibbi sığorta fondu anlayışı əlavə edilir, həmçinin icbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların vahid informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilməsinin hüquqi əsasları müəyyən olunur. Dəyişikliklərə əsasən, xəstələrin ambulator müalicəsi üçün icbari tibbi sığorta ilə qarşılanan dərman vasitələri apteklər tərəfindən həmin informasiya sisteminə ötürülmüş elektron resept əsasında buraxılacaq. Həmçinin icbari tibbi sığorta şəhadətnaməsinin elektron formada yaradılması nəzərdə tutulur.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev rəhbərlik etdiyi komitənin müsbət rəyini bildirəndən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Bildirib ki, qanun layihəsinin məqsədi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması ilə bağlı inzibati prosedurların elektronlaşdırılması və sənəd dövriyyəsinin sadələşdirilməsidir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məsələ barədə komitənin müsbət rəyini səsləndirəndən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Bədəl Bədəlov məlumat verib. O, diqqətə çatdırıb ki, qanun layihəsində Enerji Effektivliyi Fondunun vəsaiti hesabına Enerji Effektivliyi İnformasiya Sisteminin tətbiqi və saxlanılması, altsistemlərinin yaradılması, habelə fondun fəaliyyəti ilə bağlı proqram təminatının əldə edilməsi, eyni zamanda enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində informasiya təminatı və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi təklif olunub.

Qanun layihəsi enerji səmərəliliyi sahəsində həyata keçirilən maarifləndirmə tədbirlərinin dayanıqlı və uzunmüddətli icrası üçün sabit maliyyə mexanizminin yaradılmasına, enerjidən səmərəli istifadə üzrə davranışların təşviqinə, əhalinin məlumatlılıq səviyyəsinin genişləndirilməsinə, yeni kommunikasiya alətlərinin tətbiqinə və enerjiyə qənaət mədəniyyətinin formalaşmasına yönəldilmişdir.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Rəqəmsal texnologiyalar parlament fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilib

## Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın "Parlamentarilərin Rəqəmsal İdarəetmə üzrə Dialoqu" mövzusunda yüksəksəviyyəli dialoqunda çıxış edib

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirə onlayn formatda qatılan spiker Sahibə Qafarova çıxışında deyib ki, rəqəmsal idarəetmə mövzusu getdikcə beynəlxalq ictimaiyyət üçün daha böyük əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, rəqəmsal transformasiya artıq, sadəcə, texnoloji proses deyil. O müasir idarəetmənin, dayanıqlı inkişafın və səmərəli dövlət xidmətlərinin göstərilməsinin əsas elementinə çevrilib.**



Milli Məclisin Sədri qeyd edib ki, rəqəmsal idarəetmə müasir parlament institutlarının əsas sütunlarından birinə çevrilib. Rəqəmsal texnologiyalardan istifadə etməklə parlamentlər şəffaflığı artıra, qanunvericilik fəaliyyətinin səmərəliliyini yüksəldə, ictimai iştirakçılığı gücləndirə və bütün maraqlı tərəflər arasında inklüziv dialoqu təşviq edə bilərlər. O deyib ki, rəqəmsal transformasiya eyni zamanda parlamentlərarası əməkdaşlığın inkişafı, bilik və qabaqcıl təcrübə mübadiləsinin sərhədlərdən kənarda genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Eyni zamanda rəqəmsal idarəetmənin inklüzivlik, əlçatanlıq, hesabatlılıq, kibertəhlükəsizlik və insan hüquqlarının, o cümlədən şəxsi həyatın toxunulmazlığı hüququnun qorunması prinsiplərinə əsaslanmalı olduğunu vurğulayan Sahibə Qafarovanın sözlərinə görə, rəqəmsal uçurumun aradan qaldırılması bütün parlamentlərin və vətəndaşların rəqəmsal transformasiya prosesindən bərabər şəkildə faydalanmasını təmin etmək baxımından ortaq məsuliyyətimizdir. O hesab edir ki, rəqəmsal texnologiyalar demokratik idarəetməni dəstəkləyən mühüm vasitə kimi çıxış etməli, dövlət institutlarına ictimai etimadı möhkəmləndirməli, açıq, şəffaf və vətəndaşların ehtiyaclarına həssas parlament dialoqunun inkişafına xidmət etməlidir. Beynəlxalq əməkdaşlığın gücləndirilməsi və potensialın artırılması istiqamətində birgə səylər rəqəmsal idarəetmənin dayanıqlı inkişafa, demokratik dayanıqlığın möhkəmləndirilməsinə və səmərəli parlament institutlarının formalaşmasına töhfə verməsinin əsas təminatlarından olacaq. Bu baxımdan parlamentlərin mühüm rolunu vurğulayan Sahibə Qafarova bildirib ki, parlamentlərin məsuliyyəti təkcə texnoloji dəyişikliklərlə ayaqlaşan qanunvericiliyi qəbul etməkdən ibarət deyil, eyni zamanda rəqəmsal transformasiyanın şəffaflıq, hesabatlılıq və qanunun aliliyi prinsipləri əsasında həyata keçirilməsini təmin etməkdir.

Çıxışında Azərbaycanın rəqəmsal idarəetmənin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdıran Milli Məclisin Sədri qeyd edib ki, bu yanaşmanın tərkib hissəsi kimi, Azərbaycan Prezidentinin fərmanı ilə rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində dövlət siyasətinin əlaqələndirilməsi məqsədilə Rəqəmsal İnkişaf Şurası yaradılıb. O deyib ki, şuraya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva sədrlik edir.

Tədbir iştirakçılarına məlumat verilib ki, Azərbaycan Milli Məclisi rəqəmsal innovasiyalar üçün hüquqi bazanın möhkəmləndirilməsi və eyni zamanda hüquqi müəyyənliyin təmin edilməsi istiqamətində aktiv fəaliyyət göstərir. Azərbaycan parlamentinin qanunvericilik fəaliyyətinin əhəmiyyətli hissəsi rəqəmsal idarəetmənin və elektron hökumətin inkişafına həsr olunub. Azərbaycanın rəqəmsal transformasiyasını dəstəkləmək məqsədilə yeni qanunlar qəbul edilir, mövcud qanunvericilik isə texnoloji tərəqqiyə və idarəetmə sahəsində yaranan yeni tələblərə uyğun olaraq mütəmadi şəkildə təkmilləşdirilir.

Həyata keçirilən qanunvericilik islahatları çərçivəsində milli qanunvericiliyə rəqəmsal texnologiyalar, innovativ məhsullar və texnologiya transferi kimi anlayışların daxil edildiyini bildirən spiker Sahibə Qafarova qeyd edib ki, süni intellektin hüquqi statusu müəyyənləşdirilir, həmçinin rəqəmsal texnologiyalar, süni intellekt və kibertəhlükəsizlik sahələrində fəaliyyət göstərən şirkətlər üçün uzunmüddətli vergi güzəştləri nəzərdə tutulur. Onun sözlərinə görə, bu islahatlar bir daha göstərir ki, rəqəmsal transformasiya sürətlə inkişaf edən texnologiyalara çevik cavab verə bilən, ardıcıl və gələcəyə yönəlmiş hüquqi çərçivənin formalaşdırılmasını tələb edir.

Çıxışda bildirilib ki, qanunvericilik islahatları bu prosesin yalnız bir hissəsidir. Parlamentlər öz fəaliyyətlərində də rəqəmsal həllərdən səmərəli şəkildə istifadə etməlidirlər. Bunu nəzərə alaraq, Milli Məclisin öz institusional fəaliyyətinin rəqəmsal transformasiyasına xüsusi diqqət yetirdiyini bildirən spiker Sahibə Qafarova xatırladıb ki, bu yaxınlarda ictimai müzakirələrin və parlament dinləmələrinin elektron formatda keçirilməsi üçün hüquqi əsas yaradan, bununla da vətəndaşların qərar qəbuletmə prosesində iştirak imkanlarını daha da genişləndirən qanun qəbul edilib.

Parlamentin fəaliyyətində rəqəmsal texnologiyaların tətbiqi haqqında da məlumat verən Sahibə Qafarovanın sözlərinə görə, bu gün rəqəmsal texnologiyalar parlament fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilib. O deyib ki, elektron sənəd dövriyyəsi, elektron səsvermə sistemi və qanunvericilik prosesinin izlənilməsi sistemi şəffaflığın, səmərəliliyin və institusional fəaliyyətin effektivliyinin artırılmasına töhfə verir. Milli Məclisdə süni intellektdən komitə və plenar iclaslarda çıxışların avtomatik transkripsiyası üçün də istifadə olunur ki, bu da parlament fəaliyyətinin səmərəliliyini artırır və parlament stenoqramlarının dəqiqliyini təmin edir. Bundan əlavə, Milli Məclisin müvafiq bölməsi tərəfindən hazırlanmış mobil tətbiq vasitəsilə deputatlar və parlament əməkdaşları qanun layihələrinə, rəsmi yazışmalara və vətəndaş müraciətlərinə təhlükəsiz şəkildə çıxış əldə edə, eyni zamanda komitə iclasları, ictimai dinləmələr və parlamentin digər fəaliyyəti barədə operativ məlumat ala bilirlər.

Sonda Sahibə Qafarova qeyd edib ki, rəqəmsal transformasiya özlüyündə məqsəd deyil, daha keyfiyyətli idarəetməyə nail olmaq üçün bir vasitədir. O demokratik institutları gücləndirir, qanunvericiliyin keyfiyyətini yüksəldir, parlamentlərin fəaliyyətini daha şəffaf, daha səmərəli və vətəndaşların ehtiyaclarına daha həssas edir. Bildirilib ki, Parlamentlərarası İttifaqa üzv parlamentlər arasında əməkdaşlıq, qabaqcıl təcrübə mübadiləsi və texniki dəstək ümumi məqsədlərin irəli aparılması üçün mühüm əhəmiyyət kəsb edir.

*"Azərbaycan"*

# Azərbaycan ilk dəfə Eqmont Qrupunun Plenar İclasına evsahibliyi edib

**Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin (MMX) təşkilatçılığı ilə Maliyyə Kəşfiyyatı Orqanlarının vahid beynəlxalq təşkilatı olan Eqmont Qrupunun 32-ci plenar iclası keçirilib.**




MMX-dən AZƏRTAC-a bildirilib ki, iyulun 5-10-nu əhatə edən tədbirdə dünyanın müxtəlif ölkələrini təmsil edən Maliyyə Kəşfiyyatı Orqanlarının rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Plenar iclasda işçi və regional qrupların görüşləri çərçivəsində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə (ƏL/TMM) beynəlxalq əməkdaşlığın gücləndirilməsi, maliyyə kəşfiyyatı sahəsində aktual çağırışlar və gələcək fəaliyyət istiqamətləri müzakirə olunub.

Eqmont Qrupunun sədri Elzbieta Frankov-Jaskievicz plenar iclası açaraq bildirib ki, tədbir maliyyə kəşfiyyatı orqanlarının bir araya gələrək fikir mübadiləsi apardıqları və maliyyə cinayətləri ilə mübarizədə birgə fəaliyyətlərini gücləndirdikləri mühüm platformadır.

Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) prezidenti Giles Thomson çıxışında maliyyə cinayətləri ilə mübarizədə beynəlxalq əməkdaşlığın, maliyyə kəşfiyyatı məlumatlarının operativ mübadiləsinin və qlobal tərəfdaşlığın əhəmiyyətini vurğulayıb.

Açılış mərasimində çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycanın ilk dəfə Eqmont Qrupunun Plenar İclasına evsahibliyi etməsi ölkəmizin beynəlxalq maliyyə təhlükəsizliyi sahəsində əməkdaşlığa verdiyi önəmin göstəricisidir. Sürətli rəqəmsallaşma və maliyyə texnologiyalarının inkişafı fonunda dövlət və özəl sektor arasında tərəfdaşlığın gücləndirilməsi, maliyyə kəşfiyyatı orqanları ilə aidiyyəti qurumlar arasında operativ məlumat mübadiləsinin genişləndirilməsi maliyyə cinayətləri ilə mübarizənin effektivliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadə çıxışında bildirib ki, Azərbaycan üçün Eqmont Qrupunun nümayəndələrini Bakıda qəbul etməkdən məmnunluq duyur: "Əminik ki, keçirilmiş müzakirələr beynəlxalq əməkdaşlığın daha da möhkəmlənməsinə və maliyyə cinayətləri ilə mübarizədə ortaq səylərimizin inkişafına mühüm töhfə verəcək".

2026-cı il Plenar İclasının əsas mövzularından biri maliyyə cinayətlərinin dəyişən xarakteri fonunda dövlət-özəl sektor tərəfdaşlığının gücləndirilməsi olub. Bu çərçivədə maliyyə kəşfiyyatı orqanları, hüquq-mühafizə və nəzarət qurumları, eləcə də maliyyə sektoru nümayəndələri arasında məlumat mübadiləsinin və birgə fəaliyyət mexanizmlərinin inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Eqmont Qrupu dünya üzrə maliyyə kəşfiyyatı orqanlarını birləşdirən beynəlxalq təşkilat olaraq üzvlər arasında təhlükəsiz informasiya mübadiləsini, peşəkar inkişafı və maliyyə cinayətləri ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsini təşviq edir.

# Diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə rəsmi qəbul təşkil edilib








**Azərbaycanın diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə iyulun 9-da "Gülüstan" sarayında rəsmi qəbul və konsert proqramı təşkil edilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, rəsmi qəbulda Xarici İşlər Nazirliyi və bir sıra dövlət qurumlarının yüksəksəviyyəli nümayəndələri, Milli Məclisin deputatları, eləcə də Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların rəhbərləri və nümayəndələri iştirak ediblər.

Tədbirdə xarici işlər naziri Ceyhun Bayramov, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Mərakeşin ölkəmizdəki səfiri Məhəmməd Adil Embarş çıxış edərək peşə bayramı günü münasibətilə diplomatik xidmət orqanları əməkdaşlarına təbriklərini çatdırıb, onlara fəaliyyətlərində uğurlar arzu ediblər. Diplomatik xidmət orqanları əməkdaşlarının ölkəmizin praqmatik xarici siyasət kursunun həyata keçirilməsində, milli maraqlarımızın beynəlxalq səviyyədə irəlilədilməsi və qorunmasında rolu vurğulanıb.

Çıxışlarda əldə edilmiş əsas xarici siyasət nailiyyətlərindən bəhs olunub, prioritetlər barədə danışılıb, ölkəmizin beynəlxalq nüfuzunun artmasında diplomatik xidmət əməkdaşlarının xidmətləri qeyd edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət xəttinin reallaşdırılmasında diplomatik xidmət orqanlarının üzərinə mühüm vəzifələrin düşdüyü vurğulanıb.

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

# Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Maliyyə Kəşfiyyatı Orqanlarının beynəlxalq forumu keçirilib

**İyulun 10-da Bakıda Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin təşkilatçılığı ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Maliyyə Kəşfiyyatı Orqanlarının beynəlxalq forumu keçirilib.**

İştirakçılar əvvəlcə Fəxri xiyabanı ziyarət edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyulub, gül dəstələri düzülüb. Daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi də anılıb, məzarı üzərinə tər güllər qoyulub.

AZƏRTAC xəbər verir ki, "TDT ölkələrində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin anlaşılması: ortaq çağırışlar, birgə həllər" mövzusuna həsr olunan forum TDT məkanında maliyyə kəşfiyyatı orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsi, təcrübə mübadiləsinin təşviqi və maliyyə cinayətləri ilə mübarizə sahəsində vahid yanaşmaların formalaşdırılması məqsədini daşıyıb.



Forumun açılış mərasimində Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadə, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, eləcə də üzv ölkələrin maliyyə kəşfiyyatı orqanlarının rəhbərləri və digər yüksəksəviyyəli qonaqlar çıxış ediblər. Zaur Fətizadə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda reallaşdırılan uğurlu islahatlar və əldə edilmiş nəticələr barədə məlumat verib.

Vurğulanıb ki, dövlət başçısının həyata keçirdiyi siyasət ölkəmizdə ədalətli bazar və sağlam maliyyə münasibətlərinin davamlı inkişafını, müasir tələblərə cavab verən maliyyə sisteminin formalaşmasını təmin edib.

Tədbir çərçivəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Macarıstanın maliyyə kəşfiyyatı orqanları rəhbərlərinin iştirakı ilə rəhbərlər paneli keçirilib. Panel zamanı üzv dövlətlər arasında əməkdaşlığın inkişaf perspektivləri, maliyyə cinayətləri ilə mübarizədə qarşıda duran çağırışlar və birgə fəaliyyət istiqamətləri barədə müzakirə aparılıb, mövzu üzrə təqdimatlar edilib.

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Maliyyə Kəşfiyyatı Orqanlarının Əməkdaşlıq Platforması yaradılıb

**İyulun 10-da Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin Maliyyə Kəşfiyyatı Orqanlarının III Beynəlxalq Forumu çərçivəsində "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Maliyyə Kəşfiyyatı Orqanlarının Əməkdaşlıq Platformasının yaradılması haqqında" memorandum imzalanıb.**

AZƏRTAC xəbər verir ki, memorandumun imzalanması ilə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Maliyyə Kəşfiyyatı Orqanları arasında əməkdaşlığın institusional əsaslarını müəyyən edən yeni əməkdaşlıq mexanizmi yaradılıb. Əməkdaşlıq Platforması üzv dövlətlərin maliyyə kəşfiyyatı orqanları arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsinə, təcrübə və məlumat mübadiləsinin təşviqinə, habelə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi ilə mübarizə sahəsində birgə təşəbbüslərin həyata keçirilməsinə xidmət edəcək.

Platforma çərçivəsində müntəzəm görüşlərin keçirilməsi, əməkdaşlığın prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, birgə tədqiqat və analitik fəaliyyətin təşviqi, potensialın gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi, həmçinin zərurət yarandıqda tematik işçi qruplarının yaradılması nəzərdə tutulur.

Memoranduma əsasən, platformanın fəaliyyəti iştirakçı dövlətlərin milli qanunvericiliyinə və maliyyə imkanlarına uyğun şəkildə həyata keçiriləcək, rəsmi yazışmalar isə platformanın katibliyi və üzv qurumların təyin etdiyi əlaqələndirici şəxslər vasitəsilə aparılacaq. Sənəd eyni zamanda Türk Dövlətləri Təşkilatında müşahidəçi statusuna malik dövlətlərin Maliyyə Kəşfiyyatı Orqanlarının platformanın fəaliyyətində müşahidəçi qismində iştirak etməsinə, eləcə də müəyyən edilmiş prosedurlar əsasında gələcəkdə platformaya qoşulmasına imkan yaradır.

Əməkdaşlıq Platformasının yaradılması "Türk dövlətlərinin Maliyyə Kəşfiyyatı Orqanlarının Beynəlxalq Forumu" çərçivəsində qəbul edilmiş "Şuşa Təşəbbüsü" və onun icrası məqsədilə təsdiq olunmuş "Türk dövlətlərinin Maliyyə Kəşfiyyatı Orqanlarının Effektiv Əməkdaşlığı üzrə İllik Yol Xəritəsi"nin mühüm nəticələrindən biri olub.

Yeni əməkdaşlıq mexanizminin yaradılması Türk Dövlətləri Təşkilatı məkanında maliyyə kəşfiyyatı sahəsində tərəfdaşlığın daha da möhkəmləndirilməsinə, maliyyə cinayətləri ilə mübarizədə birgə fəaliyyətin genişləndirilməsinə və beynəlxalq standartlara uyğun regional əməkdaşlığın inkişafına mühüm töhfə verəcək.

# Aqrar siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib




**Milli Məclisin Aqrar siyasət komitəsinin iyulun 10-da videokonfrans formatında keçirilən iclasında səkkiz məsələ müzakirə olunub.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Tahir Rzayev əvvəlcə "Toxumçuluq haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (ikinci oxunuş) təqdim edib. O, sənədin müasir dövrün tələbləri, yeni iqtisadi, nəzarət və dəstək mexanizmləri, habelə aqrar sahədə aparılan islahatların dərinləşdirilməsi məqsədilə sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsini hədəflədiyini bildirib.

"Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) dair məlumat verən komitə sədri bildirib ki, layihədə seleksiya nailiyyətləri, qeydiyyata alınmış toxum əməliyyatçıları, toxumluq əkinlər barədə məlumatları özündə birləşdirən informasiya sistemi təsbit edilir.

Sonra "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (ikinci oxunuş) barədə məlumat verilib. Qeyd edilib ki, layihə balıqçılıq və akvakultura sahəsində mövcud hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, həmçinin bu sahədəki hüquqi mexanizmlərin gücləndirilməsinə yönəlib.

Gündəliyin növbəti məsələsi, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) dair məlumat verən komitə sədri deyib ki, qeydiyyat şəhadətnaməsinin verilməsi zamanı yaradılan təsərrüfatın tələblərə uyğunluğunun qiymətləndirilməsi, ekspertiza və inzibati icraat tədbirləri həyata keçirilərkən dövlət rüsumunun müəyyən edilməsi həmin inzibati xərclərin qismən kompensasiyasını təmin etməklə yanaşı, hüquqi sistemdə bərabərlik və vahid yanaşma prinsipini də təmin edir və fəaliyyətin leqallaşdırılmasını stimullaşdırır.

İclasda Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) də təqdim olunub. Qanun layihəsinin torpaq ehtiyatlarından səmərəli və dayanıqlı istifadənin təmin edilməsi, torpaqların konsolidasiyası üçün hüquqi zəminin formalaşdırılması məqsədilə hazırlandığı vurğulanıb.

Gündəliyin altıncı məsələsi - Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı qeyd olunub ki, sənəddə daşınmaz əmlakın kadastrı və reyestri sahəsində qanunvericilik bazasının inkişafı üçün dəyişikliklər nəzərdə tutulub.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verən komitə sədri qeyd edib ki, təklif edilən dəyişikliklər əmlakdan və torpaq sahələrindən daha səmərəli istifadəyə, torpaq bazarında dövriyyənin aktivləşməsinə, iqtisadi fəallığın yüksəlməsinə, dövlət və vətəndaşlar arasında qarşılıqlı razılıq əsasında daha çevik əmlak mübadiləsi imkanlarının yaranmasına, mülki dövriyyədə dövlətin digər mülki hüquq subyektləri ilə bərabər şərtlərlə iştirakının təmin olunmasına xidmət edəcəkdir.

Sonra gündəliyin sonuncu məsələsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi təqdim edilib. Komitə sədri qanun layihəsinin Vergi Məcəlləsində ayrı-ayrı maddələrdə elektron siqaretlərlə bağlı ləğv edilmiş maddələrə istinadları aradan qaldırdığını, həmçinin "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının qanunlarında müvafiq uyğunlaşdırma xarakterli dəyişiklikləri təmin etdiyini bildirib.

İclasda müzakirə olunan qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

*"Azərbaycan"*

# Paşinyan ali sənədə dəyişikliklərdənsə yeni konstitusiya layihəsinə üstünlük verir

**Nikol Paşinyan hakimiyyətə gəldiyi ilk gündən Ermənistanın yeni konstitusiyası haqqında danışır. 2020-ci ilədək Paşinyan və ətrafı tərəfindən Ermənistan konstitusiyasının ölkənin unitar və sekulyar dövlət quruluşuna uyğun gəlmədiyini, əsas qanunda Erməni Apostol Kilsəsi və diasporu üçün xüsusi status müəyyənləşdirən 18 və 19-cu maddələrinin "dinin dövlətdən ayrı olduğu"nu ifadə edən 17-ci maddə və dövlət idarəçilik sistemi ilə bağlı digər müddəalarla ziddiyyət təşkil etdiyini vurğulayırdılar.**



Belə ki, Ermənistan konstitusiyasının 18-ci maddəsi "Müqəddəs Erməni Apostol Kilsəsi" adlanır. Həmin maddədə qeyd olunur ki, Ermənistan Respublikası Erməni Apostol Kilsəsini milli kilsə kimi erməni xalqının mənəvi həyatında onun (erməni xalqının) milli mədəniyyətinin inkişafında və milli özünəməxsusluğunun qorunmasında müstəsna missiyasını tanıyır. Göründüyü kimi, 17-ci maddədə dinin dövlətdən ayrı olduğu vurğulandığı halda, 18-ci maddədə Erməni Apostol Kilsəsi "milli kilsə" kimi təqdim olunur və onun müstəsna missiyasının Ermənistan tərəfindən tanındığı qeyd olunur. Bu da dünyəvi, demokratik dövlətçilik anlayışının mahiyyəti ilə tamamilə ziddiyyət təşkil edir.

**Milli Məclisin deputatı Elçin MİRZƏBƏYLİ** qəzetimizə açıqlamasında deyib ki, eyni yanaşma dolayısıyla diasporla bağlı müddəanı da əhatə edir. Onun sözlərinə görə, Paşinyan hakimiyyəti ilə kilsə və diaspor təşkilatları arasında yaranan ziddiyyətlərin təməlində dayanan məqamlardan biri də məhz Ermənistan Baş nazirinin bu təsisatlarla bağlı mövqeyindən qaynaqlanır: "Ermənistan rəhbərliyinin bundan öncəki açıqlamalarında konstitusiyaya əlavə və dəyişikliklərdən deyil, yeni konstitusiyanın qəbul edilməsinin zəruriliyindən söz açıldı. Çox güman ki, Nikol Paşinyan ayrı-ayrı və konkret təsisatlarla bağlı müddəalara əlavə və dəyişikliklərin edilməsindən daha çox yeni konstitusiya layihəsinin hazırlanmasına üstünlük verəcək. Əks təqdirdə bütün bu prosesin kilsə, diaspor və erməni cəmiyyətinin bir hissəsinin hələ də hüquqi müstəvidə dəyərləndirə bilmədiyi, qarşıdurmalara rəvac verən amillərlə bağlı olduğu göz önünə çıxacaq. Bu da Ermənistan hakimiyyətinə qarşı revanşı, qüvvələrin ideoloji informasiya təxribatlarını gücləndirə bilər".

Deputat qeyd edib ki, bu baxımdan, ilin sonunadək yeni konstitusiya layihəsinin ictimai rəyə təqdim ediləcəyi daha inandırıcı görünür. Amma burada nəzərə alınması zəruri olan mühüm bir məqam var. Ermənistan konstitusiyasının tamamilə yenilənməsindən, yaxud sənədə əlavə və dəyişikliklərin edilməsi ilə bağlı prosedurun başladılmasından asılı olmayaraq, layihənin parlamentdə 2/3 səs çoxluğu ilə qəbul edilməsinin zəruriliyi dəyişməz qalır. "Eyni zamanda Ermənistan konstitusiyasının 202-ci maddəsi konstitusiya dəyişikliklərinin hüquqi mexanizmini kifayət qədər aydın şəkildə müəyyən edir. Həmin maddəyə əsasən, konstitusiyanın əsas bölmələri, o cümlədən dövlət quruluşunun əsaslarını müəyyən edən birinci, ikinci və üçüncü fəsillər, habelə digər fundamental müddəalar yalnız referendum yolu ilə dəyişdirilə bilər. Sözügedən müddəaların dəyişdirilməsini nəzərdə tutan konstitusiya layihəsi, yaxud bu müddəaların yer almadığı yeni konstitusiyanın qəbulu ilə bağlı referendumun keçirilməsi üçün isə parlamentin 2/3-nin dəstəyi labüddür. Konstitusiyada referendumun elan edilməsinin dəstəklənməsi ilə bağlı nəzərdə tutulan digər hallar, yəni 3/5 səs çoxluğu ilə bağlı qəbul proseduru birinci, ikinci və üçüncü fəsillərə şamil edilmir. Bu isə o deməkdir ki, istər Ermənistanın mövcud konstitusiyasına əlavə və dəyişikliklər edilsin, istərsə də yeni konstitusiyanın qəbulu nəzərdə tutulsun, bütün hallarda ölkənin müstəqillik bəyannaməsinə istinadən Ermənistan konstitusiyasının birinci fəslində yer alan ərazi iddialarının aradan qaldırılması üçün parlamentin 2/3 səs çoxluğuna ehtiyac duyulacaq", - deyə o əlavə edib.

E.Mirzəbəyli vurğulayıb ki, bu, Ermənistanın siyasi hakimiyyətinin, bütövlükdə bu ölkənin vətəndaşlarının problemidir. Çünki Ermənistan konstitusiyasında müstəqillik bəyannaməsinə istinadən Azərbaycana qarşı ərazi iddiaları qaldıqca, yekun sülh sazişinin imzalanması mümkün olmayacaq. Ermənistan konstitusiyasında başqa dövlətə qarşı ərazi iddialarının yer alması BMT Nizamnaməsinə, beynəlxalq müqavilələr hüququ ilə bağlı Vyana Konvensiyasının tələblərinə, bütövlükdə dövlətlərin ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və suveren hüquqları ilə bağlı bütün hüquqi normalara və presidentlərə ziddir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bakının dəyişməz tələbi

## Yekun sülh sazişi üçün Ermənistan konstitusiyasını dəyişdirməli, ərazi iddialarından birdəfəlik imtina etməlidir



**2025-ci ilin avqust ayından etibarən danışıqlar prosesində tamamilə yeni mərhələyə qədəm qoyan Azərbaycan və Ermənistan arasında real sülh şəraiti mövcuddur. Son bir ildə bu istiqamətdə müşahidə olunan müsbət dinamika özünü təkcə siyasi bəyanatlarda yox, həm də regionun iqtisadi potensialının aktivləşməsində göstərir. Tərəflər arasında ticarət əlaqələrinin qurulması, regional yük daşımaları və nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində addımların atılması sülhün praktiki faydalarını hiss etdirməkdədir. Bu reallıq həm Azərbaycan, həm də Ermənistan rəhbərliyi tərəfindən dəfələrlə bəyan edilib. Hazırda gündəmdə olan əsas məsələ mövcud iqtisadi və dinc şəraiti hüquqi müstəvidə təsbit etmək, delimitasiya prosesini tamamlamaq və gələcək münaqişə risklərini birdəfəlik aradan qaldırmaqdır.**

Tərəflər arasında aparılan danışıqlar və rəsmi nümayəndələrin açıqlamaları sülh prosesinin son mərhələyə qədəm qoyduğunu göstərir. Azərbaycan tərəfi bölgədə dayanıqlı sülhün bərqərar olması istiqamətində üzərinə düşən bütün öhdəlikləri yerinə yetirdiyini bəyan edərək yekun sənədin imzalanması üçün əsas maneənin aradan qaldırılmasını gözləyir. Bu günlərdə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Vaşinqton sammiti çərçivəsində birgə bəyanatın imzalandığını və sülh sazişinin mətni üzərində işlərin tamamlanaraq paraflandığını diqqətə çatdırıb. Nazir hazırda sənədin hüquqi bazasının hazırlandığını, mətnin 17 maddəsinin hər kəs üçün açıq olduğunu deyib: "Azərbaycan tərəfinin bununla bağlı yanaşması prinsipialdır. Dövlətin rəsmi mövqeyini Prezident İlham Əliyev bildirib. Bizim gözləntimiz Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılmasıdır. Bundan sonra sülh sazişinin imzalanması üçün heç bir əlavə maneə qalmayacaq və sənəd növbəti gün imzalana bilər".

XİN başçısı Ermənistan baş nazirinin konstitusiya islahatlarına dair vədini xatırladaraq, rəsmi Bakının mövqeyini bir daha diqqətə çatdırıb: "Bizi maraqlandıran və narahat edən əsas məqam bu ölkənin Müstəqillik Bəyannaməsində Azərbaycana qarşı ərazi iddialarıdır. Bu həll olunandan sonra bizim gözləntimiz bu işin tezliklə başa çatmasıdır". Azərbaycan tərəfi haqlı olaraq Ermənistanın Müstəqillik Bəyannaməsində yer alan ərazi iddialarının aradan qaldırılmasını dəyişməz şərt və mütləq tələb kimi ortaya qoyur. Sabah Ermənistanda hakimiyyətə revanşist qüvvələrin gəlməyəcəyinə, yaxud mövcud rəhbərliyin siyasi kursunun dəyişməyəcəyinə heç kəs təminat verə bilməz. Əgər yekun saziş Ermənistan konstitusiyası dəyişdirilmədən imzalanarsa, gələcəkdə hər hansı revanşist hökumət həmin sazişi özlərinin Müstəqillik Bəyannaməsinə zidd bəhanəsi ilə qüvvədən düşmüş elan edə bilər. Bu səbəbdən Bakı sülh sənədinin spekulyasiyalardan qorunmasının zəruriliyini gündəmə gətirir.

Azərbaycanın qətiyyətli mövqeyi və hüquqi tələbləri fonunda artıq Ermənistan daxilində konstitusiya dəyişikliyi ilə bağlı müəyyən siyasi proseslərin icrasına başlanılıb. Ermənistanın Baş naziri Nikol Paşinyan parlament seçkilərindən sonra bu istiqamətdə addımların atılacağını təsdiqləyib. Baş nazir jurnalistlərə açıqlamasında ölkənin yeni konstitusiya layihəsinin bu ilin sonunadək dərc olunacağını vəd edib. Paşinyan layihənin daha əvvəl dərc olunmamasının səbəblərinə də toxunub: "Sənədin ictimai müzakirələrinin lazımi səviyyədə aparılması üçün layihənin açıqlanma müddətinin təxirə salınmasına qərar verilib".

Parlament seçkilərindən qalib çıxması Paşinyanın daxili idarəetmədə mövqeyini müəyyən dərəcədə möhkəmləndirib. Hakimiyyətini saxlaması baş nazirə sülhə qarşı çıxan revanşist qüvvələrlə daha genişmiqyaslı mübarizə aparmaq imkanları verir. Əslində, qanunvericilik müstəvisində addım atmaq üçün Paşinyanın önündə ciddi daxili siyasi əngəl yoxdur. Bununla belə, kənar dairələri arxasına almış revanşist müxalifət və kilsə bu məsələni Paşinyana qarşı ən böyük rıçaq kimi istifadə etməyə çalışır. Paşinyanın yeni layihə sənədini ilin sonunadək uzatması cəmiyyəti dəyişikliyə hazırlamaq və müxalifətin etirazlarını neytrallaşdırmaq məqsədi güdür.

Paşinyan dərk edir ki, mövcud konstitusiyanı dəyişmədən dayanıqlı sülh və onun gətirəcəyi iqtisadi dividendlər qeyri-mümkündür. Yəni Ermənistanın iqtisadi xilası, regional layihələrə inteqrasiyası tamamilə bu hüquqi addımdan asılıdır.

Konstitusiya müstəvisindəki müzakirələrlə paralel hazırda sərhədlərin müəyyənləşdirilməsi istiqamətində də praktiki addımlar atılır. Sərhədlərin tənzimlənməsi prosesinin həssas nöqtələrindən olan anklav və eksklavlar mövzusuna Ermənistan rəhbərliyi öz münasibətini açıqlayaraq masada konkret variantların olduğunu bildirib. Baş nazir Nikol Paşinyan bu problemin həlli üçün iki mümkün ssenarinin nəzərdən keçirildiyini bəyan edib: "Birinci variant ondan ibarətdir ki, anklav və eksklavlar de-yure məxsus olduqları dövlətin ərazisi olaraq qalır. İkinci variant isə delimitasiya zamanı tərəflərin ekvivalent ərazilərlə mübadilə aparmasıdır". Paşinyan qeyd edib ki, Ermənistan bu mövzudan imtina etmir.

Azərbaycan tərəfi bu məsələdə beynəlxalq hüquqi sənədlərə və tarixi xəritələrə əsaslanan ədalətli həll variantının tərəfdarıdır. Bakı xüsusilə anklav və eksklav kəndlərin geri qaytarılmasının delimitasiya prosesinin ayrılmaz tərkib hissəsi olduğunu vurğulayıb.

Reallıq ondan ibarətdir ki, yekun sülh müqaviləsinin imzalanması, əməkdaşlığın genişləndirilməsi bütövlükdə region üçün əhəmiyyətli ola bilər. Həm də bu, daha çox Ermənistana lazımdır. İqtisadi tənəzzüldən qurtulmaq və öz təhlükəsizliyini təmin etmək üçün İrəvanın sülhdən başqa alternativi yoxdur. İki ölkə arasında de-fakto mövcud olan sülhü hüquqi sənədlə əbədiləşdirmək Ermənistan üçün tarixi fürsətdir. Bu baxımdan, Nikol Paşinyan daxildəki revanşist qüvvələrin bütün təzyiqlərinə rəğmən, siyasi iradə nümayiş etdirməli və hüquqi öhdəlikləri mütləq şəkildə icra etməlidir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi çıxışlarla davam etdirilib

İyulun 10-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Əvvəlcə ötən məhkəmə iclasında çıxışına başlayan təqsirləndirilən Arkadi Qukasyana söz verilib. O, çıxışını davam etdirərək ittiham olunduğu maddələr üzrə özünü təqsirli bilmədiyini deyib.



Daha sonra təqsirləndirilən Vasili Beqlaryanın müdafiəçisi çıxış edərək məhkəmədən hüquqlarını qoruduğu təqsirləndirilən şəxs barəsində bəraət hökmünün çıxarılmasını və 2026-cı il 5 fevral tarixli hökmün ləğv edilməsini xahiş edib.

Ardınca çıxış edən Vasili Beqlaryan da ittiham olunduğu maddələr üzrə özünü təqsirli bilmədiyini deyib.

Daha sonra təqsirləndirilən Bako Sahakyanın vəkili çıxış edərək məhkəmədən müdafiə etdiyi şəxs barəsində bəraət hökmünün çıxarılmasını xahiş edib.

Təqsirləndirilən Bako Sahakyanın digər vəkili isə 2026-cı il 5 fevral tarixli hökmün ləğvini, müdafiə etdiyi şəxsin barəsində bəraət hökmünün çıxarılmasını və verilmiş apellyasiya şikayətinin təmin olunmasını məhkəmədən xahiş edib.

Bako Sahakyan çıxışı zamanı cinayət işi üzrə ona elan olunan ittihamlar üzrə özünü təqsirli bilmədiyini deyib.

Məhkəmənin növbəti iclası iyulun 14-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



## Azərbaycanın Rəqəmsal İnkişaf Strategiyasında kibertəhlükəsizlik

**XXI əsrdə dövlətlərin qüdrəti artıq yalnız təbii sərvətləri, iqtisadi potensialı və ya hərbi imkanları ilə müəyyən edilmir. Müasir dünyada rəqabət üstünlüyünü formalaşdıran əsas amillər sırasında rəqəmsal texnologiyalar, süni intellekt, böyük verilənlər, bulud texnologiyaları və kibertəhlükəsizlik xüsusi yer tutur. Çünki rəqəmsallaşma, sadəcə, texnoloji yenilik deyil, dövlət idarəçiliyinin, iqtisadi inkişafın və milli təhlükəsizliyin əsas dayaqlarından biridir.**

Azərbaycan da son illər bu qlobal transformasiya prosesinə məqsədyönlü şəkildə qoşularaq rəqəmsal inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində elektron dövlət xidmətləri genişlənmiş, rəqəmsal idarəetmənin hüquqi və institusional əsasları möhkəmləndirilmiş, innovasiya ekosisteminin inkişafı üçün yeni imkanlar yaradılmışdır. Bu siyasətin məqsədi yalnız dövlət xidmətlərinin elektronlaşdırılması deyil, rəqəmsal iqtisadiyyatın formalaşdırılması, yüksək texnologiyalar əsasında dayanıqlı inkişafın təmin edilməsi və Azərbaycanın qlobal rəqabət qabiliyyətinin artırılmasıdır.

2026-cı il ölkəmizin rəqəmsal inkişaf tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Cari ilin əvvəlində dövlət başçısının sədrliyi ilə keçirilən müşavirədə rəqəmsal transformasiya, süni intellekt, kibertəhlükəsizlik və innovasiya siyasəti üzrə yeni strateji hədəflər müəyyən edildi. Ardınca üç ili əhatə edən Fəaliyyət Planı təsdiqləndi və dövlət qurumlarının fəaliyyətini əlaqələndirəcək yeni idarəetmə mexanizmləri formalaşdırıldı. Bu proses iyunun 29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclası ilə yeni məzmun qazandı. Şuranın yaradılması göstərdi ki, rəqəmsallaşma artıq yalnız informasiya-kommunikasiya texnologiyaları sektorunun deyil, bütövlükdə dövlət idarəçiliyinin strateji istiqamətidir.

Bu gün rəqəmsal transformasiya ilə kibertəhlükəsizlik bir-birindən ayrılmaz anlayışlardır. Dövlət idarəçiliyi, bank sistemi, energetika, nəqliyyat, rabitə, səhiyyə və digər kritik sahələr rəqəmsal platformalar üzərində fəaliyyət göstərdikcə onların kiberhücumlara qarşı həssaslığı da artır. Müasir şəraitdə dövlət informasiya sistemlərinə qarşı həyata keçirilən uğurlu hücum təkcə texniki problem deyil, iqtisadi sabitliyə, ictimai təhlükəsizliyə və milli maraqlara yönəlmiş ciddi təhdid hesab olunur. Məhz buna görə inkişaf etmiş ölkələr kibertəhlükəsizliyi artıq informasiya texnologiyalarının tərkib hissəsi kimi deyil, milli təhlükəsizlik siyasətinin əsas istiqamətlərindən biri kimi qiymətləndirirlər.

Azərbaycan da bu reallığı nəzərə alaraq kibertəhlükəsizlik sahəsində ardıcıl institusional və hüquqi islahatlar həyata keçirir. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyi üzrə 2023-2027-ci illər Strategiyası" ölkədə bu sahədə qəbul edilmiş ilk kompleks strateji sənəd olmaqla milli kibertəhlükəsizlik ekosisteminin inkişafının əsas istiqamətlərini müəyyənləşdirib. Strategiyada kritik informasiya infrastrukturunun mühafizəsi, dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi, yerli texnologiyaların inkişafı, elmi tədqiqatların dəstəklənməsi və peşəkar kadr hazırlığı əsas prioritetlər kimi müəyyən olunub.

Rəqəmsal transformasiya ilə yanaşı, süni intellekt texnologiyalarının sürətli inkişafı kiberməkanda yeni imkanlarla yanaşı, yeni risklər də yaradır. Süni intellekt artıq yalnız müdafiə sistemlərinin deyil, hücum alətlərinin də ayrılmaz hissəsinə çevrilməkdədir. Generativ süni intellekt vasitəsilə yüksəkkeyfiyyətli fişinq məktubları hazırlanır, sosial mühəndislik hücumları fərdiləşdirilir, zərərli proqramların yaradılması sürətlənir, dezinformasiya kampaniyaları avtomatlaşdırılır. Deepfake texnologiyaları isə informasiya təhlükəsizliyi üçün tamamilə yeni təhdidlər formalaşdırır. Dövlət qurumlarının, maliyyə institutlarının və kritik informasiya infrastrukturunun belə risklərə qarşı davamlılığının artırılması artıq strateji zərurətə çevrilmişdir.




Bununla yanaşı, süni intellekt kibermüdafiənin də ən mühüm alətlərindən biridir. Süni intellekt əsaslı sistemlər milyonlarla hadisəni real vaxt rejimində təhlil edərək davranış anomaliyalarını müəyyənləşdirir, əvvəllər məlum olmayan hücumları aşkarlayır və riskləri proqnozlaşdırır. Məhz buna görə gələcəyin kibertəhlükəsizlik sistemləri adaptiv, özü öyrənən və qabaqlayıcı xüsusiyyətlərə malik olmalıdır. Azərbaycanın rəqəmsal inkişaf strategiyasında süni intellekt və kibertəhlükəsizliyin vahid yanaşma çərçivəsində nəzərdən keçirilməsi də bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Müasir dövlət üçün kibertəhlükəsizlik yalnız texniki vasitələrin tətbiqi ilə məhdudlaşmır. Güclü milli kibertəhlükəsizlik ekosistemi qanunvericilik, effektiv institusional idarəetmə, kibertəhlükəsizlik hadisələrinə təcili cavab qrupu və təhlükəsizlik əməliyyatları mərkəzləri, peşəkar insan resursları, elmi tədqiqatlar, yerli texnologiyalar, kibergigiyena və beynəlxalq əməkdaşlıq kimi komponentlərin qarşılıqlı fəaliyyətini tələb edir. Həmin elementlərdən hər hansı birinin zəif olması bütövlükdə milli kibermüdafiə sisteminin dayanıqlılığını azalda bilər. Bu baxımdan dövlət-elm-biznes əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Universitetlər yeni elmi biliklər yaradır, innovasiya mərkəzləri və startaplar müasir texnoloji həllər hazırlayır, dövlət isə bu proseslərin hüquqi və institusional əsaslarını formalaşdırır. Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, kibertəhlükəsizlik sahəsində uğur yalnız xarici texnologiyaların idxalı ilə deyil, milli elmi məktəblərin, yüksəkixtisaslı mütəxəssislərin və innovasiya ekosisteminin inkişafı ilə mümkündür. Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri də məhz bu istiqamətdə rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasıdır.

Bu məqsədə xidmət edən mühüm platformalardan biri də 2026-cı il iyunun 3-də keçirilmiş "Kibertəhlükəsizlik və rəqəmsal kriminalistikanın aktual problemləri" respublika elmi-praktiki konfransı oldu. Dövlət qurumlarını, ali təhsil müəssisələrini, elmi təşkilatları və özəl sektoru bir araya gətirən bu tədbir ölkədə kibertəhlükəsizlik üzrə elmi əməkdaşlığın yeni mərhələsini nümayiş etdirdi. Konfransda süni intellekt əsaslı təhlükəsizlik sistemləri, kritik informasiya infrastrukturlarının mühafizəsi, rəqəmsal kriminalistika, deepfake texnologiyalarının yaratdığı risklər, postkvant kriptoqrafiyası və digər aktual istiqamətlər üzrə çoxsaylı elmi məruzə təqdim olundu. Konfransda qəbul edilmiş qərarda fundamental və tətbiqi tədqiqatların genişləndirilməsi, milli kibertəhlükəsizlik potensialının gücləndirilməsi, yüksəkixtisaslı kadr hazırlığının inkişaf etdirilməsi və dövlət proqramlarına elmi dəstəyin verilməsi əsas prioritet istiqamətlər kimi müəyyən edildi.

Bütün bunlar göstərir ki, Azərbaycan rəqəmsal transformasiya prosesinə yalnız yeni texnologiyaların tətbiqi kimi deyil, dövlət idarəçiliyinin, iqtisadi inkişafın və milli təhlükəsizliyin vahid strateji istiqaməti kimi yanaşır. Rəqəmsal suverenliyin möhkəmləndirilməsi, kibertəhlükəsizlik ekosisteminin inkişafı, süni intellektin təhlükəsiz tətbiqi və elmi potensialın gücləndirilməsi ölkənin gələcək inkişaf modelinin əsas sütunlarını təşkil edir. Məhz bu yanaşma Azərbaycanın rəqəmsal dövlət quruculuğunda dayanıqlı inkişafını təmin etməklə yanaşı, onu regionun texnoloji və innovasiya mərkəzlərindən birinə çevirmək potensialına malikdir.

*Ramiz ŞIXƏLİYEV,*
*Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyalari İnstitutunun baş elmi işçisi, texnika üzrə fəlsəfə doktoru, dosent*

## Bitki mühafizəsində süni intellekt: yeni reallıqla üz-üzə

**XXI əsrin ikinci yarısında kənd təsərrüfatı qarşısında duran əsas çağırışlar əhalinin sürətli artımı, iqlim dəyişiklikləri, su ehtiyatlarının azalması və bitki xəstəlikləri ilə zərərvericilərin yayılmasının genişlənməsi ilə bağlıdır. Bu problemlərin həlli üçün ənənəvi üsullar artıq kifayət etmir.**



Məhz buna görə də son illər süni intellekt (Sİ) texnologiyalarının kənd təsərrüfatına, xüsuilə də bitki mühafizəsi sahəsinə inteqrasiyası sürətlənib. Dünyanın inkişaf etmiş ölkələrində süni intellekt artıq xəstəliklərin diaqnostikası, zərərvericilərin monitorinqi, məhsul itkilərinin proqnozlaşdırılması və pestisidlərin optimallaşdırılmış tətbiqində geniş istifadə olunur. Bitki mühafizəsində süni intellekt yalnız yeni texnologiya deyil, həm də kənd təsərrüfatının gələcəyini müəyyən edən strateji istiqamətlərdən biridir. Bu gün artıq sual "Süni intellektdən istifadə edəkmi?" deyil, "Süni intellekti nə qədər sürətlə tətbiq edə bilərik?"şəkilində qoyulur.

Müasir süni intellekt sistemləri milyonlarla şəkil, meteoroloji məlumat və peyk təsvirlərini analiz edərək xəstəlik və zərərvericiləri erkən mərhələdə müəyyən edə bilir. Xüsusilə kompüter görməsi (Computer Vision) və dərin öyrənmə (Deep Learning) texnologiyaları bitki yarpaqlarında yaranan simptomları insan gözündən daha yüksək dəqiqlikdə tanıya bilir. Müxtəlif tədqiqatlarda süni intellekt modellərinin bir çox xəstəlik və zərərvericinin aşkarlanmasında 85-95 faiz dəqiqlik göstərdiyi bildirilir.

Hazırda ABŞ, Çin, Yaponiya, Niderland və Almaniya kimi ölkələrdə pilotsuz üçüş aparatları (dronlar), peyk sistemləri və süni intellekt proqramları vasitəsilə geniş sahələrin fitosanitar vəziyyəti real vaxt rejimində izlənilir. Bu sistemlər xəstəlik ocaqlarını müəyyən edir, onların yayılma riskini qiymətləndirir və fermerlərə dərhal xəbərdarlıq göndərir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı (FAO) da süni intellekt əsaslı erkən xəbərdarlıq sistemlərinin tətbiqini prioritet istiqamətlərdən biri hesab edir. Bu sistemlər zərərvericilərin və xəstəliklərin yayılmasını qabaqcadan proqnozlaşdıraraq vaxtında mübarizə tədbirlərinin həyata keçirilməsinə imkan yaradır.

Dünyada artıq feromon tələlərinə yerləşdirilən kameralar vasitəsilə zərərvericilərin avtomatik sayılması və identifikasiyası həyata keçirilir. Süni intellekt tələyə düşən həşəratların növünü müəyyən edir, onların sayını hesablayır və populyasiya dinamikasını analiz edir. Bu yanaşma həm əmək sərfini azaldır, həm də monitorinqin dəqiqliyini artırır.

Süni intellekt texnologiyalarının tətbiqi bitki mühafizəsində bir sıra mühüm üstünlüklər yaradır. Bu texnologiyalar xəstəlik və zərərvericilərin erkən mərhələdə aşkarlanmasına, kimyəvi preparatlardan istifadənin daha səmərəli və məqsədyönlü şəkildə həyata keçirilməsinə imkan verir. Nəticədə pestisid yükünün və ekoloji risklərin azaldılması, monitorinq xərclərinin aşağı salınması, məhsul itkisinin minimuma endirilməsi mümkün olur. Eyni zamanda süni intellekt fermerlərə qərarlarını elmi əsaslara söykənərək qəbul etməyə, iqlim dəyişiklikləri şəraitində yaranan riskləri əvvəlcədən qiymətləndirməyə və daha çevik tədbirlər görməyə imkan yaradır. Mütəxəssislərin fikrincə, yaxın illərdə süni intellekt yalnız xəstəliklərin müəyyənləşdirilməsi və zərərvericilərin aşkarlanması ilə məhdudlaşmayacaq, həm də inteqrir mübarizə sistemlərinin idarə olunmasında əsas qərarvermə alətlərindən birinə çevriləcək.

Azərbaycanda rəqəmsal kənd təsərrüfatının inkişafı istiqamətində son illər mühüm addımlar atılsa da, bitki mühafizəsində süni intellekt texnologiyalarının tətbiqi hələ başlanğıc mərhələsindədir. Hazırda zərərverici və xəstəliklərin monitorinqi əsasən vizual müşahidələrə, laborator analizlərə və mütəxəssis rəylərinə əsaslanır.

Ölkəmizdə pambıq, taxıl, üzüm, sitrus bitkiləri, tərəvəz və meyvə bağlarında müşahidə olunan fitosanitar problemlərin operativ izlənməsi üçün süni intellekt əsaslı monitorinq sistemlərinin yaradılmasına ehtiyac var. Xüsusən son illər iqlim dəyişiklikləri nəticəsində yeni zərərverici növlərin yayılması və mövcud növlərin bioloji xüsusiyyətlərinin dəyişməsi bu ehtiyacı daha da artırır.

Azərbaycanın elmi müəssisələri, universitetləri və aidiyyəti dövlət qurumları süni intellekt sahəsində beynəlxalq təcrübəni öyrənməklə yanaşı, yerli şəraitə uyğun məlumat bazalarının yaradılmasına başlamalıdırlar. Çünki süni intellekt sistemlərinin effektiv fəaliyyəti üçün minlərlə yerli xəstəlik və zərərverici şəkillərindən ibarət məlumat bazası tələb olunur.

Azərbaycanda bitki mühafizəsində süni intellekt texnologiyalarının səmərəli tətbiqi üçün bir sıra mühüm tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur. İlk növbədə, bitki xəstəlikləri və zərərvericiləri ilə bağlı vahid milli rəqəmsal məlumat bazasının yaradılması bu sahədə qərarların daha dəqiq və operativ qəbul edilməsinə imkan verə bilər. Eyni zamanda dron və peyk texnologiyalarından əldə olunan məlumatların fitosanitar monitorinq sistemlərinə inteqrasiyası əkin sahələrinin vəziyyətinə daha çevik nəzarət etməyə şərait yaradacaq.

Bununla yanaşı, feromon tələlərində avtomatik görüntü tanıma sistemlərinin tətbiqi zərərvericilərin vaxtında aşkarlanmasına, fermerlər üçün müasir rəqəmsal həllər əsasında fəaliyyət göstərən mobil tətbiqlərin hazırlanması isə düzgün qərarların qəbuluna kömək edə bilər. Süni intellekt və bitki mühafizəsi sahəsində ixtisaslı kadrların hazırlanması, universitetlərdə və elmi-tədqiqat müəssisələrində bu istiqamətdə araşdırmaların genişləndirilməsi də mühüm əhəmiyyət daşıyır.

Süni intellekt artıq gələcəyin deyil, bu günün reallığıdır. Bitki mühafizəsində onun tətbiqi xəstəlik və zərərvericilərə qarşı mübarizənin daha səmərəli, ekoloji cəhətdən təhlükəsiz və iqtisadi baxımdan rentabelli təşkil edilməsinə imkan verir. Dünyada sürətlə inkişaf edən bu texnologiyalar yaxın illərdə kənd təsərrüfatının ayrılmaz hissəsinə çevriləcək. Azərbaycan da bu prosesdən kənarda qalmamalı, milli fitosanitar təhlükəsizliyin təmin edilməsi və aqrar sektorun rəqabət qabiliyyətinin artırılması üçün süni intellekt texnologiyalarının tətbiqini prioritet istiqamətlərdən biri kimi qəbul etməlidir. Yeni reallıqlarla üz-üzə qaldığımız müasir dövrdə bitki mühafizəsinin gələcəyi məhz rəqəmsallaşma və süni intellektlə sıx bağlıdır.

*Vüsal MƏMMƏDOV,*
*ADAU-nun Bitki mühafizəsi kafedrasının dosenti*

## Kibertəhlükəsizlik dövlət siyasətinin prioritetlərindən biridir

**Azərbaycanda rəqəmsal transformasiya dövlət siyasətinin prioritetlərindən biridir. Bu strateji hədəfə çatmaq üçün hüquqi və institusional islahatlara start verilib. Görülən işlərin əsas məqsədi dövlətin, biznes mühitinin və sıravi vətəndaşların rəqəmsal mühitdə təhlükəsizliyini tam təmin etməkdir.**

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" bu sahədə yeni bir dövrün əsasını qoyur. Bu Fəaliyyət Planı ölkəmizin təhlükəsizlik sistemini daha da gücləndirəcək konkret addımları özündə birləşdirir.

Sözügedən tarixi sənəd rəqəmsal mühitin idarə edilməsi sahəsində böyük əhəmiyyət kəsb edir. Fəaliyyət Planı ölkəmizdə mövcud olan digər mühüm sənədlərlə tam uzlaşdırılıb. Bura Azərbaycan Respublikasının İnformasiya Təhlükəsizliyi və Kibertəhlükəsizlik üzrə Strategiyası (2023-2027-ci illər), Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Konsepsiyası və Azərbaycan Respublikasının Süni İntellekt Strategiyası (2025-2030-cu illər) daxildir. Bu uzlaşma dövlətin rəqəmsal gələcəyə vahid bir pəncərədən və sistemli şəkildə baxdığını sübut edir. Strategiyada müəyyən edilmiş ali məqsədlər bu plan vasitəsilə konkret və icraolunan tədbirlərdir. Məqsəd müasir, çevik və xarici təhdidlərə qədər dayanıqlı milli kibertəhlükəsizlik sistemi formalaşdırmaqdır.

Hər bir güclü sistemin təməlində təkmil qanunvericilik dayanır. Azərbaycan kibertəhlükəsizlik sahəsində hüquqi bazanı tamamilə yeniləyir və müasirləşdirir. İlk dəfə olaraq ölkəmizin qanunvericiliyinə tamamilə yeni və aktual anlayışlar daxil edilir. Hüquqi müstəvidə kiberdayanıqlılıq, kibergigiyena, kibermәkan və kibertəhlükəsizlik kimi anlayışların dəqiq əsasları müəyyən olunur. Bu anlayışların qanunla tənzimlənməsi gələcək addımların hüquqi çərçivəsini formalaşdırır.

Bu yeni hüquqi proses rəqəmsal mühitdə ümumi təhlükəsizlik standartlarının yaradılmasına imkan verəcək. Həm dövlət qurumları, həm də özəl şirkətlər virtual mühitdə hansı qaydalara əməl etməli olduqlarını aydın şəkildə görəcəklər. Bununla da, mümkün kiberrisklərin qabaqcadan təhlil edilməsi və onların daha effektiv idarə olunması üçün güclü sistem formalaşır. Hüquqi islahatlar cəza tədbirləri ilə yanaşı, həm də qabaqlayıcı təhlükəsizlik mədəniyyətini təbliğ edir.

Kiberdünyada təhdidlərə qarşı pərakəndə mübarizə aparmaq səmərəli deyil. Virtual hücumlar sürətli koordinasiya və mərkəzləşdirilmiş idarəetmə tələb edir. Bu zərurəti nəzərə alaraq, Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Milli Kibertəhlükəsizlik Agentliyi yaradılıb. Bu agentlik ölkənin kiberbölmələrini bir araya gətirən mərkəzi orqan rolunu oynayır.

Agentliyin fəaliyyəti çərçivəsində üç mühüm strateji mərkəzin fəaliyyəti təşkil olunur. Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi ölkəmizin rəqəmsal infrastrukturunu fasiləsiz izləyir. Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi isə hər hansı bir hücum baş verdikdə dərhal işə düşür və böhranı operativ idarə edir. Rəqəmsal Tədqiqat Mərkəzində yeni kibertəhdidlər elmi və texnoloji baxımdan araşdırılır. Bu yeni vahid idarəetmə modeli kibertəhdidlərin monitorinqini, insidentlərin qarşısının vaxtında alınmasını və rəqəmsal sübutların araşdırılması proseslərini bir mərkəzdən koordinasiya etməyə geniş imkanlar yaradır.

Kiberhücumlar zamanı ən çox hədəf alınan sahələr strateji əhəmiyyətli dövlət və özəl obyektlərdir. Məhz buna görə də yeni strategiyada kritik informasiya infrastrukturunun qorunmasına xüsusi diqqət yetirilir. Bank, sığorta, energetika, nəqliyyat və digər ictimai əhəmiyyətli sahələr üçün tamamilə yeni və sərt kibertəhlükəsizlik tələbləri müəyyən edilir. Bu qurumların təhlükəsizliyi birbaşa dövlətin və xalqın sabitliyi deməkdir.

Kibercinayətkarlar gün keçdikcə daha mürəkkəb üsullardan istifadə edirlər. Onlara qarşı ənənəvi üsullarla mübarizə aparmaq bəzən yetərli olmur. Azərbaycan bu mübarizədə ən müasir texnologiyalara, xüsusilə süni intellektə güvənir. Kibertəhlükəsizlik sahəsində süni intellekt texnologiyalarının tətbiqi genişləndirilir. Süni intellekt potensial təhdidləri hələ hücum başlamazdan əvvəl davranış analizləri vasitəsilə aşkarlamaq imkanına malikdir. Beləliklə, müdafiə sistemi reaktiv deyil, qabaqlayıcı xarakter daşıyır.

Bu istiqamətdə atılan digər mühüm addım vahid milli kibertəhlükəsizlik platformasının yaradılmasıdır. Bu platforma dövlət qurumları, özəl sektor və digər tərəflər arasında real vaxt rejimində məlumat mübadiləsini təmin edəcək. Bir quruma edilən hücum barədə məlumat dərhal sistemdəki digər iştirakçılara ötürüləcək və hamı eyni vaxtda qorunacaq. Eyni zamanda dövlət informasiya sistemlərinin Hökumət Buludu platformasına mərhələli miqrasiyası da sürətlə davam etdirilir. Məlumatların vahid təhlükəsiz bulud sistemində cəmlənməsi həm riskləri azaldır, həm də dövlət idarəçiliyinin səmərəliliyini artırır.

Ən güclü texnoloji sistem belə insandan asılıdır. Kiberinsidentlərin böyük əksəriyyəti insan xətalarından və kibergigiyena qaydalarına riayət edilməməsindən qaynaqlanır. Bu səbəbdən dayanıqlı kiberbəşəriyyətin və cəmiyyətin qurulması strategiyanın bəlkə də ən mühüm sütunudur. Azərbaycan bu sahədə köklü təhsil və maarifləndirmə islahatları aparır. Ali və peşə təhsili müəssisələrində beynəlxalq kibertəhlükəsizlik sertifikatlaşdırma proqramlarının tətbiqi genişləndirilir. Məqsəd dünya standartlarına cavab verən yerli gənc mütəxəssislər yetişdirməkdir.

Beləliklə, Azərbaycanda həyata keçirilən kibertəhlükəsizlik islahatları ölkəmizin rəqəmsal müstəqilliyinin qarantıdır. Görülən bütün bu işlərin, qəbul edilən yeni hüquqi normativlərin və yaradılan yeni mərkəzlərin hədəfləri var, dövlət informasiya sistemlərinin tam dayanıqlılığını təmin etmək, ciddi infrastrukturu kənar müdaxilələrdən qorumaq və Azərbaycanın beynəlxalq kibertəhlükəsizlik reytinqlərindəki mövqeyini daha da yüksəltməkdir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

## Tovuz döyüşlərindən 6 il ötür

# Azərbaycanın hərb tarixinin qəhrəmanlıq nümunəsi

**2020-ci ilin iyulun 12-də baş vermiş Tovuz döyüşləri Azərbaycanın müasir hərb tarixinin ən mühüm hadisələrindən biri kimi yadda qaldı. Dövlət sərhədində baş verən bu döyüşlər təkcə Ermənistanın növbəti təxribatının qarşısının alınması ilə nəticələnmədi, Azərbaycan Ordusunun gücünü, xalqın həmrəyliyini və dövlətin qətiyyətini dünyaya nümayiş etdirdi. Tovuz döyüşləri ilə başlayan şərəfli yol sentyabrın 27-də böyük zəfərin başlanğıcı oldu.**



Tovuz döyüşləri ilə bağlı əməkdaşımıza danışan **Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu NAĞIYEV** döyüşlərdən 6 il ötdüyünü xatırladaraq, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun rəşadəti və şəhadəti şərəf sayan xalqımızın vəhdəti hesabına Vətən müharibəsindəki qələbəyə aparan yolun təməlinin məhz Tovuz döyüşlərində qoyulduğunu qeyd etdi: "Tovuz rayonu Azərbaycan-Ermənistan dövlət sərhədinin 69 kilometrini təşkil edir və olduqca strateji mövqedə yerləşir. Bu ərazidə Əlibəyli, Ağdam, eləcə də dağlıq ərazidə yerləşən digər kəndlər mövcuddur. 1990-cı illərdən etibarən bu bölgə Azərbaycan Ordusu, həmçinin burada yaşayan sakinlər tərəfindən yüksək səviyyədə qorunub. Bölgədəki yüksəkliklər o qədər əlverişlidir ki, buradan 25 kilometrlik ərazini müşahidə etmək mümkündür. Tovuz strateji əhəmiyyətə malik olduğuna görə Ermənistan bu ərazini ələ keçirməyə çalışmışdı. Bakı-Tbilisi-Qars dəmir yolu, enerji və digər mühüm kommunikasiya xətləri məhz bu ərazidən keçir. Ermənistan həmin obyektləri vurmağa risk etməsə də, onlara nəzarəti təmin etmək üçün strateji yüksəklikləri ələ keçirmək istəyirdi".

Deputat qeyd etdi ki, 2020-ci il iyulun 12-də Ermənistan silahlı birləşmələri Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində, Qaraqaya ərazisində təxribat törətdilər. Ermənistan bu strateji əhəmiyyətli nöqtəni ələ keçirməklə, Tovuz rayonuna və digər mühüm məntəqələrə nəzarət etməyə çalışırdı. Lakin bütün bu cəhdlərin qarşısı qətiyyətlə alındı. "Tovuz döyüşləri zamanı heç kim öz doğma torpağını tərk etmədi. Sərhəd kəndləri olan Ağdam, Əlibəyli, Hacıalılı və digər yaşayış məntəqələrinin sakinlərindən bir nəfər belə evindən çıxmadı. Azərbaycanın hər yerindən insanlar həm yardım göstərmək, həm də döyüşlərdə iştirak etmək üçün Tovuza axışırdılar. Xüsusi xidmət və digər hüquq-mühafizə orqanları üzərlərinə düşən vəzifələri peşəkarlıqla yerinə yetirdilər",- deyə o əlavə edib.

A.Nağıyev dedi ki, Ermənistan proseslərə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) da cəlb etmək istəyirdi. Onlar bilirdilər ki, Azərbaycan cavab atəşi açacaq. Ermənilərin məqsədi bundan istifadə edib təşkilatın müdaxiləsinə nail olmaq idi. Ermənistan bu oyuna Rusiyanı da daxil etməyə çalışsa da, bütün cəhdləri nəticəsiz qaldı.

Tovuz döyüşləri zamanı Azərbaycan Ordusunun qüdrəti və peşəkarlığı, xalqın isə birliyi bir daha nümayiş olundu. Döyüşlər Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozaraq artilleriya qurğularından istifadə etməsi, Azərbaycan Ordusunun mövqelərini və dinc əhalini atəşə tutması ilə başladı. Döyüşlərə başlayandan əvvəl - son iki gündə Ermənistan atəşkəsi 105 dəfə pozmuşdu. Bu hadisələr Ermənistanın Azərbaycana qarşı əvvəlcədən planlaşdırdığı genişmiqyaslı təxribat idi. Lakin Azərbaycan Silahlı Qüvvələrinin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistanın hücum cəhdinin qarşısı alındı.

Komitə sədri bildirdi ki, qüdrətli Azərbaycan Ordusunun düşmənə layiqli cavab verməsi nəticəsində Ermənistan silahlı qüvvələri aciz qalaraq geri çəkilməyə başlayıb: "Tovuz döyüşləri iyulun 17-də Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı və biz tərəfdən heç bir ərazi itkisi olmadı. Bu döyüşlər İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi Zəfərinin təməlini qoydu. Azərbaycan hərbçiləri döyüşlərdə böyük qəhrəmanlıq və peşəkarlıq nümayiş etdirdilər. Təəssüf ki, şəhidlərimiz də oldu. Ordumuzun 12 hərbi qulluqçusu, o cümlədən general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər zabitlərimiz qəhrəmancasına şəhid oldular. Bundan başqa, Ermənistan silahlı qüvvələrinin artilleriya və minaatanlardan açdığı atəş nəticəsində Tovuz rayonunun Ermənistanla həm sərhəddə yerləşən, həm də sərhəddən aralı olan Dondar Quşçu, Ağdam, Əlibəyli və digər kəndlərində mülki obyektlərə və yaşayış evlərinə ciddi ziyan dəydi. Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən həmin binalar və obyektlər sonradan bərpa olundu".

Deputat qeyd edib ki, əsas məqam odur ki, iyul döyüşlərindən təxminən iki ay sonra Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayaraq 44 günlük Vətən müharibəsində düşməni məğlub edib. Ermənistan ordusu haqqında yaradılmış miflər darmadağın edildi. Xankəndidə keçirilən antiterror tədbirlərindən sonra Azərbaycan bayrağı ucaldıldı. "Bununla dünyaya bir daha göstərildi ki, Azərbaycan həm döyüş meydanında qələbə qazanmağa, həm də azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq işləri həyata keçirməyə qadirdir. Bu gün sərhəd xətti boyunca və digər həmsərhəd ərazilərdə müdafiə və quruculuq işləri davam etdirilir, sərhədlər möhkəmləndirilir. Düşünürəm ki, Ermənistanın kapitulyasiya aktına imza atmasının təməlində vaxtilə Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun və digər hüquq-mühafizə orqanlarının yüksək peşəkarlıqla həyata keçirdiyi Tovuz döyüşləri dayanır", - deyə deputat əlavə etdi.

A.Nağıyev vurğulayıb ki, Prezidentin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə Polad Həşimova və İlqar Mirzəyevə Azərbaycanın Milli Qəhrəmanı adı verildi. İllər ötəcək, zaman keçəcək, Tovuz döyüşləri Azərbaycanın hərb tarixində qəhrəmanlıq nümunəsi kimi daim xatırlanacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# TOVUZ DÖYÜŞLƏRİ: qətiyyət və gücün nümayişi







**İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında erməni qəsbkarları üzərində qazandığı qələbə nəticəsində torpaqlarımızın 30 illik işğalına son qoyuldu. Qarabağ və Şərqi Zəngəzur erməni işğalçılarından azad olundu. Xalqımız uzun illərdən bəri gözlədiyi tarixi Zəfəri böyük sevgi və coşqu ilə qeyd etdi.**

Amma 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərə gedən yol başlanğıcını Tovuz döyüşlərindən götürmüşdü. 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatlarında zəngin təcrübə qazanmış Azərbaycan Ordusunun hissələri Tovuz döyüşlərində də erməni işğalçılarına sarsıdıcı zərbələr vurmuşdu. Gücünü, qüdrətini separatçılara göstərmiş, ölkəmizin ərazisinin hər qarışını işğalçılardan cəsarətlə qorumuşdu.

12 iyul 2020-ci ildə günorta saatlarında Ermənistan silahlı qüvvələrinin təxribatçı qrupları Azərbaycanın dövlət sərhədini pozaraq Tovuz rayonu istiqamətində yeni mövqelər ələ keçirmək üçün hücuma keçdilər. Düşmənin əsas məqsədi əlverişli yüksəkliklərə yiyələnmək idi. Mövqelərində ayıq-sayıq dayanan hərbi qulluqçularımız işğalçıların qarşısını almaq üçün təcili olaraq müvafiq tədbirlər görməyə başladılar. Neçə vaxtdan bəri susan silahlar bir an içində dilə gəldi. Görülən zəruri və təxirəsalınmaz tədbirlər nəticəsində düşmən hücumunun qarşısı qətiyyətlə alındı, ağır itki verən işğalçılar geri çəkildilər.

Amma düşmən silahı yerə qoymadı. Növbəti gün gecə və səhərə yaxın Ermənistan hərbi birləşmələri Tovuz istiqamətində gərginliyi artırmaq üçün iriçaplı pulemyotlardan, qumbaraatanlardan, minaatan qurğulardan və digər silahlardan istifadə edərək yenidən mövqelərimizi atəşə tutdular. Təxribatın qarşısını almaq üçün hərbi birləşmələrimiz tərəfindən sərt cavab tədbirləri görüldü. Əks-həmlələr qarşısında duruş gətirməyən düşmən irəli gedə bilməyəcəyini görüb hücumlarını dayandırdı. Döyüş meydanlarında məğlubiyyətə uğrayan yağılar bunun əvəzini həmin gün sərhəd kəndlərinə atəş açmaqla çıxdılar. Tovuzun Ağdam, Dondar Quşçu kəndlərini minaatanlardan və toplardan atəşə tutdular. Əhali arasında qorxu və vahimə yaratmağa çalışdılar. Amma çirkin məqsədlərinə çata bilmədilər. Çünki qoşunlarımız tərəfindən qısa müddət ərzində düşmənin bu təxribatçı hərəkətlərinə qarşı sərt cavab tədbirləri həyata keçirildi. Dəqiq atəş zərbələri ilə Ermənistan silahlı qüvvələrinin bir neçə hərbi obyekti, zirehli texnikaları, həmçinin atəş mövqeləri, radiolokasiya stansiyası və başqa zəruri hərbi infrastrukturu darmadağın edildi. İşğalçıların ordumuzun mövqelərini ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alındı. Düşmən bir addım da olsun irəliləyə bilmədi.

Əməliyyatlara əlavə qüvvələr cəlb edən işğalçılar həmin gün gecə və səhər saatlarında yenə də hücumlarını davam etdirdilər. İyulun 14-də erməni silahlı birləşmələri Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini iriçaplı silahlar və artilleriya qurğularından fasiləsiz olaraq atəşə tutdular. Təəssüflər olsun ki, həmin gün olduqca gərgin keçən əməliyyat zamanı müdafiənin ön xəttində olan general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və bir neçə hərbi qulluqçumuz şəhid oldular. Onların qisasını ordumuzun cəsur zabit və əsgərləri aldılar. Ağır itkilər verən ermənilərin geri çəkilməkdən başqa çarələri qalmadı.

Beləcə Tovuz döyüşləri Azərbaycanın hərb tarixinə Zəfərin başlanğıcı kimi yazıldı. Uğurla başa çatan döyüşlər bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almağa qadir və hazırdır.

Tovuz döyüşləri zamanı erməni işğalçılarının onlarla canlı qüvvəsi, zirehli texnikası, dayaq məntəqəsi, artilleriya qurğuları və başqa silah-sursatları məhv edildi. Azərbaycan Prezidenti İlham Əliyev zabit və əsgərlərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqdan, igidlikdən söz açaraq demişdir: "Biz fəxr edirik ki, Azərbaycan xalqı, Azərbaycan torpağı belə övladlar yetişdirib". Dövlətimizin başçısı Tovuzda baş verən hadisələri Ermənistanın növbəti təxribatı adlandırdı və Azərbaycanın ərazi bütövlüyünün qorunacağını qətiyyətlə bildirdi.

Tovuz döyüşləri həm də xalq və Prezident, xalq və ordu birliyinin sarsılmaz olduğunu göstərdi. Azərbaycan Ordusu bir daha sübut etdi ki, Ermənistan silahlı qüvvələri onun gücü və qüdrəti qarşısında çox zəifdir. Çünki Azərbaycan qısa müddət ərzində güclü və qüdrətli ordu yaratmış, müdafiəsini və təhlükəsizliyini yüksək səviyyədə təmin etmişdir.

Tovuz döyüşləri ordumuzun vətənpərvər, yurdunu, torpağını sevən olduğunu bir daha göstərdi. Zabit və əsgərlərimizin əməliyyatlar zamanı göstərdikləri qəhrəmanlıq nümunələri gənclərin vətənpərvərlik hisslərini daha da coşdurdu. Yurdunu, torpağını sevən, onun uğrunda hər an döyüşə hazır olan oğullar dəstə-dəstə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər və rayon bölmələrinə üz tutaraq Vətən torpaqları uğrunda vuruşmağa hazır olduqlarını bildirdilər. Tovuz döyüşlərinin davam etdiyi günlərdə Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında daha sıx birləşdi. Düşmənə nifrət, axıdılan nahaq qanlar xalqımızda qələbə ovqatını daha da gücləndirdi. Erməni quldurları bu döyüşlərdə həm də onu gördülər ki, Azərbaycan Ordusunun generalları və yüksəkrütbəli zabitləri öz əsgərləri ilə çiyin-çiyinə vuruşurlar. Tabeliyində olan şəxsi heyəti qələbəyə ruhlandırır, cəsarətləri ilə onlara nümunə göstərirlər.

Ermənilərin təxribatı nəticəsində başlayan Tovuz döyüşlərinin Azərbaycan Ordusunun qələbəsi ilə sona çatmasını Ermənistanın bir çox hərbi ekspert də etiraf etdi. Ermənistan silahlı qüvvələrinin yüksəkrütbəli zabiti Arkadi Ter-Tadevosyan İrəvandakı "İmpuls 106.5 FM" radiosuna verdiyi müsahibəsində bildirmişdir ki, Azərbaycan Ordusu bu döyüşlərdə öz hədəfinə çatdı: "Onlar Ermənistanın bəzi hərbi obyektlərini darmadağın etməklə bərabər, həm də bizim əsas hərbi obyektlərimizin bir çoxunun yerini təsbit etməklə gələcək döyüşlərdə böyük üstünlüklər qazanmağı bacaracaqlar. Bu və ya digər ağır nəticələrə görə deyə bilərəm ki, Tovuz döyüşlərində Ermənistan ordusu məğlub tərəfdir".

Ermənilərin də etiraf etdikləri kimi, Tovuz döyüşləri Ermənistan silahlı qüvvələrinin hərbi gücsüzlüyünü, zəifliyini, Azərbaycan Ordusunun isə güclü, qüdrətli olduğunu bir daha göstərdi. Bu, xalqımızın döyüş ruhunun, vətənpərvərlik hissinin, torpağa sevgisinin, düşmənə nifrətinin yüksək səviyyədə olduğunun təcəssümü idi. Azərbaycan Ordusu Aprel döyüşlərində, Günnüt əməliyyatında, Tovuz döyüşlərində başladığı uğurlu əməliyyatlarını 44 günlük Vətən müharibəsində davam etdirdi, 30 ilə yaxın erməni işğalında qalan torpaqlarımızı azad etdi. Bu səbəbdən hərb tariximizə böyük hərflərlə yazılmış Tovuz döyüşləri xalqımızın yaddaşında qəhrəmanlıq səhifəsi kimi qalacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



# İşğaldan azad edilən ərazilərdə ilk qadın kooperativi Ağalıda yaradılır



**Azərbaycan Kənd Qadınları Assosiasiyası işğaldan azad olunmuş ərazilərdə qadın sahibkarlığının inkişafında yeni mərhələnin əsasını qoyur. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində iqtisadi dirçəliş və dayanıqlı inkişaf prosesinə növbəti mühüm töhfə verən tarixi təşəbbüs həyata keçirilir. Azərbaycan Kənd Qadınları Assosiasiyası QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra etdiyi "Aqrosahibkar Qadınlarla İş" layihəsi çərçivəsində işğaldan azad edilən ərazilərdə ilk qadın kooperativini Zəngilan rayonunun Ağalı kəndində yaradır. Bununla da assosiasiya regionda qadın sahibkarlığının inkişafında keyfiyyətcə yeni bir mərhələyə start verir.**



Azərbaycan Kənd Qadınları Assosiasiyasından AZƏRTAC-a verilən məlumata görə, bu təşəbbüs təkcə yeni istehsal subyektinin qurulması deyil, həm də regionda qadınların iqtisadi müstəqilliyinin güclənməsinə, kollektiv sahibkarlığın fəal inkişafına və aqrar sektorda müasir əməkdaşlıq modelinin formalaşmasına xidmət edən strateji addımdır.

AKQA-nın rəhbərliyi ilə ərsəyə gələn bu kooperativ Ağalı kəndində məskunlaşan və aqrar sahədə fəaliyyət göstərən qadın sahibkarları vahid platformada birləşdirəcək. Yeni model sayəsində yerli qadınlar bilik, təcrübə, resurs və istehsal imkanlarını sinerji şəklində bir araya gətirərək daha səmərəli fəaliyyət göstərə biləcəklər. Bu isə öz növbəsində istehsal həcminin artırılmasına, rəqabətqabiliyyətli yerli məhsullarla yeni bazarlara çıxış imkanlarının genişləndirilməsinə və ailə gəlirlərinin yüksəldilməsinə zəmin yaradacaq.

Çoxşaxəli fəaliyyət profilinə malik olacaq qadın kooperativi əkinçilik, taxılçılıq, bağçılıq, heyvandarlıq, meyvə-tərəvəz emalı, milli mətbəx, iaşə xidmətləri və aqroturizm kimi kənd təsərrüfatı ilə birbaşa əlaqəli olan sahələrdə çalışan sahibkar qadınları öz çətiri altında birləşdirəcək.

Layihənin mühüm mərhələsi olaraq, iştirakçılar üçün kooperativ idarəçiliyi, biznesin planlaşdırılması, müasir emal texnologiyaları, marketinq və satış strategiyaları, müştəri xidmətləri, həmçinin aqroturizmin təşkili istiqamətlərində xüsusi təlimlər təşkil olunub. Qazanılan müasir bilik və bacarıqlar Ağalı kəndinin iqtisadi potensialının daha səmərəli reallaşdırılmasına, Şərqi Zəngəzurun turizm imkanlarının genişlənməsinə və yerli istehsalın rəqabət gücünün artmasına birbaşa xidmət edəcək.

Bununla da, Ağalı qadınları fərdi təsərrüfatçılıqdan daha mütərəqqi bir mərhələyə - kollektiv sahibkarlığa qədəm qoyurlar. Onlar öz təşəbbüskarlıqları və sarsılmaz əməkdaşlıq ruhu ilə sübut edirlər ki, birlikdə çalışmaq daha böyük uğurlar, daha dayanıqlı biznes mühiti və daha yüksək sosial rifah deməkdir. İşğaldan azad edilən ərazilərdə fəaliyyət göstərəcək ilk rəsmi hüquqi statuslu qadın biznes qurumu olan bu kooperativ, eyni zamanda bölgədə qadın liderliyinin, iqtisadi həmrəyliyin və sosial məsuliyyətin yeni simvoluna çevrilərək, digər yenidən qurulan yaşayış məntəqələri üçün də uğurlu bir nümunə rolunu oynayacaq.

**Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri və layihənin koordinatoru Gülbəniz QƏNBƏROVA** bildirib: "Ağalıda yaradılan bu kooperativ, sadəcə, yeni bir təsərrüfat subyekti deyil. Bu, xanımların zəhmətinin, iradəsinin və gələcəyə inamının təcəssümüdür. Biz inanırıq ki, qadınların kollektiv biznes modeli kənd yerlərində daha çox istehsal, daha çox satış, daha yüksək gəlir və daha dayanıqlı sosial rifah yaradacaq. Ağalının təşəbbüskar qadınları azad edilən ərazilərdə kollektiv qadın sahibkarlığının ilk nümunəsini formalaşdırmaqla tarix yazırlar".

Layihə çərçivəsində formalaşan kooperativ yalnız iqtisadi dividendlərlə məhdudlaşmır. O, həm də qadınların yerli qərar qəbuletmə proseslərində rolunu artıracaq, onların liderlik potensialını inkişaf etdirəcək, yeni institusional əməkdaşlıq əlaqələri quracaq və kənd icmasının sosial-iqtisadi tərəqqisinə uzunmüddətli təsir göstərəcək.

Ağalı qadınlarının bu təşəbbüsü gələcəkdə azad edilmiş digər rayonlarda da analoji qadın kooperativlərinin formalaşdırılması üçün yol xəritəsi olacaq. Burada sınaqdan çıxarılan uğurlu təcrübə və metodologiya növbəti regional təşəbbüslərin əsas bazasını təşkil edəcək.

Azərbaycan Kənd Qadınları Assosiasiyası bundan sonra da kənd qadınlarının iqtisadi imkanlarının genişləndirilməsi, qadın sahibkarlığı ekosisteminin inkişafı, kooperativ hərəkatının gücləndirilməsi və regionlarda dayanıqlı məşğulluğun artırılması istiqamətində ardıcıl fəaliyyətini davam etdirəcək.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatına görə, iyulun 10-da baş prokuror Kamran Əliyev Balakən Rayon Prokurorluğunun inzibati binasında Balakən, Zaqatala və Qax rayonundan olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 17 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Energetika naziri Pərviz Şahbazovun iştirakı ilə nazirlikdə növbəti dəfə vətəndaşlarla görüş keçirilib.

Energetika Nazirliyindən bildirilib ki, görüş zamanı elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti və digər mövzularla bağlı müraciətlər dinlənilib, vətəndaşları narahat edən məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

Nazirlik tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə rəhbər vəzifəli şəxslərin 2026-cı il üzrə vətəndaş qəbulu qrafiki nazirliyin rəsmi internet səhifəsində yerləşdirilib.

* * *

İyulun 10-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Sumqayıtda vətəndaşlarla görüşüb.

Dövlət komitəsindən bildirilib ki, əvvəlcə Ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq, önünə gül dəstələri qoyulub, xatirəsi dərin ehtiramla yad edilib.

Görüşdə Sumqayıt şəhəri və Qubadlı rayon sakinlərinin müraciətləri dinlənilib. Müraciətlər arasında işlə təmin olunma, hüquqi yardım, ailə məsələləri, qayğı mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və digər mövzular yer alıb.

Hər bir müraciət fərdi qaydada dinlənilib, qaldırılan məsələlərin qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Araşdırma tələb edən müraciətlər isə qeydiyyata alınaraq nəzarətə götürülüb.

* * *

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Balakən şəhərində Balakən, Zaqatala və Qax rayonlarından olan vətəndaşlarla görüşüb.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, görüşə gələn vətəndaşların sahibkarlığın inkişafı, güzəştli kreditlər, əmlak, vergi, sosial və digər məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilən görüş zamanı vətəndaşların hər bir müraciəti diqqətlə araşdırılıb, qaldırılan məsələlər üzrə müvafiq izahat və əsaslandırılmış cavablar verilib. Əlavə araşdırma tələb edən müraciətlər isə qanunvericiliyə uyğun qaydada icraata götürülüb.

*AZƏRTAC*

# Şuşada IV Qlobal Media Forumu keçiriləcək

**İyulun 13-14-də "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumu keçiriləcək.**




Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a bildirilib ki, artıq nüfuzlu beynəlxalq platformalardan birinə çevrilən Şuşa Qlobal Media Forumu bu il "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunacaq.

Dünyanın 54 ölkəsindən 160-a yaxın media nümayəndəsi, ekspert və rəsmi şəxsin iştirak edəcəyi forumda 30-a yaxın beynəlxalq informasiya agentliyi və 60-dan çox aparıcı media qurumu təmsil olunacaq. Həmçinin 10-a yaxın beynəlxalq təşkilat və şirkətin nümayəndələri də tədbirə qatılacaqlar.

Forum çərçivəsində medianın sülh quruculuğundakı rolu, sərhədlərarası media dialoqu və ictimai etimadın bərpası, dezinformasiya ilə mübarizədə beynəlxalq əməkdaşlıq, rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin yaradılması, süni intellekt dövründə media etikası və məsuliyyətli jurnalistika kimi aktual mövzular ətrafında panel müzakirələri, təkbətək görüşlər və interaktiv sessiyalar təşkil ediləcək.

Tədbir mediada məsuliyyətli davranışın vacibliyini önə çəkərək, cəmiyyətlər arasında sarsılmış etimadın bərpası, rəqəmsal həmrəyliyin gücləndirilməsi və sülhün təmin olunması istiqamətində praktiki addımların atılmasına töhfə verməyi hədəfləyir.

Qeyd edək ki, 2022-ci ildə ilk dəfə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirilib. Sonrakı illərdə bu təşəbbüs Şuşa Qlobal Media Forumu formatında davam etdirilib. Belə ki, 2023-cü ildə keçirilən I Şuşa Qlobal Media Forumu "4-cü Sənaye İnqilabı dövründə Yeni Media", 2024-cü ildə baş tutan II Şuşa Qlobal Media Forumu "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə", 2025-ci ildəki III Şuşa Qlobal Media Forumu isə "Rəqəmsal Keçidlər: Süni İntellekt Dövründə İnformasiya və Media Dayanıqlılığının Gücləndirilməsi" mövzularına həsr olunub.

İndiyədək keçirilən forumlar ərzində 81 ölkədən 600-ə yaxın nüfuzlu media nümayəndəsi, ekspert və rəsmi şəxsi bir araya gətirən Şuşa Qlobal Media Forumu qlobal media gündəliyinin müzakirə olunduğu aparıcı beynəlxalq platformalardan biri kimi öz mövqeyini möhkəmləndirib.

Forumun əvvəlki illərdə keçirilən sessiyalarında rəqəmsal transformasiya, süni intellekt texnologiyalarının media sektoruna və xəbər istehsalı proseslərinə təsiri, bu texnologiyaların yaratdığı imkanlar və çağırışlar, mediada innovasiyalar, dezinformasiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi kimi məsələlər geniş müzakirə olunub. Son illərdə qlobal informasiya mühitində baş verən sürətli dəyişikliklər həmin mövzuların aktuallığını daha da artırıb. Bu baxımdan, əvvəlki forumlarda əsası qoyulan müzakirələrin davamı olaraq, sözügedən istiqamətlər IV Şuşa Qlobal Media Forumunun da əsas diqqət mərkəzində olacaq və müasir çağırışlar kontekstində ətraflı müzakirə ediləcək.

# Azərbaycanın "yaşıl enerji" strategiyası - gələcəyə hesablanan inkişaf modeli

**Bu gün inkişaf etmiş dövlətlərin strateji gündəliyində bərpaolunan enerji mənbələrinin genişləndirilməsi, "yaşıl iqtisadiyyat"a keçid və dayanıqlı inkişaf modeli əsas yer tutur. Belə mürəkkəb geosiyasi və iqtisadi şəraitdə Azərbaycan da inkişaf strategiyasını zamanın tələblərinə uyğun formalaşdırır.**



Enerji siyasətində qazandığı uğurları qorumaqla yanaşı, ölkəmiz "yaşıl enerji"yə inamla keçir. Bu strategiya yalnız alternativ enerji mənbələrinin payının artırılmasını deyil, milli iqtisadiyyatın şaxələndirilməsini, ekoloji təhlükəsizliyin möhkəmləndirilməsini, regionların davamlı inkişafını, yeni istehsal sahələrinin yaradılmasını və gələcək nəsillər üçün sağlam həyat mühitinin formalaşdırılmasını təmin edir. Məhz buna görə Azərbaycanın "yaşıl enerji" strategiyası iqtisadi, sosial, ekoloji və geosiyasi maraqları vahid inkişaf konsepsiyasında birləşdirən mühüm dövlət siyasətidir.

Prezident İlham Əliyev bu istiqamətdə dövlət siyasətinin mahiyyətini belə ifadə edib: "Yaşıl enerji" növlərinin yaradılması və onların dünya bazarlarına çıxarılması Azərbaycanın enerji siyasətinin əsas prioritetlərindən biridir". Bu fikir təsadüfi deyil. Azərbaycan karbohidrogen ehtiyatlarının ixracatçısı olmaqla yanaşı, həm də bərpaolunan enerji istehsalçısı və gələcəkdə "yaşıl enerji" ixrac edən ölkə kimi mövqeyini möhkəmləndirir. "Yaşıl enerji" anlayışı isə yalnız günəş panelləri və külək turbinləri ilə məhdudlaşmır. O, özlüyündə təbiətlə iqtisadi inkişaf arasında tarazlığın qorunmasını, enerji istehsalında ekoloji məsuliyyəti, resurslardan səmərəli istifadəni və aşağıkarbonlu iqtisadiyyatın qurulmasını ifadə edir. Bu sahədə Azərbaycanın üstünlüyü ondadır ki, enerji keçidinə sıfırdan başlamır. Etibarlı enerji tərəfdaşı kimi tanınan ölkəmiz zəngin neft-qaz infrastrukturu, güclü mühəndislik məktəbi, beynəlxalq tərəfdaşlıq təcrübəsi və əlverişli coğrafi mövqeyi sayəsində alternativ enerji sahəsində də iddialı hədəflər müəyyənləşdirib. Həyata keçirilən layihələr göstərir ki, ölkəmiz ənənəvi və bərpaolunan enerjini qarşı-qarşıya qoymur, onları vahid enerji strategiyasının bir-birini tamamlayan istiqamətləri kimi inkişaf etdirir. Bu baxımdan "Azərbaycan neftdən imtina edir" fikri reallığı əks etdirmir. Əksinə, ölkəmiz neft və qaz sektorundan əldə etdiyi iqtisadi gücü "yaşıl iqtisadiyyat"ın qurulmasına yönəldərək enerji keçidini risk yox, yeni inkişaf imkanları kimi dəyərləndirir.

Strategiyanın mühüm üstünlüklərindən biri də regionların tarazlı inkişafına verdiyi töhfədir. Günəş və külək, kiçik su-elektrik stansiyalarının, enerji saxlanc sistemlərinin və müasir ötürücü infrastrukturun yaradılması yalnız elektrik istehsalını artırmır, həmçinin yeni investisiyaların cəlb olunmasına, minlərlə iş yerinin açılmasına, müasir texnologiyaların tətbiqinə, yerli istehsalın və sahibkarlığın inkişafına geniş imkan yaradır. Eyni zamanda iri günəş və külək-elektrik stansiyalarının əsasən kənd təsərrüfatı üçün yararsız və uzun illər istifadəsiz qalmış torpaq sahələrində yerləşdirilməsi həm məhsuldar torpaq fondunun qorunmasına, həm də istifadəsiz ərazilərin iqtisadi dövriyyəyə cəlb olunmasına xidmət edir.

Azərbaycanın "yaşıl enerji" strategiyasının uğurlu tətbiq olunduğu məkan işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurdur. Dövlətimizin başçısının bu əraziləri "Yaşıl enerji zonası" elan etməsi dağıdılmış torpaqların müasir texnologiyalar əsasında yenidən qurulmasına, ekoloji cəhətdən təmiz və dayanıqlı inkişaf modelinin formalaşdırılmasına xidmət edir. Müharibənin dağıntıları üzərində "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, rəqəmsal idarəetmə sistemlərinin qurulması və bərpaolunan enerji layihələrinin həyata keçirilməsi bu bölgəni Azərbaycanın gələcək enerji strategiyasının əsas mərkəzlərindən birinə çevirir.

Qarabağ və Şərqi Zəngəzur zəngin hidroenerji ehtiyatları, yüksək günəş radiasiyası, əlverişli külək rejimi və geniş istifadəsiz əraziləri ilə bərpaolunan enerji istehsalı üçün böyük potensiala malikdir. Son illər istifadəyə verilən su-elektrik stansiyaları regionun enerji təminatını gücləndirməklə yanaşı, təmiz enerji istehsalını da artırıb. Günəş və külək-elektrik stansiyalarının tikintisi, yeni yarımstansiyaların, ötürücü xətlərin və rəqəmsal infrastrukturun yaradılması isə bölgənin inkişafına əlavə dinamika verir. Bu layihələr regionda yeni iş yerlərinin açılmasına, mühəndislik və xidmət sahələrinin inkişafına, logistika imkanlarının genişlənməsinə, müasir texnologiyaların tətbiqinə və insanların dayanıqlı məşğulluğuna da şərait yaradır.

Azərbaycanın "yaşıl enerji" strategiyasının uğurlarından biri də xarici investisiyaların artmasıdır. Dünyanın aparıcı enerji şirkətlərinin günəş və külək-elektrik stansiyalarının tikintisinə maraq göstərməsi ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edildiyini təsdiqləyir. Bu investisiyalar maliyyə vəsaitindən əlavə, həm də qabaqcıl texnologiyaların, müasir idarəetmə təcrübəsinin və yeni biliklərin ölkəyə gətirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Formalaşdırılan beynəlxalq "yaşıl enerji" dəhlizləri Azərbaycanın geoiqtisadi mövqeyini də gücləndirir. Xəzər hövzəsini Qara dəniz və Avropa enerji sistemi ilə birləşdirəcək layihələr ölkəmizin mövqeyini mühüm enerji tranzit mərkəzi kimi möhkəmləndirir. Bu təşəbbüslər Avropanın enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, ölkəmizin beynəlxalq nüfuzunu da artırır.

"Yaşıl enerji" strategiyasının mühüm istiqamətlərindən biri də enerji ixracının yeni mərhələyə keçididir. Azərbaycanın təşəbbüsü ilə formalaşdırılan beynəlxalq enerji dəhlizləri Cənubi Qafqazı, Xəzər hövzəsini və Mərkəzi Asiyanı Avropa ilə daha sıx əlaqələndirir. Bununla ölkəmiz Şərqlə Qərbi birləşdirən mühüm nəqliyyat-logistika mərkəzi olmaqla yanaşı, etibarlı "yaşıl enerji" körpüsünə də çevrilir. Bu strategiyanın əsas üstünlüyü yalnız istehsal edilən elektrik enerjisi və ya cəlb olunan investisiyalarla ölçülmür. Onun əsl dəyəri ekoloji məsuliyyətdə, insan amilinə verilən önəmdə və gələcək nəsillərə hesablanmış dövlət siyasətində ifadə olunur. Daha təmiz ətraf mühit, təbii ehtiyatlardan daha səmərəli istifadə, müasir texnologiyalar əsasında inkişaf edən regionlar və yeni məşğulluq imkanları "yaşıl enerji" siyasətinin cəmiyyətə qazandırdığı başlıca üstünlüklərdir.

Bu gün Biləsuvarın geniş düzənliklərində, Neftçalanın günəşli ərazilərində, Abşeronun küləkli sahillərində, Qarabağın dağlarında və Şərqi Zəngəzurun gur çayları boyunca həyata keçirilən layihələr bir həqiqəti təsdiqləyir: vaxtilə ölkəmizin iqtisadi yüksəlişinin rəmzinə çevrilən neft buruqları kimi, bu gün quraşdırılan külək turbinləri və günəş panelləri də yeni inkişaf mərhələsinin simvoludur.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Uşaqların sosial şəbəkələrdən istifadəsi qanunla tənzimlənəcək

**Dünyanın bir sıra ölkələrinin təcrübəsi nəzərə alınmaqla Azərbaycanda da uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə qərar verilib. Bununla bağlı Milli Məclisdə qanun qəbul olunub.**




Hazırda uşaqların həyatı yalnız ailə, məktəb və qohumların çevrəsi ilə məhdudlaşmır. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar sosial şəbəkələrin uşaqlar üçün də əlçatanlığı həddindən çox artıb. Uşaqların həyatına daxil olan və onların ayrılmaq istəmədikləri, sevimli əyləncələrinə çevrilən sosial şəbəkələrin övladlarımızın qarşısında daha çox məlumat almaları, biliklərini artırmaları, yeni ünsiyyət qurmaları, dostlar qazanmaları, dünyanı virtual səyahətə çıxmaları üçün geniş imkanlar açdığını inkar etmək mümkün deyil. Ancaq nəzərə almaq lazımdır ki, uşaqların psixologiyası, həyata baxışları tam formalaşmadığına görə onların sosial şəbəkələrdə zərərli təsirlərə məruzqalma riskləri daha böyükdür.

Milli Məclisdə qəbul olunan qanun rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunması, sosial şəbəkə platformalarından təhlükəsiz istifadənin təmin olunması, habelə platformaların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Qanuna əsasən, İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişikliklərin edilməsi qərara alınıb.

Ölkəmizdə uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsinə keçid edilməsi Azərbaycan dövlətinin uşaq siyasətinə son dərəcə həssas yanaşması ilə bağlıdır. Respublikamızda uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və müasir tələblərə cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi dəyərlərə əsaslanan sosial mühitdə böyüməsi üçün zəruri şərait yaradılması, uşaqların şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Uşaqların sağlam böyüməsi, onların baxımsızlığı hallarının aradan qaldırılması, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud, aztəminatlı ailələrdən olan uşaqların sosial müdafiəsinin təmin edilməsi prinsipləri dövlətin qəbul etdiyi sosialyönümlü proqramlarda xüsusi yer tutur.

"Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" ölkəmizdə uşaq hüquqları sahəsində mövcud hüquqi bazanı təkmilləşdirməklə, uşaqların müdafiəsinin işlək mexanizminin yaradılması, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyi göstərilməsi, çətin həyat şəraitində olan uşaqların müdafiəsi, uşaqların sağlam mühitdə böyüməsi və tərbiyəsi, uşaqlarla bağlı həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi sisteminin inkişafı kimi əsas istiqamətləri, bütövlükdə milli səviyyədə uşaq siyasətinin əsas hədəflərini müəyyən edir. Qeyd edək ki, uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı uğurla reallaşdırılıb.

Uşaqların sosial şəbəkələrdən istifadəsinin qanunla tənzimlənməsi isə bütün dünyada olduğu kimi, Azərbaycan üçün də yeni çağırışdır. Məlumdur ki, sosial şəbəkələr vasitəsilə dünyagörüşü tam formalaşmamış uşaqlara zərərli təsirlərin ötürülməsi riskləri kifayət qədər böyükdür. Onlara cəlbedici paylaşımlarla zərərli vərdişlər aşılana, o cümlədən cinayətkarlığa çağırışlar edilə, ailə sirlərinin alınmasına cəhdlər göstərilə bilər.

Milli Məclisdə üçüncü oxunuşda qəbul olunan qanunda nəzərdə tutulan tənzimləmə mexanizmi uşaqları sosial şəbəkələrin zərərli risklərindən qorumağı hədəfləyir. Uşaqların yetkinlik yaşına çatana qədər bu təsirlərdən uzaq olmaları onların fiziki və psixoloji sağlamlığına, düzgün inkişafına və davranışına, sağlam baxışla yetişmələrinə imkan verəcək. Burada ailələrin üzərinə də böyük məsuliyyət düşür. İlk növbədə valideynlər uşaqlarının rəqəmsal mühitdə fəaliyyətlərinə məsuldurlar.

Milli Məclisdə keçirilən "Rəqəmsal inkişaf, süni intellekt və uşaqların sosial şəbəkə platformasındakı zərərli təsirlərdən qorunması" mövzusunda icrimai müzakirədə də qeyd olunduğu kimi, uşaqlar və yeniyetmələr üçün sosial media platformalarında geniş yayılmış kiberzorakılıq, kiberqısnama, yaşa uyğun olmayan məzmuna məruz qalma və onlayn cinsi zorakılıq edən şəxslər tərəfindən istismar riski ciddi narahatlıq doğurur.

Azərbaycanda uşaqların yaşa uyğun informasiya əldə etmək və zərərli informasiyadan mühafizəsi hüquqi cəhətdən hələ 2018-ci ildə qəbul edilmiş "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunla tənzimlənir. Lakin sosial şəbəkə platformalarının bu illər ərzində keçdiyi transformasiya, sadə ünsiyyət vasitəsindən çoxşaxəli, alqoritmlə idarə olunan, bir çox hallarda isə manipulyativ dizayn həllərindən istifadə edən nəhəng ekosistemlərə çevrilməsi daha dəqiq tənzimləmə mexanizmlərini zəruri etdi. Bu baxımdan cari il iyunun 30-da Milli Məclisin qəbul etdiyi İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlara edilən dəyişikliklərin uşaqları sosial media platformalarındakı zərərli təsirlərdən qorumaq və sağlam düşüncəli gələcək nəslin formalaşması sahəsində mühüm əhəmiyyət kəsb edir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

İQTİSADİYYAT

# 20 il fasiləsiz və təhlükəsiz neft nəqli

## Bu, BTC əsas ixrac boru kəməri vasitəsi ilə mümkün olub

**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri artıq 20 ildir ahəngdar və təhlükəsiz fəaliyyət göstərir. Belə ki, bu unikal boru kəməri tam sistem kimi 2006-cı il iyulun 13-də istifadəyə verilib. Bu münasibətlə həmin gün Türkiyənin Ceyhan şəhərində təntənəli mərasim keçirilib. Tədbirdə kəmərin keçdiyi üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin dövlət başçıları iştirak ediblər.**



Qeyd edilən tarixdən bir qədər də geriyə dönərək xatırladaq ki, kəmərə ilk neft 2005-ci il mayın 25-də Bakı yaxınlığındakı Səngəçal terminalından vurulmuşdu. Bu həmçinin BTC-nin Azərbaycan hissəsinin istifadəyə verilməsi demək idi. Bakıda və Səngəçalda bu münasibətlə keçirilən tədbirlərdə Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Türkiyənin, Gürcüstanın və Qazaxıstanın dövlət başçıları da iştirak etmişdilər. Xəttin Gürcüstan hissəsi isə həmin il oktyabrın 12-də Qardabani rayonundakı nasos stansiyasından fəaliyyətə başlamışdı.

BTC-nin daşıdığı ilk neft "Əsrin müqaviləsi" çərçivəsində Xəzərin Azərbaycan sektorundakı "Azəri" yatağından çıxarılan neft idi. Bu neft 2006-cı il iyunun 4-də Ceyhan terminalında ilk tankerə yüklənib. Beləliklə, təqribən 600 min barel Azərbaycan xam neftindən ibarət ilk həcmlər "British Hawthorn" tankerinə vurularaq Ceyhan terminalından yola salınıb.

İndiyədək isə BTC boru kəməri vasitəsilə ümumilikdə 4,7 milyard bareldən çox (təxminən 630 milyon ton) xam neft nəql edilib və bu həcm 6271 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Hazırda BTC əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) də nəql olunur.

Uzunluğu 1768 kilometr olan BTC boru kəməri Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün inşa edilib. BTC öz marşrutu boyu 1768 kilometr məsafə qət edir. Xəttin Azərbaycanda yolu 443, Gürcüstanda 249 və Türkiyədə 1076 kilometrdir. Kəmər ölkəmizdə 13 rayondan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Coranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan, sonrakı yolunda - Gürcüstanda və Türkiyədə isə daha onlarca şəhər və kənddən keçir.

Dünya miqyasında dövrünün ən böyük və ən mürəkkəb mühəndis-texniki nailiyyətlərindən biri hesab edilən BTC-nin tikintisinin tamamlanması üçün dörd il tələb olunub. Layihə 2002-ci ilin iyul ayında təsdiqlənib və 2006-cı ilin may ayında başa çatıb. Tikintinin ən qızğın dövründə bu işlərə 22 min nəfər cəlb olunub . Onların təxminən 80 faizini inşaat işləri gedən ölkənin öz sakinləri təşkil edib, tikinti zamanı 110 milyondan artıq adam-saat sərf edilib və 220 min boru hissəsi qaynaqla birləşdirilib.

BTC-nin cari ötürücülük gücü gündəlik 1 milyon bareldir. Boru kəmərində diametri 46, 42 və 34 düym olan borulardan istifadə edilib. Üç tranzit ölkə boyu kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var.

Maraq doğuran faktlardan biri də odur ki, BTC Ceyhanda yenidən dəniz səviyyəsinə enməzdən əvvəl 2830 metr yüksəkliyə qalxır. Bir neçə dağ silsiləsi, 3000 yol, dəmiryolu, yeraltı və yerüstü kommunikasiya xətləri, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla 1500-dən artıq su hövzəsi ilə kəsişir.

Bu, tikinti mərhələsindən başlayaraq regiona əhəmiyyətli faydalar gətirən və müsbət dəyişikliklərə yol açan bir kəmərdir. Layihə başlandığı vaxtdan kəmərin marşrutu boyunca 550-dən çox icma ilə (750 mindən çox insan) sıx işləməklə minlərlə sosial təşəbbüs həyata keçirilib və bu fəaliyyət gələcəkdə də davam edəcək.

BTC Ulu Öndər Heydər Əliyevin şah əsərlərindən biridir. Belə ki, onun reallaşması Ümummilli Liderin səyi, mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində mümkün olub. Bu layihənin bir önəmli cəhəti də odur ki, yeni meqalayihələrə yol açıb. Başqa sözlə, Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhandan başlanan yolu geniş dəhlizlərə qovuşdurub. Dövlətimizin başçısı BTC-nin çəkilişini tarixi hadisə kimi dəyərləndirərək demişdir: "Əgər o kəmər olmasaydı, Azərbaycan öz neft və ondan sonra qaz potensialını dünya bazarlarına çatdıra bilməzdi. Beləliklə, dəhliz yaradıldı. Xəzər dənizi-Qara dəniz-Aralıq dənizi əməkdaşlıq formatı formalaşmışdır. Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan bu gün uğurla fəaliyyət göstərir və başqa ölkələrə də xidmət edir. Dəhliz formalaşandan sonra əlbəttə ki, Azərbaycan öz tranzit rolunu oynamağa başlamışdır. Bu gün biz qeyd edə bilərik ki, artıq Azərbaycan öz coğrafi vəziyyətindən, logistika imkanlarından tam şəkildə istifadə edir".

BTC-nin tam sistem kimi fəaliyyətə başlamasının 20 illiyi layihənin tarixində yeni bir əlamətdar hadisə ilə üst-üstə düşür. Bakı-Tbilisi-Ceyhan Şirkəti (BTC Co) elan edib ki, 2026-cı il iyulun 1-dən kəmərin operatorluğu BP şirkətindən SOCAR-a məxsus törəmə müəssisə olan "SOCAR Midstream Operations" MMC-yə (SMO) keçib.Operatorluğun ötürülməsi BTC-nin hər üç hissəsini - Azərbaycan, Gürcüstan və Türkiyə hissələrini əhatə edir. Bundan əlavə, BTC ilə bağlı bütün fəaliyyətlərin idarə edilməsi, habelə həm BTC, həm də Cənubi Qafqaz Boru Kəməri (CQBK) sistemləri ilə əlaqədar indiyədək BP tərəfindən icra olunan ümumi fəaliyyətlərin operatorluğu da SMO şirkətinə keçib.

SOCAR-ın prezidenti Rövşən Nəcəf bununla bağlı deyib: "SOCAR bu strateji enerji dəhlizinin təhlükəsiz, etibarlı və səmərəli fəaliyyətini təmin etmək öhdəliyinə tam sadiq qalaraq onun regional və qlobal enerji təhlükəsizliyinə töhfəsini daha da gücləndirəcək".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Dayanıqlı iqtisadi inkişafın yeni mərhələsi

**Son onillikdə dünya iqtisadiyyatı növbəti inkişaf mərhələsinə qədəm qoyub. Geoiqtisadi parçalanma, qlobal tədarük zəncirlərinin yenidən formalaşması, rəqəmsal texnologiyaların iqtisadi münasibətlərə təsirinin sürətlənməsi, süni intellektin istehsal və xidmət sahələrində tətbiqinin genişlənməsi, eyni zamanda "yaşıl iqtisadiyyat"a keçid dünya dövlətlərinin iqtisadi inkişaf strategiyalarını yenidən nəzərdən keçirməsini zəruri edib.**



Müasir mərhələdə rəqabət üstünlüyü artıq yalnız zəngin təbii ehtiyatlar, ucuz əmək resursları və ya yüksək istehsal gücü ilə müəyyən olunmur. Dövlətlərin iqtisadi dayanıqlığını və rəqabət qabiliyyətini müəyyən edən əsas amillər güclü institutlar, hüquqi sabitlik, çevik idarəetmə, innovasiya potensialı və investor etimadını təmin edən biznes mühitidir. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illər həyata keçirilən iqtisadi islahatlar yalnız idarəetmə sistemində təşkilati dəyişikliklər kimi deyil, iqtisadiyyatın institusional əsaslarının müasir çağırışlara uyğun şəkildə yenidən qurulması prosesi kimi qiymətləndirilməlidir. Vergi və gömrük inzibatçılığının rəqəmsallaşdırılması, dövlət xidmətlərinin elektron platformalara inteqrasiyası, sahibkarlıq fəaliyyətinin təşviqi, investisiya mühitinin təkmilləşdirilməsi, dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin genişləndirilməsi və azad edilmiş ərazilərin yeni iqtisadi inkişaf modeli əsasında formalaşdırılması bu transformasiyanın əsas istiqamətlərini təşkil edir.

Əslində söhbət yalnız yeni qanunların qəbulundan və ya inzibati islahatlardan getmir. Əsas məsələ iqtisadi idarəetmə fəlsəfəsinin dəyişməsidir. Müasir iqtisadi siyasətin prioriteti dövlətin bazar münasibətlərində dominant iştirakçı kimi deyil, səmərəli tənzimləyici və etibarlı institusional təminatçı kimi çıxış etməsidir. Məhz bu yanaşma özəl sektorun iqtisadi fəallığını artırır, investisiya qərarlarının keyfiyyətini yüksəldir və uzunmüddətli iqtisadi artım üçün möhkəm zəmin yaradır.

### İqtisadi artımın əsas göstəricisi - institutların gücü

Uzun illər ərzində iqtisadi inkişaf əsasən ümumi daxili məhsulun artımı, ixracın həcmi, investisiya axını və məşğulluq göstəriciləri ilə qiymətləndirilirdi. Lakin müasir iqtisadi nəzəriyyə göstərir ki, yüksək artım tempinin uzunmüddətli qorunması ilk növbədə institusional keyfiyyətdən asılıdır. Nobel mükafatı laureatı Duqlas Nortun qeyd etdiyi kimi, iqtisadi institutlar cəmiyyətin "oyun qaydaları"nı müəyyən və resursların səmərəli bölgüsünü təmin edir. Güclü institutlar olmadan yüksək investisiya həcmi belə davamlı iqtisadi rifaha çevrilmir.

Bu gün hüquqi müəyyənlik, mülkiyyət hüquqlarının etibarlı qorunması, müqavilələrin icra mexanizmlərinin effektivliyi, şəffaf bazar münasibətləri, peşəkar tənzimləmə və etibarlı informasiya mühiti iqtisadi inkişafın fundamental dayaqları hesab edilir. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və OECD-nin çoxsaylı araşdırmaları da təsdiq edir ki, institusional keyfiyyət yüksəldikcə investisiya riskləri azalır, kapitalın məhsuldarlığı artır və iqtisadi artım daha dayanıqlı xarakter alır.

Biznes ekosistemi də məhz bu institusional münasibətlər sisteminin məhsuludur. O, yalnız sahibkarların fəaliyyət göstərdiyi bazar deyil. Bura dövlət idarəçiliyi, maliyyə sektoru, məhkəmə sistemi, kapital bazarları, rəqəmsal infrastruktur, peşəkar xidmət institutları, insan kapitalı və innovasiya mühiti daxildir. Həmin komponentlərdən hər hansı birində yaranan zəiflik ümumi iqtisadi səmərəliliyə mənfi təsir göstərir. Əksinə, onların koordinasiyalı fəaliyyəti kapitalın daha məhsuldar sahələrə yönəlməsinə, innovasiyaların sürətlənməsinə və biznes risklərinin azalmasına şərait yaradır.

Məhz buna görə müasir iqtisadi siyasətdə əsas məqsəd yalnız iqtisadi artım əldə etmək deyil, həmin artımı təmin edən institutların dayanıqlılığını gücləndirməkdir. İnstitusional keyfiyyət iqtisadi inkişafın həm nəticəsi, həm də, əsas hərəkətverici qüvvəsidir.

### Beynəlxalq göstəricilər institusional inkişafın obyektiv meyarıdır

Qloballaşan iqtisadiyyatda institusional islahatların effektivliyi yalnız milli qiymətləndirmələrlə deyil, beynəlxalq indikatorlar vasitəsilə də ölçülür. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, OECD və Dünya İqtisadi Forumu tərəfindən hazırlanan hesabatlarda dövlət idarəçiliyinin keyfiyyəti, biznes mühitinin səmərəliliyi, maliyyə sektorunun dayanıqlılığı, rəqabət qabiliyyəti və investisiya mühitinin etibarlılığı iqtisadi inkişafın əsas determinantları kimi qiymətləndirilir.

Xüsusən Dünya Bankının son dövrdə tətbiq etdiyi Business Ready metodologiyası biznes mühitini yalnız normativ-hüquqi baza baxımından deyil, həmin qaydaların praktik tətbiqi və institusional effektivliyi prizmasından qiymətləndirir. Bu yanaşma təsdiq edir ki, iqtisadi inkişafın əsas şərti onun şəffaf, səmərəli və proqnozlaşdırılan şəkildə tətbiqidir.

Azərbaycanın son illər həyata keçirdiyi iqtisadi islahatlar da məhz bu yanaşma ilə uzlaşır. Dövlət xidmətlərinin rəqəmsallaşdırılması, sahibkarlıq subyektləri üçün inzibati prosedurların sadələşdirilməsi, elektron vergi və gömrük sistemlərinin geniş tətbiqi, investisiya təşviqi mexanizmlərinin təkmilləşdirilməsi və biznes mühitinin liberallaşdırılması institusional inkişafın mühüm istiqamətlərinə çevrilib.

Bu islahatların nəticələri makroiqtisadi göstəricilərdə də öz əksini tapır. Dövlət Statistika Komitəsinin və Mərkəzi Bankın məlumatları qeyri-neft sektorunun iqtisadi artımda rolunun genişləndiyini, bank sektorunda kredit qoyuluşlarının artdığını və özəl investisiya fəallığının yüksəldiyini göstərir. Beynəlxalq maliyyə institutları da Azərbaycan iqtisadiyyatının makroiqtisadi sabitliyini, fiskal dayanıqlılığını və dövlət borcunun idarə olunmasını ölkənin əsas üstünlükləri sırasında qiymətləndirirlər.

Belə bir institusional mühitdə aktivlərin beynəlxalq standartlara uyğun qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki investisiya qərarlarının obyektivliyi, kredit risklərinin düzgün hesablanması və maliyyə resurslarının səmərəli bölgüsü etibarlı qiymətləndirmə institutunun mövcudluğundan birbaşa asılıdır. Məhz bu səbəbdən qiymətləndirmə fəaliyyəti müasir biznes ekosisteminin ayrılmaz institusional elementlərindən biri kimi çıxış edir.

*Ayan QƏMBƏROVA,*
*Azərbaycan Qiymətləndiricilər Palatasının sədr müavini*

# Əməkdaşlığın yol xəritəsi

## Azərbaycan-Türkmənistan iqtisadi əlaqələrinin ortaq gələcəyi ortaq maraqlar vəd edir

**Azərbaycan və Türkmənistanı təkcə Xəzər dənizi deyil, həm də ortaq tarix, dil, mədəniyyət və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq birləşdirir. Hazırda iki qardaş ölkə arasında iqtisadi əlaqələrin inkişafı regionun sabitliyi və rifahı baxımından mühüm əhəmiyyət kəsb edir. Enerji, nəqliyyat, ticarət və logistika sahələrində həyata keçirilən birgə layihələr Azərbaycan ilə Türkmənistan arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir.**



Qarşılıqlı etimada söykənən bu münasibətlər yalnız iki dövlətin iqtisadi inkişafına deyil, həm də Xəzər regionunun beynəlxalq iqtisadi əhəmiyyətinin artmasına təsir göstərir. Bu baxımdan Azərbaycan-Türkmənistan iqtisadi əlaqələrinin inkişaf istiqamətlərini və perspektivlərini araşdırmaq xüsusi aktuallıq tələb edir. Əslində beynəlxalq münasibətlər sistemində baş verən mürəkkəb proseslər türk dövlətləri arasında birliyin daha çox gücləndirilməsini tarixi zərurətə çevirib. Ötən illər ərzində baş verən proseslər bu istiqamətdə inamlı addımların atıldığını göstərir. Azərbaycan dövləti isə türk dünyasının birliyinin möhkəmlənməsində aparıcı rol oynayır.

Xüsusən həmin birlik fonunda təbii qaz ehtiyatlarının səmərəli istifadəsi və ixracı üzrə əməkdaşlıq Azərbaycanla Türkmənistanın strateji maraqlarına xidmət edir. Bu mənada 2021-ci ildə Xəzər dənizində yerləşən "Dostluq" yatağının birgə işlənilməsinə dair əldə olunan razılaşmanı münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirmək olar. Həmin sənəd təkcə enerji əməkdaşlığının genişlənməsinə deyil, həm də iki dövlət arasında siyasi etimadın möhkəmlənməsinə xidmət edən mühüm addım idi.

Son zamanlar Azərbaycan-Türkmənistan iqtisadi əlaqələri əhatə dairəsini xeyli genişləndirərək çoxşaxəli xarakter alıb. Ticarət, nəqliyyat-logistika, energetika, sənaye və investisiya sahələrində əməkdaşlığın intensivləşməsi artıq reallıqdır. Bu istiqamətdə yaradılmış əməkdaşlıq mexanizmləri də mühüm rol oynayır. Belə ki, 2007-ci ildə yaradılmış Azərbaycan-Türkmənistan Hökumətlərarası Birgə Komissiyası iqtisadi əməkdaşlığın sistemli şəkildə inkişaf etdirilməsinə, mövcud imkanların dəyərləndirilməsinə və yeni birgə layihələrin həyata keçirilməsinə əlverişli zəmin yaradıb.

İki ölkə arasında əməkdaşlığın praktik nəticələri isə yüksəksəviyyəli qarşılıqlı təmaslarda və iqtisadi gündəliyin əsas istiqamətlərinin müzakirə olunduğu görüşlərdə özünü aydın büruzə verir. Bu günlər iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin Türkmənistana işgüzar səfəri ölkələrimiz arasında iqtisadi tərəfdaşlığın növbəti mühüm mərhələsi kimi diqqət çəkir. Mikayıl Cabbarov Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, Azərbaycan ilə Türkmənistan arasında Birgə Hökumətlərarası Komissiyanın Türkmənistan tərəfindən həmsədri Nökərqulı Ataqulıyevlə görüşüb. Görüşdə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin səmərəliliyinin artırılması, ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, sənaye, nəqliyyat, infrastruktur və turizm sahələrində əməkdaşlığın inkişafı, qarşılıqlı maraq doğuran layihələrin inkişafı istiqamətində fikir mübadiləsi aparılıb. İşgüzar səfər çərçivəsində Azərbaycanla Türkmənistan arasında Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası keçirilib.

Hökumətlərarası Birgə Komissiya Azərbaycan ilə Türkmənistan arasında iqtisadi əməkdaşlığın əlaqələndirilməsində mühüm platforma hesab olunur. Komissiya çərçivəsində qəbul edilən qərarlar ticarət dövriyyəsinin artırılmasına, qarşılıqlı investisiyaların təşviqinə, biznes subyektləri arasında əməkdaşlığın genişlənməsinə və yeni birgə layihələrin reallaşdırılmasına əlverişli zəmin yaradır. Nəqliyyat-logistika, energetika, sənaye, kənd təsərrüfatı və tranzit daşımaları kimi strateji sahələrdə əməkdaşlığın dərinləşdirilməsi isə hər iki ölkənin iqtisadi potensialından daha səmərəli istifadə edilməsinə imkan verir. Komissiyanın fəaliyyəti təkcə ikitərəfli iqtisadi münasibətlərin inkişafına deyil, həm də Orta dəhlizin rəqabət qabiliyyətinin artırılmasına, Xəzər regionunun tranzit imkanlarının genişlənməsinə və türk dünyasının iqtisadi inteqrasiyasının möhkəmlənməsində mühüm rol oynayır. Ona görə də komissiyanın qəbul etdiyi qərarlar həm Azərbaycan, həm də Türkmənistan üçün uzunmüddətli iqtisadi üstünlüklər vəd edir.

İclasda vurğulanıb ki, Azərbaycan və Türkmənistan liderlərinin müəyyən etdiyi strateji xətt ikitərəfli münasibətlərin bütün istiqamətlər üzrə dinamik inkişafını təmin edir. Tərəflər qarşılıqlı investisiyaların təşviqi, işgüzar dairələr arasında əlaqələrin gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi istiqamətində əməkdaşlığı bir qədər də dərinləşdirmək niyyətində olduqlarını bildiriblər.

Görüşdə humanitar əməkdaşlığın əhəmiyyəti də xüsusi vurğulanıb. Türkmənistanın Füzuli şəhərində qardaşlıq töhfəsi kimi inşa etdiyi məscid kompleksinin xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin növbəti təzahürü olduğu qeyd edilib. Eyni zamanda Azərbaycanın Türkmənistana hədiyyə etdiyi "Dostlug" neftdaşıyan tankerinin iki ölkə arasında qarşılıqlı etimadın və strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə xidmət edən rəmzi addımlardan biri olduğu bildirilib.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan ilə Türkmənistan arasında münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Qarşılıqlı siyasi etimad, ortaq strateji maraqlar və iqtisadi əməkdaşlığın davamlı genişlənməsi iki qardaş ölkənin tərəfdaşlığını daha da möhkəmləndirir. Xüsusilə iqtisadi sahədə həyata keçirilən birgə layihələr hər iki dövlətin iqtisadi inkişafına xidmət etməklə yanaşı, Xəzər regionunun və Orta dəhlizin beynəlxalq əhəmiyyətini də artırır.

Müasir geosiyasi reallıqlar fonunda Azərbaycan-Türkmənistan əməkdaşlığının daha çox dərinləşməsi yalnız ikitərəfli münasibətlər baxımından deyil, bütövlükdə türk dünyasının iqtisadi inteqrasiyası və regional sabitliyin möhkəmləndirilməsi nöqteyi-nəzərindən də xüsusi əhəmiyyət kəsb edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Kino tariximiz

# "Fətəli xan" filmi və onun taleyi

**Azərbaycan kino salnaməsində elə ekran əsərləri var ki, onlar təkcə bədii keyfiyyətləri ilə deyil, həm də çəkildikləri dövrün geosiyasi fırtınaları və dramatik pərdəarxası hadisələri ilə tarixə düşürlər. Bu mənada 1947-ci ildə Bakı kinostudiyası tərəfindən istehsal olunmuş "Fətəli xan" bioqrafik-tarixi bədii filmi kinomuzun ən mürəkkəb, eyni zamanda ən şərəfli səhifələrindən biridir.**






Ekran əsəri XVIII əsrdə dağınıq Azərbaycan xanlıqlarını vahid dövlət halında birləşdirməyə çalışan Quba xanı Fətəlinin həyatından və mübarizəsindən bəhs edir. İlkin olaraq layihə milli rejissorlarımız Adil İsgəndərov və Mikayıl Mikayılova tapşırılsa da, sonradan Moskva tərəfindən idarəçilik sovet kinosunun tanınmış siması, lakin tariximizə yad olan Yefim Dziqana həvalə edilmişdir. Baş rolda (Fətəli xan) Ələsgər Ələkbərov, digər rollarda İsmayıl Əfəndiyev, Leyla Bədirbəyli, Əli Qurbanov, Kazım Ziya, Mustafa Mərdanov, Nəcibə Məlikova və başqaları oynamışlar. Musiqi tərtibatı görkəmli bəstəkar, SSRİ Xalq artisti maestro Niyaziyə həvalə edilmişdi. Onun bəstələdiyi musiqi filmdəki döyüş səhnələrinin və xanın daxili iztirablarının təsir gücünü qat-qat artırırdı.

Belə bir ekran əsərinin çəkilməsi o dövr üçün çox böyük cəsarət və peşəkarlıq tələb edirdi. Ssenari müəllifləri, Azərbaycan ədəbiyyatının nəhəngləri Mehdi Hüseyn və Ənvər Məmmədxanlı tarixi faktlara əsaslanaraq dramaturji cəhətdən mükəmməl bir mətn hazırlamışdılar. Film boyu Fətəli xanın Şamaxı, Bakı və Şəki xanlıqlarını ittifaqa çağırması, xarici düşmənlərə və daxili xainlərə (xüsusilə dərbəndli Əmir Həmzəyə) qarşı apardığı amansız hərbi-diplomatik mübarizə canlandırılır.



## Filmin 12 illik sürgün tarixi: sovet dövrünün siyasi senzurası və tarixi təhriflər

1947-ci ildə çəkilişləri başa çatan film Moskvaya - Kinematoqrafiya Nazirliyinə təqdim edildikdə ciddi narazılıqla qarşılandı. Rəsmi bəhanə kimi filmin guya "tarixi həqiqətləri təhrif etməsi" və "millətçilik meyilləri" daşıması göstərildi. Əslində isə Kremlə Azərbaycan torpaqlarını vahid güc mərkəzində birləşdirən müstəqil və güclü bir xan obrazı lazım deyildi.

Film tam 12 il gizlədildi. Yalnız 1959-cu ildə - "Xruşşov mülayimləşməsi" dövründə filmin üzərindən qadağa qismən götürüldü. Lakin film ilk variantında olduğu kimi qalmadı, onun bütöv üç hissəsi tamamilə kəsildi, süjet xəttində xanın Rusiyaya tərəf yönəlməsini qabardan ideoloji redaktələr edildi. Kinoşünasların yazdıqlarına görə, bütün qadağalara və kəsintilərə rəğmən, "Fətəli xan" Azərbaycan xalqının milli azadlıq və birlik ideallarına xidmət edən ən dəyərli kino nümunəsi olaraq qaldı.

Filmin çəkiliş prosesi və oradakı tarixi təhriflər sovet dövrünün siyasi senzurası, ideoloji tələbləri və kino sənayesinin çətinlikləri ilə birbaşa bağlı idi. Ekran əsəri sırf Stalin rejimi və sovet tarixşünaslığının konyunkturasına uyğun formalaşdırıldığı üçün real tarixlə ciddi ziddiyyətlər təşkil edirdi. Filmdə Fətəli xan sanki bütün fəaliyyətini Azərbaycan torpaqlarını Rusiyaya birləşdirmək üzərində qurmuş bir feodal kimi göstərilirdi. Real tarixdə isə Quba xanı xarici düşmənlərə və daxili rəqiblərinə (məsələn, Dağıstan feodallarına) qarşı Rusiya imperiyasından, sadəcə, hərbi-siyasi müttəfiqlik və müvəqqəti kömək istəmişdi. Onun əsas məqsədi Rusiyanın tərkibinə girmək deyil, müstəqil və vahid Azərbaycan dövləti yaratmaq idi.

Real tarixdə Quba xanı Fətəli Dağıstan feodalları və xarici qüvvələrə qarşı mübarizədə Rusiya imperiyasından kömək istəsə də, filmdəki gəmi səhnəsi və rus ordusunun qəti xilaskar rolunda təqdim edilməsi sırf sovet tarixşünaslığının sifarişi idi. Hətta bu "dostluq" xəttinə baxmayaraq, film ilkin variantda bəzi milli motivlərə və xanlıq dövrünün çox təmtəraqlı göstərilməsinə görə rəhbərlik tərəfindən bəyənilməmiş, ciddi ixtisarlardan və dəyişikliklərdən sonra nümayişə buraxılmışdır.

Filmdə Azərbaycan xanlıqlarının xarici düşmənləri qismində yalnız İran və Osmanlı imperiyası ön plana çəkilir. Bu, sovet ideologiyasının Qafqaz xalqlarına yeritdiyi "Rusiya olmasaydı, cənub qonşuları sizi məhv edəcəkdi" tezisinə bəraət vermək məqsədi daşıyırdı. Azərbaycanın digər xanları (məsələn, Şəki, Qarabağ və ya Bakı xanları) filmdə yalnız mənfəət güdən və xalqın gələcəyini düşünməyən feodallar kimi təsvir olunurlar. Əslində isə bu xanlıqların hər birinin öz müstəqilliyini qorumaq strategiyası var idi və mərkəzləşdirmə müharibələri ikitərəfli regional maraqlardan doğurdu.

## Pərdə arxasında yaşanan gərgin sənət mübarizəsi

"Fətəli xan" filminin ərsəyə gəlməsi təkcə ekran əsəri üzərindəki tarixi döyüşlərlə deyil, həm də pərdə arxasında yaşanan gərgin sənət mübarizəsi və ağır texniki şəraitlə yadda qalmışdır. Filmin aktyorlarının, rejissorlarının və çəkiliş qrupunun arxiv xatirələri o dövrün kino fədakarlığını tam çılpaqlığı ilə üzə çıxarır.

Milli kino tariximizin gizli qalan məqamlarından biri filmin ilkin olaraq tamamilə fərqli bir heyətlə çəkilməyə başlanmasıdır. Layihənin ilk variantında quruluşçu rejissor, qeyd etdiyimiz kimi, görkəmli sənətkar Adil İsgəndərov nəzərdə tutulmuşdu. Lakin kinostudiyada keçirilən iclasların birində Əmir Həmzə obrazını canlandıran görkəmli aktyor İsmayıl Əfəndiyev gözlənilməz bir çıxış edir: "Mən çox ciddi şəkildə bildirirəm ki, biz öz daxili rejissor gücümüzlə "Fətəli xan" kimi nəhəng bir tarixi filmin öhdəsindən gələ bilmərik. Rejissorlarımız qoy məndən inciməsinlər, bu filmi layiqincə üzə çıxarmaq üçün Moskvadan daha təcrübəli sənətkar dəvət olunmalıdır". Bu çıxış daxili intriqalara səbəb olsa da, nəticədə filmin rəhbərliyi dəyişdirilir və Moskvadan rejissor Yefim Dziqan Bakıya dəvət olunur.

Ələsgər Ələkbərov öz xatirələrində qətiyyətlə bildirirdi: "Mən xanı yox, vahid vətən ideyasını oynayıram". Aktyor öz xatirələrində qeyd edirdi ki, çəkilişlər zamanı sovet senzurasının nümayəndələri mütəmadi olaraq ssenariyə müdaxilə edir, xanın Rusiyaya tərəf yönəlməsini qabartmağa çalışırdılar. Ələkbərov isə hər bir dublda xanın feodal iddialarını deyil, onun daxili iztirablarını - qardaş qırğınına son qoymaq arzusunu ön plana çəkməyə çalışırdı. Aktyorun obrazı bu daxili əzəmətlə ifa etməsi sonradan filmin sovet rəhbərliyi tərəfindən, qeyd etdiyimiz kimi, "həddindən artıq millətçi və təhlükəli" hesab edilərək uzun illər rəfdə qalmasının əsas səbəblərindən biri oldu.

O illər Bakı kinostudiyasının texniki təchizatı çox zəif idi. Filmin direktoru Daniil Yevdayev məktublarında yazırdı ki, pavilyonlarda işıq şəraitinin dözülməz dərəcədə pis olması ucbatından aktyorlar saatlarla gərgin vəziyyətdə gözləməli olurdular, operatorlar isə hər bir kadrı çəkmək üçün xüsusi yaradıcılıq fantaziyası nümayiş etdirirdilər.

Amma bu ekran əsəri Azərbaycan teatrının iki fərqli nəslinin taleyində rəmzi rol oynamışdı: gənc aktrisa Nəcibə Məlikova (Xədicə rolu) üçün bu film kinoda böyük uğurun ilk addımı və vizit kartı idi. Azərbaycan səhnəsinin patriarxı, Mirzə Nadir rolunu oynayan Kazım Ziya üçün isə "Fətəli xan" ömrünün son kino işi kimi tarixə düşmüşdü.

## Milli aktyorluq məktəbinin zirvəsi

Ekran əsərinin bu gün də yaşamasının və sevilməsinin ən böyük səbəbi oradakı bənzərsiz aktyor oyunudur. Azərbaycan teatr və kino sənətinin korifeyləri bu filmdə, sadəcə, tarixi personajları canlandırmamış, onlara milli ruh və dərin psixoloji qat qazandırmışlar. Kinotənqidçiləri və sənətşünaslar tərəfindən bu oyun hər zaman yüksək qiymətləndirilmişdir.

Filmin mərkəzində dayanan və bütün süjet xəttini çiyinlərində daşıyan fədakar sənətkar Ələsgər Ələkbərovdur. Onun yaratdığı Fətəli xan obrazı Azərbaycan kinosunda dövlət xadimi və sərkərdə tipajının etalonu hesab olunur. Ələkbərov xanı dərin təfəkkürə malik, hər addımını ölçüb-biçən müdrik bir strateq kimi təqdim edirdi. Baxışlarındakı qətiyyət, səsinin tembri və monoloqlarındakı milli vurğular personajı inanılmaz dərəcədə real etmişdi. Sənətşünaslar qeyd edirlər ki, Ələkbərovun oyunu o qədər güclü və təsirli idi ki, tamaşaçı ekranda sovet ideologiyasının diktə etdiyi "Rusiyaya sığınan xan"ı deyil, müstəqil, azadlıqsevər və bütöv Azərbaycan ideyası ilə alışıb-yanan bir lideri görürdü. Məhz bu aktyor qüdrəti filmin siyasi konyunkturaya qurban verilməsinin qarşısını aldı, çünki bu ifanı arxivdə tamamilə məhv etmək sənətə qarşı cinayət olardı.

Tuti Bikə obrazını canlandıran Xalq artisti Leyla Bədirbəyli filmdə Şərq qadınının təkcə gözəlliyini deyil, həm də onun dövlət idarəçiliyindəki rolunu, cəsarətini və sadiqliyini yüksək səviyyədə nümayiş etdirmişdir. O, məharətlə xanın yoxluğunda qalanı qoruyan, düşmən qarşısında dik duran güclü bir xanım obrazını yaratmışdır.

Filmdə mənfi personajları canlandıran aktyorlar xəyanət, qısqanclıq və feodal ambisiyalarını çox qabarıq şəkildə tamaşaçıya çatdıra bilmişdilər. Kinotənqidçilər xüsusilə vurğulayırlar ki, filmdəki "mənfi" qüvvələr güclü iradəyə və özünəməxsus fəlsəfəyə malik ciddi rəqiblər kimi göstərilib. Bu isə baş qəhrəmanın - Fətəli xanın onlara qarşı apardığı mübarizənin miqyasını və dəyərini tamaşaçının gözündə daha da böyüdürdü.

Filmdə ikinci dərəcəli obrazların ifaçıları da baş rollardan geri qalmırlar. Böyük sənətkar Rza Təhmasib Ağası xan obrazında feodal əyanlarının təkəbbürünü və mühafizəkarlığını yüksək bədii dillə ifadə edir. Bunun tam əksi olaraq, Mustafa Mərdanovun oynadığı Şirin kişi obrazı xalqın müdrikliyini, sadəliyini və dövlətçilik ideyasına olan saf inamını simvolizə edirdi. Mərdanovun oyunu filmə xalq yumorunun incə çalarlarını gətirərək epik süjeti daha da canlandırmışdır. Bir sözlə, "Fətəli xan" filmindəki aktyor ansamblı təsdiq edir ki, sovet dövrünün sərt ideoloji çərçivələrinə baxmayaraq, böyük sənət və aktyor səmimiyyəti hər zaman senzuranı üstələməyə qadir olmuşdur. Ona görə də filmin aktyor oyununa verilən ən böyük qiymət zamanın sınağından keçməsidir.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

● Tarixi abidələrimiz

# Zaqatala qalası

**Azərbaycanın böyük şəhərləri, ucqar bölgələri, kənd və qəsəbələri maddi-mədəni irsimizi özündə yaşadan tarixi abidələrlə zəngindir. Belə abidələrdən biri də Zaqatala qalasıdır.**

Ümumiyyətlə, Zaqatalada 108 tarixi-memarlıq abidəsi var. Əksəriyyəti yerli əhəmiyyətlidir. Onlardan ən qədimi Pəri qalası, Armatay qalası, Cingöz qalası, Şeytan qalası, Zaqatala səddi və başqalarıdır. Bunlardan başqa, rayonun kənd yerlərində VI-VIII əsrlərdən qalmış 10-dan çox alban abidəsi mövcuddur.

Zaqatalada qədim abidələrlə yanaşı, yeni dövrün tarixini özündə birləşdirən abidələr də çoxdur. Bu bölgəni tarixdə işğalçılara qarşı mübarizənin örnək nümunəsi kimi də səciyyələndirmək olar. Belə mübarizələrdən tarixdə tanınan Car-Balakən üsyanı Zaqatala qalasının "bioqrafiya"sında xüsusi yer tutur.




Car-Balakən qəzası Rusiyanın təbəəliyinə keçdikdən sonra (1804) onun hərbi-strateji əhəmiyyətini nəzərə alan çar hökuməti Zaqatala şəhərinin günbatan hissəsində qala tikdirmək qərarına gəlmişdir. Bu qala Cənubi Qafqazda olan rus qoşunlarının komandanı general-feldmarşal Paskeviçin əmri ilə tikilmişdir. Qalanı tikdirməkdə çar hökumətinin məqsədi rus işğalçılarına qarşı gələcəkdə yerli əhalinin qaldıracağı qiyam və üsyanların yatırılması idi.

1828-ci ildə Türkmənçay müqaviləsindən sonra qalanın tikilməsi labüd hal almışdır. Artıq 1830-cu ildə Zaqatala qalasının divarlarının tikintisinə başlanıldı. Üçbucaq şəklində olan qalanın iki tərəfi şərq və qərbdən sıldırımdır. Şimal tərəfdən yer səviyyəsindədir. Mühafizə məqsədilə hasarın çöl tərəfindən eni 10, dərinliyi 5 metr olan xəndək qazıldı. Sahəsi 11,5 hektar olan qalanın divarlarının uzunluğu 3000, hündürlüyü 3-5 metrdir. Qalanın 3 böyük - Zabit, Əsgər və Nəqliyyat qapıları mövcuddur. İstifadəsinə uyğun olaraq adlandırılan bu qapılar qalanın şərq və qərb hissəsində yerləşir. Qalada daimi olaraq 2500 əsgər, bəzən isə 8-10 minə qədər əsgər yerləşdirilirdi.

Zaqatala qalası XIX əsrin əvvəllərində tikilsə də, köhnə sistemlidir. Onun şimal-qərb bürcü müşahidə bürcü olumuşdur. Bürc ikimərtəbəlidir və onun üstünə çıxmaq üçün torpaq yol salınmışdır. Altında və divar boyu içəri tərəfdən dustaqları saxlamaq üçün kameralar, karserlər və həbsxanalar tikilmişdir. XIX əsr tikilisi olmasına baxmayaraq, Orta əsr qalalarında olduğu kimi, mühasirədən çıxmaq üçün qalanın altından şəhər ətrafına doğru yeraltı iki yol çəkilmişdir. Hazırda həmin yollar bağlı olsa da, qalır.

Məxəzlərin yazdığına görə, müxtəlif vaxtlarda böyük hərbi qüvvələr qalanı mühasirədə saxlamış, lakin ələ keçirə bilməmişlər. 1830-cu il Zaqatala üsyanına kömək məqsədilə Dağıstanın imamı Həmzət bəy 2000 nəfərlik qoşunla qala üzərinə hücuma keçir. Məğlubiyyətə uğrayan çar qoşunları hələ tikintisi tam başa çatmayan qala divarları arxasında müdafiəyə çəkilərək kömək üçün yeni qüvvələr gözləyirlər. Qalanı hücumla ala bilməyəcəyini yəqin edən Həmzət bəy onu mühasirədə saxlamalı olur. Ancaq tezliklə 4500 nəfərlik rus qoşunu mühasirədə qalanların köməyinə gəlir. Böyük qüvvə üstünlüyünə malik olan rus qoşunları üsyanı amansızcasına yatırır.

Zaqatala Tarix-Mədəniyyət qoruğunun elmi işçisi Səbuhi Bayramov mətbuata açıqlamasında bildirib ki, 1864-cü ildə Dağıstan Rusiyaya birləşdirildikdən sonra, yəni Qafqaz Rusiyanın nəzarətinə keçdikdən sonra Zaqatala qalası öz əvvəlki hərbi əhəmiyyətini itirmişdi. Amma 1905-ci il inqilabi çaxnaşmalar Rusiyanın hər tərəfini bürüdüyü zaman qala təzədən yada düşdü. "Potyomkin" gəmisində baş verən üsyan siyarətedici xəstəlik kimi imperiyanın başqa donanmalarına da yayılmışdı. 1905-1907-ci il inqilabından sonra gəmidə baş verən üsyan yatırılaraq iştirakçıları Zaqatala qalasına sürgün edildilər.

1918-ci ildə Musavat hakimiyyəti zamanı Zaqatala qalasında Əhməd bəy Dibirovun komandan olduğu Musavat piyada polku yerləşdirildi. Həmin dövrdə məşhur türk sərkərdəsi Nuru Paşanın komandanı olduğu ordunun bir bölüyü də bu qalada dislokasiya olundu. Sovet hakimiyyəti illərində isə banditizmə qarşı mübarizə aparan çekistlərin Dövlət Siyasi İdarəsi bura köçdü. Sonralar qala ərazisində azyaşlıların islah olunması üçün təcridxana, habelə bir çox idarə və müəssisə fəaliyyət göstərmişdir. Ötən əsrin sonlarında Azərbaycan öz tarixi müstəqilliyinə qovuşduqdan sonra qalada daxili qoşunların "N" saylı hərbi hissəsi yerləşmişdi. Hazırda qala Zaqatala Dövlət Rəsm Qalereyasının ünvanıdır. Xatırladaq ki, məşhur "Yenilməz batalyon" və "Cavad xan" filmləri Zaqatala qalasında çəkilmişdir.

*Rəhman SALMANLI, "Azərbaycan"*

# Berlində "Bakı Prosesi" və VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilə bağlı təqdimat olub

**Bu ilin oktyabrında Bakıda təşkil olunacaq VII Mədəniyyətlərarası Dialoq Forumu ilə əlaqədar Almaniya ictimaiyyətini və media mühitini məlumatlandırmaq məqsədilə Azərbaycanın Almaniyadakı səfirliyinin və Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə təqdimat keçirilib.**



AZƏRTAC xəbər verir ki, Almaniyanın bir sıra media qurumlarının nümayəndələrinin iştirak etdikləri tədbirə tanınmış jurnalist Evald Köniq moderatorluq edib.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev tədbirdə çıxış edərək ölkəmizin əsrlər boyu müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət şəraitində birgə yaşadığı unikal multikulturalizm modeli olduğunu diqqətə çatdırıb. Səfir Azərbaycanın bu zəngin daxili təcrübəsini qlobal müstəviyə daşıyaraq, sivilizasiyalararası dialoqa xidmət edən və beynəlxalq səviyyədə yüksək qiymətləndirilən "Bakı Prosesi" və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi nüfuzlu təşəbbüslərin müəllifi olduğunu vurğulayıb. Çıxışda həmçinin Azərbaycanda dərin tarixi köklərə malik olan alman mədəni irsinin və alman izinin bu gün də dövlət səviyyəsində böyük diqqətlə qorunduğu, bunun ölkəmizin mədəni müxtəlifliyinin və Avropa ilə qurulan güclü mədəniyyətlərarası körpülərin bariz nümunəsi olduğu xüsusi qeyd edilib.

Sonra "Bakı Prosesi" - Mədəniyyətlərarası Dialoq Forumu haqqında film nümayiş olunub.

# "Shahin Novrasli Festival-2026" çərçivəsində...

**"Shahin Novrasli Festival-2026" çərçivəsində Azərbaycanın Əməkdar artisti, tanınmış caz pianoçusu, festivalın direktoru və təşkilatçısı Şahin Növrəslinin konserti keçirilib. Axşamın xüsusi qonağı Azərbaycanın Əməkdar artisti, tanınmış cazmen və saksafon ifaçısı Rain Sultanov olub.**

Konsertdə Ziya Hüseynzadə (bas gitara), Elşad Əbdürəhimov (nağara) və braziliyalı musiqiçi Ayzek Camba (zərb alətləri) da çıxış ediblər.

AZƏRTAC-ın müxbiri ilə söhbətində Şahin Növrəsli bildirib ki, festivalın həm təşkilatçısı olmaq, həm də onun çərçivəsində səhnəyə çıxmaq böyük məsuliyyət tələb edir.



"Bu işin hər iki tərəfi çətindir: həm ifa etmək, həm də təşkilatçı olmaq. Üstəlik, hər ikisini bir arada həyata keçirmək. Lakin bunun öhdəsindən gəlirik. Festivalı şəhərimizin sakinləri və qonaqları üçün təşkil edirik. İnsanlar artıq beşinci ildir ki, bu festivalı səbirsizliklə gözləyirlər. "Shahin Novrasli Festival" çoxjanrlı olması ilə seçilir. Buna görə də müxtəlif musiqi üslublarını sevən dinləyicilər burada öz zövqlərinə uyğun proqram tapa bilirlər", - deyə caz musiqiçisi vurğulayıb.




## Kuansa yarımfinalı buraxacaq



**İngiltərə millisinin və "Bayer" klubunun müdafiəçisi Carell Kuansa DÇ-2026-da 2 oyunluq diskvalifikasiya edilib.**

"BBC"nin məlumatına görə, 23 yaşlı futbolçu Meksika ilə 1/8 final matçında (3:2) qırmızı vərəqə aldığı epizoda görə cəzalandırılıb. Kuansanın qayda pozuntusunun xarakterini nəzərə alan FIFA-nın İntizam Komitəsi standart bir oyunluq cəzanı ağırlaşdırmaq qərarına gəlib. Beləliklə, futbolçu Norveçə qarşı 1/4 finalı, İngiltərə növbəti mərhələyə yüksələrsə, mümkün yarımfinalı da buraxacaq.

Amma FIFA-nın bu qərarı yenidən müzakirələrə səbəb olub. Çünki qurum daha əvvəl ABŞ millisinin hücumçusu Folarin Baloqunun qırmızı vərəqəsini ləğv etmişdi.

## İsveçrə Argentina ilə oyuna xüsusi proqram əsasında hazırlaşır

**İsveçrə millisi 1/4 finalda Argentina ilə keçiriləcək oyuna xüsusi proqram əsasında hazırlaşır. Bu barədə "Fichajes" məlumat yayıb.**



Mənbənin iddiasına görə, isveçrəlilər məşqlərdə natamam heyətlə oyun vəziyyətlərini sınaqdan keçirirlər. Komanda 11 nəfərə qarşı 10, 9 və hətta 8 futbolçu ilə oynamağı məşq edir. Bundan başqa, qapıçı Qreqor Kobel hər gün qapıçılar üzrə məşqçi ilə birlikdə iki saata yaxın penaltilər seriyasına hazırlaşır. Bununla Argentina ilə matçda azlıqda qalmaq, uzun müddət güclü təzyiq altında müdafiə olunmaq və oyunun penaltilər seriyasına qədər uzanması ehtimalları nəzərə alınır.

Mənbənin yazdığına görə, İsveçrədə bu görüş milli komandanın tarixində ən vacib oyun hesab olunur. Futbolçular üçün əlavə motivasiya isə Lionel Messini və son dünya çempionunu turnirdən kənarlaşdırmaqdır.

Qeyd edək ki, Argentina-İsveçrə oyunu iyulun 12-də Bakı vaxtı ilə səhər saat 05:00-da başlayacaq.

## Deklan Rays komandadan təcrid edilib



**İngiltərə millisinin yarımmüdafiəçisi Deklan Rays 1/4 finalda Norveçə qarşı keçiriləcək oyun öncəsi komandadan təcrid edilib. Buna səbəb futbolçuda aşkarlanan infeksion xəstəlik olub.**

"Daily Mail"in məlumatına görə, Rays əvvəldən dizaltı vətərində və bel nahiyəsində problemlər yaşayırdı. Xəstəliyin əlavə olunması isə vəziyyəti daha da ağırlaşdırıb. İngiltərə millisinin həkimləri virusun komandada yayılmasının qarşısını almaq üçün 26 yaşlı futbolçunu komandadan ayırıb.

Yarımmüdafiəçi xəstəlik səbəbindən son iki məşqi də buraxıb. Bildirilir ki, komanda daxilində virusun yayılması nəzarət altına alınıb.

Qeyd edək ki, daha əvvəl Norveç millisinin bir neçə futbolçusunda da oxşar virus əlamətləri müşahidə olunmuşdu.

İngiltərə-Norveç oyunu iyulun 12-də Bakı vaxtı ilə gecə saat 02:00-da başlayacaq.

## Ronaldo və ABŞ-nin mundialdan getməsi qiymətləri alt-üst etdi



**Dünya çempionatında bəzi favorit və ev sahibi komandaların turnirlə vaxtından əvvəl vidalaşması bilet bazarına inanılmaz dərəcədə mənfi təsir göstərib.**

Nüfuzlu "Forbes" nəşri xəbər verir ki, cümə günü Belçika və İspaniya arasında keçiriləcək dünya çempionatının 1/4 final mərhələsinin bilet qiymətləri təxminən 60 faiz ucuzlaşıb. Buna əsas səbəb kimi ev sahibi olan ABŞ millisinin və Kriştianu Ronaldonun çıxış etdiyi Portuqaliyanın turnirdən kənarlaşdırılması göstərilir.

## Mbappedən yeni rekord



**Fransa millisinin hücumçusu Kilian Mbappe yığma karyerasında yeni uğura imza atıb.**

27 yaşlı futbolçu Fransa millisinin tarixində 100 qol sayına çatan ilk oyunçu olub. Mbappe yığmada keçirdiyi 104 oyunda 64 qol vurub və 36 məhsuldar ötürmə edib.

Qeyd edək ki, Mbappe Mərakeşlə 1/4 final matçında 1 qol vurub və 1 məhsuldar ötürmə edib. Fransa rəqibini 2:0 hesabı ilə məğlub edərək yarımfinala yüksəlib.

## "Mərakeşi seçdiyimə görə zərrə qədər peşman deyiləm"

**Mərakeş millisinin yarımmüdafiəçisi Ayyub Buaddi milli komanda seçimi ilə bağlı açıqlama verib. 18 yaşlı futbolçu qərarından razı olduğunu bildirib.**



"Fransa əvəzinə Mərakeşi seçdiyimə görə zərrə qədər peşman deyiləm. Bununla fəxr edirəm. Bu, ürəyimin seçimi idi", - deyə Buaddi bildirib.

Fransanın Krey şəhərində anadan olan Ayyub Buaddi Fransanın aşağı yaş qrupları üzrə bütün millilərində, o cümlədən U-21 yığmasında çıxış edib və hətta həmin komandada kapitan da olub. 2026-cı ilin mayında isə o, valideynlərinin vətənini təmsil etmək qərarı verərək idman vətəndaşlığını dəyişib və Mərakeş millisinin formasını seçib.

## Kanada brendi Holand obrazında bədheybət oyuncaq yaratdı



**Kanadanın "Fuggler" brendi Norveç milli futbol komandasının hücumçusu Erlinq Holandı əsas götürərək bədheybət oyuncaq yaradıb.**

Həmin video şirkətin rəsmi "Instagram" hesabında paylaşılıb. "Fuggler" özünü gülməli bədheybət oyuncaqlar yaradan brend kimi təqdim edir.

DÇ-2026-da Holand İraq, Seneqal və Braziliyanın qapılarına iki, Kot-d`İvuar komandası ilə oyunda isə bir qol vurub. O, turnirin ən yaxşı bombardirləri siyahısındadır. Holand 56 il ərzində ilk oyunçu olub ki, dünya çempionatının ilk 4 matçında 7 qol vurub. Bunu edən sonuncu futbolçu 1970-ci ildə almaniyalı Qerd Müller olmuşdu.

## Mərakeş və Fransa azarkeşlərindən maraqlı reaksiya

**Fransa və Mərakeş millilərinin tərəfdarları fransalıların DÇ-2026-da qələbəsini Paris küçələrində birgə qeyd ediblər. Gözləntilərin əksinə olaraq, azarkeşlər arasında heç bir ciddi qanun pozuntusu olmayıb.**

Xatırladaq ki, 2022-ci il dünya çempionatının yarımfinalında bu komandaların matçından sonra azarkeşlərin törətdiyi iğtişaşları nəzərə alan Fransa hökuməti küçələrdə təhlükəsizliyi təmin etmək üçün 20 min polis və jandarm cəlb etmişdi. Onlardan 8 mini Parisdə xidmət aparmışdı. Bu addım həm Mərakeş millisinin fanatlarının iştirakı ilə mümkün iğtişaşlar, həm də ifrat sağçı fəalların onlara hücum etmə ehtimalı barədə daxili kəşfiyyatın proqnozları ilə əlaqədar atılmışdı.

## Modriç Slaven Biliçin rəhbərliyi altında yenidən oynamaq istəyir



**Xorvatiya millisinin kapitanı Luka Modriç yığmadakı karyerasını başa vurmaq fikrində deyil.**

40 yaşlı yarımmüdafiəçi ölkəsini təmsil etmək və Slaven Biliç baş məşqçi postuna təyin olunacağı halda onun rəhbərliyi altında oynamaq istəyir.

Sentyabrın 9-da 41 yaşı tamam olacaq təcrübəli futbolçu 2006-cı ilin martından Xorvatiya seçməsinin formasını geyinir və komandanın tarixində ən çox oyun keçirən futbolçudur. Modriçə millidə debüt etmək imkanını 2006-cı ildə məhz Slaven Biliç vermişdi.

*Hazırladı:*
***Dönməz ABBASOV***




## NASA-nın kosmik gəmisi yeni muzeydə nümayiş olunacaq



Noyabrın 13-dən etibarən NASA-nın "Endeavour" kosmik gəmisi yeni Samuel Oschin Hava və Kosmos Mərkəzində təqdim olunacaq. 200 min kvadrat fut sahəni əhatə edən mərkəzdə sözügedən kosmik gəmi ilə yanaşı, 100-dən çox tarixi aerokosmik eksponat da sərgilənəcək. Ən diqqətçəkən yenilik isə kosmik gəminin ilk dəfə buraxılışa hazır vəziyyətdə, bərk yanacaq gücləndiriciləri və xarici yanacaq çəni ilə birlikdə nümayiş etdirilməsi olacaq. Muzeyə ziyarətə gələnlər 140 fut hündürlüyündə xüsusi lift vasitəsilə kosmik gəminin yanına qalxaraq, astronavtların uçuşdan əvvəl yaşadığı təcrübəni hiss edə biləcəklər.

Qeyd etmək lazımdır ki, "Endeavour" 1986-cı ildə baş verən "Challenger" faciəsindən sonra onun əvəzinə hazırlanıb. NASA kosmik gəmini 2011-ci ildə rəsmi olaraq istismardan çıxarıb.

## "Bentley"nin ilk elektromobili

**"Bentley Motors" tam elektrik mühərriki ilə təchiz olunmuş ilk modeli "Torcal"ın təqdimatına hazırlaşır. Avtomobil nəhəngi yeni elektromobilin tizer vizualını nümayiş etdirərək, təqdimat mərasiminin sentyabrın 23-də Londonda təşkil olunacağını elan edib.**




Şirkətin rəhbəri Frank Steffen Ualliser bu modelin brend tarixində ən həssaslıqla hazırlanan layihələrdən biri olduğunu və texnoloji imkanları, gücü, həmçinin rahatlığı ilə sənayedə yeni standartlar formalaşdıracağını vurğulayıb. Yeni elektromobil istehsalçının məşhur "Bentayga", "Bacalar" və "Batur" seriyalarının davamçısı kimi sıralara daxil olacaq.

Avtomobilin adı İspaniyada yerləşən unikal El Torcal de Antequera təbii qaya massivindən ilhamlanaraq seçilib və eyni zamanda latın dilində fırlanma anını ifadə edən "torque" terminınə rəmzi işarədir. Cari ilin əvvəlində Arktikada ekstremal hava sınaqlarından keçərkən kameralara tuş gələn modelin dizayn detalları onun aerodinamik kupe-SUV formasında olacağını sübut edir. Eksteryerdə keçən il nümayiş etdirilən EXP 15 konseptual modelinin cizgiləri hiss olunur. Yaxın müddətdə avtomobilin texniki göstəriciləri barədə əlavə detallar açıqlanacaq. Yenilik tamamilə fərqli bir dizayn üzərində qurulsa da, brendin 1919-cu ildən bəri sadiq qaldığı lüks, estetika və yüksək dinamika irsini tamamilə özündə yaşadacaq.

## "Netflix"in kontent strategiyası




**"Netflix" platforması avqust ayının əvvəllərindən etibarən qlobal şəbəkənin ən çox izlənilən rəqəmsal videolayihələrini öz yayım şəbəkəsinə inteqrasiya etməyi planlaşdırır.**

Şirkətin imzaladığı yeni tərəfdaşlıq müqavilələrinə əsasən, abunəçilər bundan sonra nüfuzlu media nəşrlərinin, o cümlədən məşhur həyat tərzi, dəb və əyləncə təqdim edən jurnalların vizual layihələrinə birbaşa proqram daxilində baxa biləcəklər. Bu əməkdaşlıq çərçivəsində həm arxiv materialları, həm də internet məkanında geniş auditoriya toplayan müxtəlif sorğu və ev turları formatlı rəqəmsal şoular nümayiş olunacaq.

Şirkət bu addımı ilə istifadəçilərin digər sosial media və videoplatformalarına keçid etmədən, maraqlı qısametrajlı kontentləri elə öz interfeysində tapmasını hədəfləyir. Yeni strategiya bəzi orijinal serialların növbəti mövsümlərində qeydə alınan ciddi reytinq itkiləri və auditoriya azalması fonunda xüsusilə diqqət çəkir. Müddəti bir neçə dəqiqədən yarım saata qədər dəyişən bu dinamik videolar kulinariya, dizayn, fərdi qulluq və səyahət kimi müxtəlif sahələri əhatə edəcək. Gələcəkdə bu rəqəmsal şəbəkəyə digər iri internet yayımçılarının da daxil edilməsi nəzərdə tutulur.

## "Xiaomi"nin növbəti səyahət krossoveri

**"Xiaomi" şirkəti böyük ailələr üçün xüsusi olaraq hazırladığı fərqli elektromobilləri ilə nəqliyyat sektorundakı mövqeyini daha da gücləndirir.**



Brendin yeni ərsəyə gətirdiyi "Sky Nomad" kolleksiyası əvvəlki sürətli və idman xarakterli "SU7" və "YU7" sedanlarından tamamilə fərqlənən, geniş daxili həcmə və çoxşaxəli funksionallığa malik bir model kimi önə çıxır. Şirkətin təsisçisi və baş direktoru Lei Jun qeyd edib ki, əvvəlki nəqliyyat vasitələri daha çox sükan arxasındakı insanın rahatlığına xidmət edirdisə, yeni SUV ailə üzvlərinin daxilində sərbəst yaşaya biləcəyi daşınan bir otaq rolunu oynayır.

Yeni SUV seriyası "Xiaomi"nin sıfırdan hazırladığı Kunlun platforması üzərində qurulub. Bu sayədə maşının içərisi tamamilə hamar döşəməyə, həmçinin xüsusi xətlər boyunca sürüşən oturacaqlara malikdir ki, bu da salonun quruluşunu istəyə uyğun dəyişməyə şərait yaradır. İstehsalat sənədlərində "Kunlun N3" adlandırılan bu layihənin mağazalarda N90 indeksini daşıyacağı ehtimal edilir. Ümumi uzunluğu 5,3 metrdən çox, oxlar arasındakı məsafəsi isə 3,1 metr olan nəhəng maşın hibrid texnologiyası ilə çalışır. Avtomobildə yerləşdirilən 1,5 litrlik gücləndirilmiş mühərrik təkərlərə birbaşa qüvvə ötürmür, sadəcə, enerji toplayıcısını dolduran daxili stansiya kimi çalışır. Tutumu 70 kilovat-saatı ötən batareya kompleksi sayəsində maşın yanacaqsız 400-500 kilometr, daxili generator işə düşdükdə isə ümumilikdə 1500 kilometrdən artıq məsafə qət edə bilir. Görünüş cəhətdən də fərqli üslub seçilib və daha kəskin, düzbucaqlı xətlərə üstünlük verilib.

Şirkət cari ildə cəmi 550 min ədəd nəqliyyat vasitəsi çatdırmağı qarşısına məqsəd qoyub və ilk altı ayda təxminən 185 min satış həyata keçirildiyi üçün bu göstəriciyə çatmaqdan ötrü növbəti aylarda tempi kəskin şəkildə yüksəltmək lazımdır. Sözügedən yeni krossover seriyasının ilin son altı ayı ərzində rəsmi şəkildə müştərilərə təqdim ediləcəyi bildirilir.

## "DeepSeek"in prosessor hədəfi




**"DeepSeek" şirkəti özünün hesablama mikrosxemlərini yaratmaq üzərində işləyir. Çinin qabaqcıl texnologiya brendi olan bu qurum, hazır modellərin icrasını təmin edən xüsusi prosessorların istehsalını planlaşdırır.**

Bu addım" NVIDIA" və ya "Huawei" kimi qlobal tədarükçülərdən olan texniki asılılığı minimuma endirmək məqsədi daşıyır. Artıq zavodlarla ilkin müzakirələrə başlanılıb və təcrübəli mütəxəssislər gizli şəkildə komandaya cəlb olunurlar. Rəhbərlik hələlik bu barədə rəsmi bəyanat yaymayıb.

Analitiklər düşünürlər ki, bu layihə yerli və qlobal texnologiya bazarındakı güc balansını əhəmiyyətli dərəcədə dəyişə bilər. Şirkət bundan əvvəl də minimal büdcə ilə yüksək səmərə verən proqram təminatı ilə dünyanı təəccübləndirməyi bacarmışdı. Əgər yeni aparat təminatı da oxşar qənaətcilliyi nümayiş etdirsə, nəhəng istehsalçıların sektordakı hegemonluğu ciddi təhlükə altına düşəcək.

## Uzunömürlü batareyalara doğru




**"Samsung" 2027-ci ilin ikinci yarısından etibarən bərk elektrolitli (solid-state) batareyaların kütləvi istehsalına başlamağı planlaşdırır. Yeni texnologiyanın "Galaxy" smartfonlarının batareya ömrünü uzadacağı, enerji yığımını sürətləndirəcəyi və təhlükəsizliyi artıracağı bildirilir.**

Yeni batareyalar ənənəvi litium-ionlardan fərqli olaraq, maye deyil, bərk elektrolitdən istifadə edir. Bu, daha yüksək enerji sıxlığı, daha kiçik ölçü və daha yüngül konstruksiya əldə etməyə imkan verir. Mütəxəssislərin fikrincə, texnologiya gələcəkdə cihazların bir neçə dəqiqə ərzində enerji toplamasına da şərait yarada bilər. Bərk elektrolitli batareyaların əsas üstünlüklərindən biri təhlükəsizlikdir. Alışa bilən maye elektrolit olmadığından zədələnmə zamanı həddindən artıq qızma, alışma və partlayış riski xeyli azalır.

"Samsung" təxminən 10 ildir bu texnologiya üzərində çalışır. Lakin yüksək istehsal xərcləri onun geniş tətbiqini ləngidir. Hazırda bərk elektrolitli batareyaların istehsalı ənənəvi litium-ionlarla müqayisədə dəfələrlə bahadır. Analitiklərin proqnozuna görə, yeni batareyalar əvvəlcə "Galaxy Watch" və "Galaxy Ring" kimi geyilə bilən cihazlarda istifadə olunacaq. Texnologiyanın gələcəkdə təkcə smartfonlarda deyil, həm də elektromobillər və robotlarda geniş tətbiq olunacağı gözlənilir.

*Hazırladı:*
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## 11 İyul Ümumdünya Əhali Günüdür

# İnsan kapitalı gələcəyin ən böyük sərvətidir

**Ümumdünya Əhali Günü 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Rəhbərlər Şurasının qərarı ilə təsis olunub və ilk dəfə 1990-cı ildə 90-dan çox ölkədə qeyd edilib. Günün təsis edilməsinə səbəb 1987-ci il iyulun 11-də dünya əhalisinin 5 milyard nəfərə çatması olub.**



Hazırda Ümumdünya Əhali Günü BMT-nin Əhali Fondu (UNFPA) tərəfindən koordinasiya edilir və hər il müxtəlif mövzular çərçivəsində qeyd edilir. Bu günün əsas məqsədi əhali artımı, demoqrafik dəyişikliklər, ailə planlaşdırılması, reproduktiv sağlamlıq, gender bərabərliyi, yoxsulluğun azaldılması, qadın və uşaqların hüquqlarının qorunması kimi məsələlərə diqqəti artırmaqdır. Çünki müasir dünyada əhali yalnız statistik göstərici deyil, həm də sosial-iqtisadi inkişafın, dayanıqlı gələcəyin və dövlət siyasətinin əsas amillərindən biri hesab olunur.

BMT-nin Əhali Fondu diqqəti xüsusilə gənclərin gələcək planlarına, ailə qurmaq imkanlarına, iqtisadi çətinliklərə, sağlamlıq xidmətlərinə çıxışa və reproduktiv hüquqların təmin olunmasına yönəldir. Təşkilat hesab edir ki, müasir dövrdə əsas problem doğum səviyyəsinin aşağı düşməsi deyil, insanların istədikləri ailəni qurmaq imkanlarının müxtəlif sosial, iqtisadi və səhiyyə maneələri səbəbindən məhdudlaşmasıdır.

Rəsmi hesablamalara görə, hazırda Yer kürəsində 8,2 milyarddan çox insan yaşayır. Proqnozlara əsasən, dünya əhalisinin 2037-ci ildə 9 milyarda, 2060-cı ildə isə təxminən 10 milyarda çatacağı gözlənilir. Bununla yanaşı, əhali artımı əvvəlki onilliklərlə müqayisədə xeyli yavaşıyıb. Bir çox inkişaf etmiş ölkədə doğum səviyyəsinin azalması və əhalinin qocalması yeni sosial və iqtisadi çağırışlar yaradır. Digər tərəfdən, bəzi regionlarda yüksək doğum səviyyəsi təhsil, səhiyyə, məşğulluq və ərzaq təhlükəsizliyi sahələrində əlavə yük formalaşdırır. Buna görə də demoqrafik proseslərin düzgün idarə olunması davamlı inkişaf siyasətinin vacib istiqamətlərindən biri hesab edilir.

Mütəxəssislər qeyd edirlər ki, əhalinin sayından daha vacib məsələ onun keyfiyyət göstəriciləridir. İnsan kapitalının inkişafı, sağlam və savadlı nəslin yetişdirilməsi, gənclərin təhsil və məşğulluq imkanlarının artırılması, qadınların iqtisadi və ictimai həyata fəal cəlb edilməsi hər bir ölkənin inkişafına birbaşa təsir göstərir. Buna görə də müasir demoqrafik siyasət yalnız doğum göstəricilərinə deyil, insanların həyat keyfiyyətinin yüksəldilməsinə də yönəlir.

Əhali məsələləri iqlim dəyişikliyi, urbanizasiya, miqrasiya, qlobal səhiyyə problemləri və iqtisadi inkişafla da sıx bağlıdır. Son illər dünyada sürətlənən urbanizasiya nəticəsində şəhərlərdə yaşayan insanların sayı kənd əhalisini üstələyib. Bu proses yeni iş yerlərinin açılması, mənzil təminatı, nəqliyyat infrastrukturu və sosial xidmətlərin genişləndirilməsi kimi məsələləri daha da aktuallaşdırır. Digər tərəfdən, iqlim dəyişiklikləri nəticəsində baş verən təbii fəlakətlər və su qıtlığı bəzi regionlarda məcburi miqrasiyanın artmasına səbəb olur. Bu isə demoqrafik tarazlığa və iqtisadi inkişaf proseslərinə təsir göstərən mühüm amillərdəndir.

Müasir texnologiyalar da demoqrafik siyasətin ayrılmaz hissəsinə çevrilib. BMT 2025-ci ildə əhali məsələləri ilə bağlı maarifləndirmə işlərinin genişləndirilməsi üçün rəqəmsal platformaların və sosial medianın imkanlarından daha səmərəli istifadə edilməsini vacib bilir. İnformasiya texnologiyaları sayəsində reproduktiv sağlamlıq, ailə planlaşdırılması, ana və uşaq sağlamlığı, gender bərabərliyi və insan hüquqları ilə bağlı məlumatların daha geniş auditoriyaya çatdırılması mümkün olur. Xüsusilə gənclərin rəqəmsal mühitdə fəallığı nəzərə alınaraq maarifləndirici kampaniyaların sosial şəbəkələr üzərindən həyata keçirilməsi daha effektiv hesab edilir.

Azərbaycanda da demoqrafik inkişaf dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizdə Ümumdünya Əhali Günü 2005-ci ildən geniş şəkildə qeyd olunur. Azərbaycanda MDB məkanında ilk dəfə elmi əsaslarla hazırlanmış və demoqrafik siyasətin əsas istiqamətlərini müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib. Bu konsepsiya əhali artımının davamlılığının təmin olunması, ailə institutunun möhkəmləndirilməsi, ana və uşaqların sağlamlığının qorunması, miqrasiya proseslərinin tənzimlənməsi və insan kapitalının inkişafı kimi mühüm hədəfləri əhatə edir.

Son illər ölkəmizdə səhiyyə xidmətlərinin təkmilləşdirilməsi, icbari tibbi sığortanın tətbiqi, ana və uşaq sağlamlığı proqramlarının genişləndirilməsi, ailələrin sosial müdafiəsinin gücləndirilməsi demoqrafik inkişafın dəstəklənməsinə xidmət edir. Eyni zamanda təhsil sistemində aparılan islahatlar, gənclərin məşğulluq imkanlarının artırılması və sosial rifahın yüksəldilməsi də əhali siyasətinin mühüm tərkib hissəsidir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda Azərbaycan əhalisinin sayı 10 milyon 268 min nəfəri ötüb. Əhalinin yaş strukturunda gənclər mühüm yer tutur ki, bu da ölkənin əmək bazarı, iqtisadi inkişafı və gələcək potensialı baxımından mühüm üstünlük hesab edilir. Bununla yanaşı, bütün dünyada olduğu kimi, Azərbaycanda da doğum səviyyəsi, daxili və xarici miqrasiya, əhalinin yaşlanması kimi proseslərin davamlı izlənilməsi və elmi əsaslarla qiymətləndirilməsi böyük əhəmiyyət daşıyır.

Demoqrafik göstəricilər iqtisadi inkişafın planlaşdırılmasında mühüm rol oynayır. Məktəblərin, xəstəxanaların, yaşayış məntəqələrinin, nəqliyyat və kommunal infrastrukturun layihələndirilməsi məhz əhali proqnozlarına əsaslanır. Əhalinin yaş tərkibində baş verən dəyişikliklər pensiya sistemi, əmək bazarı, sosial müdafiə proqramları və səhiyyə xidmətlərinin həcminə də birbaşa təsir göstərir. Buna görə də dəqiq statistik məlumatlar və elmi proqnozlar dövlət idarəçiliyinin vacib elementlərindən hesab olunur.

Ümumdünya Əhali Günü bir daha xatırladır ki, əhali məsələləri yalnız statistik rəqəmlərdən ibarət deyil. Hər bir rəqəmin arxasında insan taleyi, ailə məsələsi, gələcək nəsillərin və cəmiyyətin inkişaf perspektivləri dayanır. Məhz buna görə də sağlam ailələrin formalaşdırılması, gənclərin potensialının reallaşdırılması, qadın və kişilər üçün bərabər imkanların yaradılması, keyfiyyətli səhiyyə və təhsilin təmin olunması hər bir ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olaraq qalır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*




# Bilmək istəyirəm

**- Qonşu eyvanda xalça-palaz çırpır, bütün toz mənim eyvanıma tökülür. Dəfələrlə desəm də, faydası yoxdur. Bunun qarşısını almaq üçün hansı hüquqi addımları ata bilərəm?**

***Humay ƏFƏNDİZADƏ,***
***Bakı şəhəri***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, bu problem qonşuluq münasibətlərində tez-tez rast gəlinən, həm məişət rahatlığını pozan, həm də sanitariya-gigiyena normalarına zidd olan bir haldır.

Nəzərə almaq lazımdır ki, mülki qanunvericilikdə qonşuluq münasibətləri, xüsusilə qonşuluq hüququ ətraflı şəkildə müəyyən edilmişdir. Bura ilk növbədə qonşunun hüququnun pozulmaması daxildir ki, bu göstəriş mülkiyyətçiyə açıq şəkildə bəyan edilir. Belə ki, Mülki Məcəllənin 152.5-ci maddəsinə görə, mülkiyyətçi qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla, müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər. Lakin bir şərtlə ki, qonşuların və ya üçüncü şəxslərin hüquqları pozulmamalı, hüquqdan sui-istifadəyə yol verilməməlidir.

Bundan başqa, mülki qanunvericilik qonşuluq münasibətlərinə hüquq prizmasından yanaşaraq qeyd edir ki, qonşu torpaq sahələrinin və ya digər daşınmaz əmlakın mülkiyyətçiləri bir-birinə qarşılıqlı hörmət bəsləməlidirlər. Öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə cürbəcür hədsiz təsirlərdən çəkinməlidir. Xüsusən, işlənmiş qazların, tozun, ağır qoxuların, səs-küyün və ya titrəyişlərin bütün ziyanlı və torpaq sahələrinin mövqeyinə və xarakteristikasına görə qanunsuz təsirləri qadağandır.

Bununla yanaşı, mülki qanunvericilik şəxsin qonşu təsirinə dözmək kimi bir vəzifəsinin olduğunu da vurğulayır. Mülki Məcəllənin 171.1-ci maddəsinə əsasən, torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisi, əgər öz sahəsindən istifadə etməkdə ona maneçilik yaranmırsa və ya hüququ əhəmiyyətsiz dərəcədə pozulursa, qonşu sahədən qazın, buxarın, qoxunun, hisin, tüstünün, səs-küyün, istiliyin, titrəyişlərin və ya digər oxşar amillərin öz sahəsinə təsirini qadağan edə bilməz. Lakin bu təsirlər normal həddi aşdıqda, əmlakdan istifadəyə mane olduqda və ya hüquqları pozduqda, həmin hərəkətlərə son qoyulmasını, zərurət olduqda kompensasiya tələb etmək hüququ yaradır.

Həmçinin əgər mülkiyyətçi bu cür təsirə dözməyə borcludursa, o, təsiri əmələ gətirən torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisindən, təsirin həmin ərazi üçün təsdiq edilən adi istifadədən və iqtisadi cəhətdən yol verilən hədlərdən yüksək olduğu hallarda pul formasında müvafiq kompensasiya tələb edə bilər.

Eyni zamanda Mülki Məcəllənin 157.4-cü maddəsinə görə, əgər mülkiyyətə qəsd və ya başqa maneələr əşyanı götürmədən və ya ondan məhrum etmədən törədilirsə, mülkiyyətçi qəsd edəndən bu hərəkətlərə son qoymağı tələb edə bilər. Bu cür hərəkətlər davam etdirildikdə isə mülkiyyətçi məhkəmə qaydasında onların dayandırılmasını tələb etmək hüququna malikdir.

Qonşu ilə aranızda yaranmış mübahisəni qonşuluq münasibətləri xatirinə ilk növbədə danışıqlar yolu ilə həll etməyə çalışın. Əgər şifahi xəbərdarlıq, yaxud ikitərəfli danışıq nəticə verməzsə, o zaman mübahisənin həlli prosesini rəsmi müstəviyə keçirmək lazımdır. Bunun üçün ilk növbədə əlinizdə güclü sübutlar olmalıdır. Məsələn, qonşunun xalça çırpdığı anın video və fotoşəkillərini çəkin (tozun sizin eyvana yayıldığı aydın görünməlidir).

Kifayət qədər sübut toplandıqdan sonra ilkin olaraq inzibati orqana - sahə müvəkkilinə müraciət edə bilərsiniz. Bu halda qonşunun hərəkətləri ictimai davranış və sanitariya qaydalarının pozulması kimi qiymətləndirilə bilər. Sahə müvəkkilinə rəsmi ərizə ilə müraciət edərək profilaktik söhbət aparılmasını və qanun pozuntusunun aktlaşdırılmasını tələb edin. Polisin tərtib edəcəyi hər hansı rəsmi sənəd (izahat, akt və s.) gələcəkdə məhkəmə üçün çox mühüm sübut olacaq.

İnzibati orqana müraciətlə birlikdə, yaxud ondan sonra məhkəməyə müraciət etməyiniz tövsiyə olunur. Beləliklə, iddiaçı olaraq cavabdehə (qonşuya) qarşı "qanunsuz hərəkətlərə son qoyulması (müdaxilənin aradan qaldırılması)" tələbinə dair məhkəməyə iddia ərizəsi ilə müraciət edə bilərsiniz. Əsas tələblə yanaşı, əgər bu toz nəticəsində eyvandakı əşyalarınıza və ya mənzilə maddi ziyan dəyibsə - maddi ziyanın ödənilməsini, həmçinin uzunmüddətli psixoloji gərginlik və rahatlığın pozulmasına görə - mənəvi ziyanın kompensasiyasını da tələb etmək hüququnuz vardır.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# ABŞ-də 8 nəfər Ağ Evə hücum planlaşdırmaqda ittiham olunur

## Sui-qəsdçilərdən birinin anası polisə vaxtında zəng edib

**ABŞ-nin 8 sakini Prezident Donald Trampın doğum günündə Ağ Evin Cənub çəmənliyində keçirilən UFC Freedom 250 tədbiri zamanı qətl və terror aktları törətmək üçün sui-qəsddə ittiham olunub. "AP News" Agentliyinin məlumatına görə, onlar iki ayrı sui-qəsddə - terrorçulara maddi dəstək vermək və federal hökumət rəsmisinin qətlini törətməkdə ittiham edilirlər.**



9 iyul ittihamnaməsi işi sadələşdirmək yönündə qaydaya salmaq və təqsirləndirilən şəxsləri vahid sui-qəsd ittihamında birləşdirmək məqsədi güdür. Rəsmilər qrup üzvlərinin marginal sui-qəsd nəzəriyyələrini dəstəklədiklərini və hücumun hökumətin işini pozduqlarına ümid etdiklərini deyiblər.

Hücuma hazırlıqlara may ayında - qrup pul, odlu silah, sursat, zirehli geyim, partlayıcı maddələr, dronlar, tibbi avadanlıqlar, rabitə vasitələri və digər əşyalar yığmağa başladığı zaman başlanıb. Təqsirləndirilən şəxslərdən biri müstəntiqlərə idman yarışları məkanında partlayıcı maddələrlə təchiz olunmuş dronları işə salmağı və sonra panikaya düşmüş tamaşaçıları qaçarkən güllələməyi planlaşdırdıqlarını bildirib.

Federal prokurorlar iddia edirlər ki, cinayətkar qrup tədbirdə Donald Trampı, vitse-prezident Cey Di Vensi, digər federal hökumət rəsmilərini, İsrailin Baş naziri Benyamin Netanyahunu, milyarder İlon Maskı və digər yüksəkvəzifəli məmurları öldürməyi planlaşdırıb.

Baş tutmayan bu hücumun təşkilatçısı meksikalı mühacir Abraham Hermosilyo Alvares hesab olunur. O, Nebraskada saxlanılıb. Qalan şübhəlilər Ohayo, Missuri, Kaliforniya və Vaşinqtonda həbs ediliblər. Bu həftə ittiham edilən şəxslərin sırasına Qərbi Virciniyanın 21 yaşlı sakini də əlavə olunub.

FTB planlaşdırılan hücum barədə turnirdən 4 gün əvvəl sui-qəsdçilərdən birinin anasının polisə zəng etməsindən sonra məlumat əldə edib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Hava proqnozu açıqlanıb

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 20-24, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 75-80, gündüz 50-60 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 20-25, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 20-25, bəzi yerlərdə 28-30 dərəcə isti olacağı ehtimal edilir.


«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Səttar Möhbalıyev deputat Nigar Arpadaraiyə qayınatası, akademik

**ƏJDƏR MƏCİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3145
Sifariş 866

Qiyməti 60 qəpik